# ÖMRÜN SƏHİFƏLƏRİ
## ( hər dövranın öz gərdişi)

**Redaktor: Musa Ələkbərli yazıçı.....**

**Kompyuter yığımı : Muxtarova Könül**

Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil, onun əsas mənası bu həyatda yerini tutmaq, mövqeyini müəyyən etmək, başqaları üçün nümunə olmaqdır.

**Ulu Öndər Heydər Əliyev**

ANNATASİYA

Bu sətirlər ömür kitabımın ən yadda qalan və unudulmaz səhifələridir. Şirin xatirələr dolu, qayğısız, şən günlərimi yad etdim. İtirdiklərimin təsəllisini ailəmdə, övladlarımda, ictimai fəaliyyətimdə tapdım. Ömür yolumda çox müsahibim olub. Onlara qulaq asdıqca ömür kitabımı vərəqləyirdim. Haqqında yazdığım hər bir insanın iç aləmi ilə tanış olduqca, onun sevincini, kədərini könül süzgəcimdən keçirib, yazdım. Hər kəsin bəxtinə bir ömür payı düşür. Hərə bu ömrü bir cürə yaşayır. Zirvənin uca nöqtəsini də hərə öz arşını ilə ölçür. Əsas məqsəd isə birdir.
Oxuyun, düşünün. Sizlərin fikri mənim üçün çox vacibdir.

Kitabın işıq üzü görməsində göstərdikləri mənəvi dəstəyə görə nəvəm Nərmin Samir qızına və Gülnarə Rauf qızına, maliyyə dəstəyinə görə oğlum Samir və qızım Könülə minnətdarlığımı bildirirəm.

MUSA ƏLƏKBƏRLİNİN ÖN SÖZÜ

G İ R İ Ş

Hər insan ömrü bir kitaba bənzəyir. Onun hər səhifəsi acılı-şirinli xatirələrlə dolu günlərdən, aylardan, illərdən soraq verir. Yaşa dolduqca, keçmişləri yada saldıqca bu kitabın səhifələrini daha tez-tez vərəqləyirsən.
Mənim ömür kitabımın ən yaddaqalan və unudulmaz səhifələri, atalı-analı dünyamın şirin xatirələr dolu, qayğısız, şən günləri, zaman keçdikcə mənə əlçatmaz, uzaq görünürsüz.
Yenidən qayıtmaq istəyirəm o illərə. Uşaq olmaq istəyirəm. Keçmişlərə ehtiyacım çoxdur.
Qayıtmaq istərdim o günlərə bir anlıq.
O çağların qədrini hər birimiz bilib, qorumalıyıq. İtirdiklərimin təsəllisini ailəmdə, övladlarımda, ictimai fəaliyyətimdə tapdım.
Bu yolda çox müsahibim olub. Onlara qulaq asarkən, ömür kitablarını vərəqləyirdim. Hər haqqında yazdığım insanın iç aləmi ilə tanış olduqca, sevincini və kədərini könül süzgəcimdən keçirmişəm.
Əlbəttə hərənin bəxtinə bir ömür düşür. Hərə bu ömrü bir cürə yaşayır. Biri gücü, biri ağlı, biri isə fərasətinə görə həyatda mübariz olur.
Hamı ömrün zirvəsinə can atır. Bunun isə geci –tezi olur.
Zirvənin uca nöqtəsini hərə öz arşını ilə ölçür.
Əsas məqsəd isə birdir. Məqama yetişmək. Elə bu məqamda arxandakı yükün ağırlığını sənə unutdurur.
Bu münval ilə qələmə aldıqlarım bunlardır.

Kitabı anam Zəhra xanıma ithaf edirəm!

## Həcər hünərli, Nigar qeyrətli xanım

Anam Zəhra xanım hər zaman qürurla deyərdi ki, qulağıma adımı çağıranda Fatimeyi Zəhranın şərəfinə adımı veriblər.
Bunun müqabilində Zəhra ana bütün çətinliklərin öhdəsindən gələ bilib.

Hərdən mənə elə gəlirdi ki, nəvəsi Gülarəyə olan məhəbbəti hamımıza bəslədiyi məhəbbətdən artıq idi. Hamı onları qısqanırdı. Mən də .

Sən demə sadəcə o, bizə olan məhəbbətini nümayiş etdirə bilmirdi. Bəlkə də bizə belə gəlirdi. Atam onu çox ərkəsöyün saxlayıb.
Əgər yer üzündə iki qeyrətli, namuslu qadın olubsa, hər ikisi anamdır desəm, yanılmaram.
Atalar misalında deyildiyi kimi sən demə nəvə övladdan şirin imiş.
İndi düşünürəm ki, fərqli nənə olmağı ondan öyrənmişəm.
Anam Zəhra xanım çox xoşbəxt qadın olub.
Onun xoşbəxtliyi gözəl həyat yoldaşı, beş övladı, on üç nəvəsi və yeddi nəticəsi ilə bağlı olub.
Onun ayaqqabılarını çoxları geymək istəyibsə də, yerişini təkrar edə bilən tapılmayıb. Çünki o Fərəcin həyat yoldaşı idi.
Sevinc, səadət dolu günləri çox olub. Bununla yanaşı həddən artıq zəhmətkeş qadın olub. Övlad yolunda – xüsusən Rauf və Çingizin yolunda şəhid olsa da, yorulmaq bilməzdi.
Onun şirin sözləri, çəkdiyi atalar misalı bu gün də dilimin əzbəridir.
Tez –tez düşürsən yadıma mənim sevimli, zəhmətkeş anam!
Övladlarının hamısını bir ana sevgisi ilə istəmisən. Amma bizə ayrı-ayrılıqda elə gəlirdi ki, aramızda fərq qoyursan.
İndi başa düşürəm ki, sadəcə bu bir qısqanclıq idi öz aramızda.
Anasının qulluğunda əsgər kimi durduğu yadıma düşəndə, mənə belə gəlir ki, övladlıq borcumu onun kimi yerinə yetirə bilməmişəm.
Hərçənd ki, deyilənlərə görə mən yaxşı övlad olmuşam. Amma hər dəfə özlüyümdə düşünürəm ki, ona çata bilmərəm. Onun kimi övlad olmaq istərdim. İndi başa düşdüklərimi o zaman başa düşsəydim...
Mənim sadəlöv, gözəl anam! Hayıf ki, yoxsan.
Düşünürəm ki, həyat hərdən insafsızlıq edir.
Hamının harayına çatardı anam. Çata bilmədiyi yerə - öz sözləri ilə desəm, başmaq-corabını göndərərdi.
Sevgisini bizə bildirməyi bacarmırdı. Amma nəvələri üçün əvəzsiz nənə oldu. Yer üzündə birincilik qazandı desəm, yanılmaram.
Hər zaman olduğu kimi indi də deyirəm - ana kimi istəyini bizə bildirməkdə elə bil qənaət edirdi.
Nənəliyin sirrlərini ondan öyrəndim. Onu nəvələrinə qısqana – qısqana.
İlk iki nəvə bəhrəsini Solmaz qızından gördü, amma Raufdan aldığı nəvə payı – nəvə Gülarə, onun bütün nənə sevgisini üstələdi.
Onu böyüdüb boya - başa çatmasında çəkdiyi əziyyət bu gün də gözümün qarşısındadır. Gülarəyə olan məhəbbəti elə bil bizləri ona unutdururdu. Bu bizə elə gəlirdi. İndi bunu daha çox başa düşürəm.
Qısqandığımdan hərdən incidirdim səni. Bağışla məni ana!

Atam Zəhra xanımı çox ərkəsöyün saxlayıb.
Mavi gözləri, dərisinin ağlığı bir dastan idi. Bu dastanı indi də yaşayanlar var. 80 yaşında dünyasını dəyişərkən yenə o gözəlliyini itirməmişdi. Hətta zalım xəstəlik belə onun gözəlliyini əlindən ala bilmədi.
Nəvələrin sırasında 13-cü olub, nənəsinin sevgisinə bütövlükdə nail olan Könül, anamın məhəbbətinin sönməz ulduzu oldu. Mənim anamdan ala bilmədiyim məhəbbətimə qızım Könül nail oldu.
Sözün əsl mənasında “ burada mənəm, Bağdadda kor xəlifə”- misalını sübuta yetirən Könül nəvəsi oldu. Ərkəsöyünlükdə mənə oxşadı.
Anamın ona öyrətdiyi həyat məktəbi bu gün də dadına çatır.
Ana,öyrəndiklərinə görə hər zaman sənə rəhmət diləyir Könül. Bütün bunlarla yanaşı onun bişirdiyi Bakı qutabı və düşbərəsinin dadı lap anamın bişirdiyinin ləzzətini verir.
Yaşa dolduqca düşünürəm ki, sənin söylədiklərin bir həqiqət imiş, bir dünya imiş ana.
Əgər hamı hər şeyi başa düşüb, dərk edə bilsəydi görünür insan həyatı asan və mənasız olardı.
Etdiyi yaxşılıqlarla, insani əməllərilə tez-tez yada düşür, rəhmət aparır. Bu hər insana nəsib olmur.
Hər hansı bir dəyərli söz sənə yaraşır, sənə layiqdir, ana!
Hərdən onu incidirdim. Keç günahımdan.
Bu yaxınlarda qızım Könül məndən soruşanda ki, ana, küsdün məndən? Cavab verdim –ana baladan küsə bilərmi? Söylədiyimdən özüm diksindim. Bu anamın vaxtı ilə mənə dediyi sözlər idi.
Ana keç günahımdan.
Deyirdin ki, ananın qarğışı övladı tutmaz, qorx ata qarğışından.
Mənim qeyrətli, sadəlövh anam. Bəlkə bilməyərəkdən incitmişəm səni, keç günahımdan. Bağışla məni.
Deyirdin ki, övlad ananı heç vaxt incidə bilməz. Həyat problemlərini, övladın buraxdığı səhfləri həll edə bilməyən ana – ana ola bilməz.
Səndəki olan həyat eşqi yadıma düşəndə həsəd aparıram.
Çox etmisən bizim üçün. Hər zaman çörəyimiz olmusan.
Hayıf ki, insan əməyi sağ ikən qiymətləndirilmir.
Yox ikən yerin görünür ana.
Sən gözəl ana, gözəl insan olmusan!
Gör sən neçə - neçə insanlara həyat vermisən? Övladlarına, bacılarına, nəvələrinə, qonşularına yardım etmək bir nömrəli məqsədin olub.
Xımır-xımır danışıqların, gülümsəməyin düşür yadıma.

Çox görünür yerin. Çatmırsan aramızda.
Yataqda olarkən övladlarının, nəvələrinin göstərdikləri xidmət boşa çıxdı. Çarəsiz xəstəliyinin qarşısında aciz idik.
Ana kimi qiymətin ölçülməz olduğu kimi, nənə kimi özünü daha da doğrulda bildin. Bu sahədə də "əla keyfiyyət" qazandın.
Övladlarıma və istədiklərimə deyirəm: Ana ilahidir! Onu sevməkdən artıq, ona itaət etmək lazımdır.
Hayıf ki, insan bir ömür yaşayır.
Ana, əgər ikinci ömür yaşasaydın görərdin -gülərdin, eşidib -sevinərdin.
Sənin evində çırağın yanır. Amma sən yoxsan!
Hamı yığılır, söhbətin gedir, bircə sən yoxsan, əzizim ana.
Rəhmət aparırsan, yada düşürsən, amma aramızda yoxsan, əzizim, ana!
15 iyun 1992-il.

## Müəllifdən

Ömrü insana Allah- Taala verir. Onu yaşamaq isə insanın özündən asılıdır. Deyəsən illərin öhdəsindən gələ bilmişəm.
Yaşadığıma rəğmən qərara gəldim ki, bir az özüm haqda yazım.
Düşünürəm ki, neçə-neçə illər keçdikdən sonra bir gün mən yaddaşlara düşəcəyəm ki, belə bir Dilarə xanım olub.
O Dilarə ki, faktları araşdırmaqla arxiv yaradıb, az qala yaddaşlardan adı silinəcək milyonçu-xeyriyyəçi Ağa Musa Nağıyevin etdiklərini yada salıb, babası və atasının gördüyü işləri üzə çıxararaq, döymədiyi pəncərə, açmadığı qapı qoymayıb.
Qoy mən yada düşəndə desinlər ki, Həcər hünərli, Nigar qeyrətli bir qadın da olub. Onun adı Dilarə, soyadı Nağıyeva, atası isə AğaMusanın vərəsəsi Fərəc olmuşdur. Yazdım ki, ...
Ağa Musa Nağıyevin qəbrinin daimiləşdirilməsində fəal iştirakımı əsirgəmədiyim günlərim geridə qaldı. Bütün enerjimi həvəslə, mən deyərdim ki, gənclik təravəti ilə bu işə sərf etdim.
Kövrəldiyim, xəyallara daldığım, kədərləndiyim anlar olsa da, sevincim onları üstələdi.

Gördüyüm işlərin əvvəlində babam Ağa Musa Nağıyevin 80 il "əmanət" qalmış qəbrinin daimiləşdirildiyi gün yeni, sayca 4-cü qəbrinin açılışı günü, 25 dekabr 1998-ci il durur.
Neft sənayesinin inkişafında, maariflənmədə, xeyriyyəçilikdəki rolunu və ən əsası 98 binanın sahibi olan Ağa Musa babamın fəaliyyətini işıqlandırdıqca, onun həyatından yeni səhifələr açdım.
Fərəcin – atamın incəsənət sahəsində gördüyü işləri: "Qaravəlli" xalq meydan oyununa yeni nəfəs verdiyini, bu günü əks etdirən satira üslubunda yazdığı 200-ə yaxın şeirlərinin gündəmdə olması, rejissor, aktyor, rəssam, dekorator və bədii rəhbər kimi incənətdə göstərdiyi fəaliyyətini işıqlandırmağı qarşıma məqsəd qoydum.
Bu sahədə çox nailiyyətlər əldə etmişəm desəm, yanılmaram.
Artıq arxada qalan bu işləri nəzərdən keçirərkən, qürur hissi duyuram.
Zərif çiyinlərimdə daşıdığım bu böyük yükün ağırlığını vaxtı ilə Ağa Musanın daşıdığı hambal şələsinin ağırlığı ilə müqayisə edib, təsəlli tapıram.
Bu yolda əməyimi qiymətləndirib, mətbuat yolunda ayaq döydüyümü, səlahiyyətli dövlət idarələrindən məyus qayıtdığımı düşünərkən, mətbuatda, televiziya ekranlarında və radio dalğalarında sədalarımı eşidəndə: Dünyanın xoşbəxti mənəm – deyirəm!
Bütün bunları nəzərdən keçirib, belə qənaətə gəldim ki, əsərdə baş qəhrəman elə özüməm.

## *Nağıyevlər nəslinin aslanı Dilarə xanım*

XIX əsrin sonu, XX əsrin əvvəllərində Bakının inkişafında böyük xidmətləri olan milyonçu, mesenat, məşhur neftxuda, "Neft Kralı" adlanan Ağa Musa Nağıyevin nəslindəndir – Dilarə Nağıyeva.
1940-cı ildə Dağıstanın Dərbənd şəhərində dünyaya göz açmasına səbəb də kapitalist nəslindən olmasıdır.
Dilarə xanım orta tibb təhsili ilə kifayətlənməyib, iki ali savad alıb, "Sənətşünas" və "İqtisadçı" ixtisaslarına yiyələnib.
1959-cu ildən əmək fəaliyyətinə başlayan Dilarə xanım 1971-1977-ci illərdə "Azərbaycanfilm" Kinostudiyasında kadr üzrə direktor müavini vəzifəsini icra etmiş, sonrakı illərdə də işini bu sahədə Ticarət Nazirliyinin sistemində davam etmişdir.
Deyilənlərə görə o, kadr işinin zərifliklərini mənimsəyə bilib.

Atası Fərəc uzun müddət soyadının sürgünü olduğundan beş övladının beşi də Bakıdan kənarda anadan olub.
Respublikamız müstəqillik əldə etdiyi vaxtdan Dilarə xanım - Ağa Musa Nağıyevin adını gündəmə gətirməyi özünə borc bilib, uzun müddət kölgədə qalmış "kapitalist" damğası altında əzilən neft milyonçusunun taleyini işıqlandırmağı qarşısına məqsəd qoyub və buna azacıq da olsa nail ola bilib.
Gözünün ağı-qarası saydığı Samiri və 15 ildə tapdığı - ürəyi saydığı Könül qızı, aldıqları savada və tərbiyəyə görə hər zaman analarına minnətdarlıqlarını bildirir.
Dilarə xanım 1991-ci ildə ilk olaraq nənə sevincini yaşadı. Adının daşıyıcısı gəldi dünyaya. Nənə sevgisilə o bir tarix yaradıb, desək, yanılmarıq.
2009 –cu il Dilarə xanımın həyatında əvəzedilməz iz buraxıb.
Oğlunun ailəsi ilə hər zaman fəxr edən bu qadının birdən birə iki nəvəsi ali məktəb tələbəsi oldu. Gələcəyin Auditoru olacaq nəvəsi Dilarə və həkimi olacaq Nərmini ilə öyünür.
Düşmən çəpəri olan Riad nəvəsi isə məktəb pillələrinə qədəm qoydu.
Dilarə xanım əldə etdiyi nailiyyətlərlə kifayətlənməyib, hər zaman öz üzərində işləməyi sevəndir.
Onu hətta qısa müddətdə tanıyanlar da ailəyə münasibətindən xəbərdardır. İki övladı ilə fəxr edir. Hər zaman çalışıb ki, ailəsinə olan isti münasibəti işində də müdaxilə etsin.
2004-cü il aprelində 2-də Ölkə Prezidenti Cənab İlham Əliyev ilə ilk görüşü Dilarə xanımın bu gün də yaddaş dəftərindədir.
Əski milyonçularının vərəsələrindən birincisidir ki, Prezidentin Fərdi Təqaüdinə layiq görülüb.
O, neft milyonçusu Ağa Musa və 22 il soyadının sürgünü olan yeganə vərəsəsi, oğlu Fərəc- Nağıyevlərin qaranlıq talelərinə işıq saçıb, əldə etdiyi nailiyyətləri aşkarlamaqla məşğuldur.
Dilarə xanımın bu sahədə göstərdiyi fəaliyyəti Respublikanın Prezidenti Cənab İlham Əliyev tərəfindən nəzərə alınıb və onu başqa mükafatlara da layiq görüb.
Babasınıın və eləcə də atasının etdiklərini kağaz üzərinə köçürdükcə, Dilarə xanıma elə gəlir ki, mirvari dənələrini sapa düzüb boynuna salır ki, onların nəvazişlərinin istisini hiss etsin.
Onu hər zaman düşündürən odur ki, əyər sağ olsaydılar, mütləq deyərdilər: Sağ ol! Mənim qeyrətli qızım!
Etiraf etmək olar ki, Azərbaycanda birinci hadisədir ki,

Ağa Musa Nağıyevin həyatı ilə yaxından maraqlanan və eləcə də Dilarə xanımın bu sahədə fəaliyyətini nəzərə alaraq, Ümümdünya Sülh Federasiyasının nümayındəsi Toru Mişvaki Ağa Musanı- ölümündən sonra, eləcə də Dilarə xanımı "Sülh səfiri" Diplomu ilə təltif edib.
Dilarə xanım OSKAR Mədəniyyət qəzetinin 2009-cu ildə "İlin adamı" mükafatına layiq görülüb.
O, vətənpərvərlik tərbiyəsinə, eləcə də təbliğat və təşviqat sahəsindəki xidmətlərinə görə Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin "Fəxri Fərmanı", Qafqaz Media İctimai Birliyinin "Müqəddəs Qələm", habelə Abdulla Şaiq və Xan qızı Natəvan Diplomları ilə təltif edilib.
Əski milyonçuların varislərinin ilk nümayəndəsidir ki, "Ağa Musa Nağıyevin xeyriyyəçilik və ictimai fəaliyyəti" mövzusunda elmi iş üzərində çalışır. Akademiyanın Tarix İnstitunun Dissertantıdır.
Soyadı ilə, nəsli ilə fəxr edir, qürur duyur Dilarə xanım.
Hər insanın öz taleyi, öz ömür yolu var.
İnsanın formalaşmasında, Allah- Təalanın ona yazmış olduğu taleyin və tutduğu ömür yolunun böyük rolu olur.
Taleyini özü də hiss etmədən məhz tarixə - Bakı milyonçusu- babası Ağa Musa və atası Fərəc Nağıyevlərin talesiz talelərinə bağlayaraq, onların görünməyən tərəflərini, istedadını, bilgisini aləmə car çəkərək, onların əməllərindən, işindən zövq almaq qisməti oldu alın yazısı Dilarə xanımın.
Ən ümdə arzusu qızı Könülü xoşbəxt görməkdir. Oğlunu və qızını dəlicəsinə sevən Dilarə xanım, sevimli gəlinini onlardan ayıra bilmədiyini söyləyir. Hər üç övladının tərbiyəli, savadlı, həyatda yerini bilib, öz sözünü deyə bildiklərinə görə xoşbəxtdir.
Sədri olduğu "Milli Dəyərlərin Qorunması" təşkilatı da babasının adı ilə bağlıdır. Babası haqda yazdığı "Xalq üçün ömrünü şam kimi əridən..." kitabı ilə dünyaya mesaj göndərən Dilarə xanımın ikinci mesajı "Ağa Musaya həsr etdiyi – "Musanaqiyev. Az" "saytı" oldu.
Həyatda insan özünü dərk edəndən hansısa bir zirvəyə ucalmaq eşqiylə yaşayır. Bu zirvələrin ən çətini - ali insanlıq zirvəsini aşılamaqdır ki, bu da hər kəsə nəsib olmur.
Xanım xatınlığı, əməlləri və mədəni rəftarı ilə Dilarə xanım özünü bu zirvənin ən uca nöqtəsindəində hiss edir.
Bu yolda əməyini qiymətləndirib, mətbuat yolunda ayaq döydüyünü, səlahiyyətli dövlət idarələrindən məyus qayıtdığını düşünərkən, mətbuatda, televiziya ekranlarında və radio dalğalarında sədalarını eşidəndə: Dünyanın xoşbəxti mənəm – deyir bu cılız qadın.

Mənalı bir ömür yaşamaq, müqəddəs peşə sahibi olmaq, doğrudan da böyük səadətdir- deyən Dilarə xanımın - nəcib insanın elə bu səbəbdən ömrünü ailəsinə, atasına və babasına bağlayan bir pay düşmüşdür.
Dilarə xanımın tərcümeyi halını vərəqlədikcə, onun necə zərif duyğulu olduğunun, XXI əsrin rəmzi kimi parlayıb bu günə Ağamusa işığı saçan bir xanım dayanır qarşımızda.
Həyatın çətinlikləri çox vaxt onu sınağa çəksə də o, bu sınaqlardan hər zaman qalib çıxa bilib.
2006-cı ildə onun üzünə yeni qapı açılır. Bu əlçatmaz Məkkə qapısı idi.
Çoxları deyir ki, Dilarə xanımın nəyi bacarmadığını sormaq daha düzgün olar.
Məşhəd ziyarətindən yenicə qayıdan Dilarə xanım yeni zirvələr fəth etməkdəm yorulmayır.
Dilarə xanım işlədiyi dövrdə hər zaman ictimai işlərdə fəal olub.
Respublika Qadınlar Cəmiyyətinin üzvüdir. Azərbaycan qaınlarının III qurultayının, eləcə də Diasporanın qurultayının nümayəndəsi olub.
"Qafqaz Media" İctimai Birliyinin Sədr müavini, "Qafqz Pres" qəzetinin Baş redaktor müavinidir.
Etdiklərinə rəğmən nəslində aldığı mükafatlar bunlardır:
Hünərli qadın, cəsarətli insan, "fəxri bibi", "Nağıyev nəslinin aslanı".
Həyatının 70 illik zirvəsinə çatan Dilarə xanım etdiklərindən qürur duyur. Arxaya nəzər salıb, gördüyü işləri az bilib, deyir:
Məndə sığar iki cahan, mən bu cahana sığmazam.

Nailə Rəfibəyli -Sənətşünaslıq üzrə
fəlsəfə doktoru, Dosent

**Təvəzökarlıqdan kənar olsa da ...**

Müdriklərdən biri demişdir ki, doğulan hər kəsdə müəyyən bir istedad, istək olur. Bu istedadı vaxtında aşkar edib, düzgün istiqamətləndirməyi bacarmaq lazımdır.
Hər bir insanın öz taleyi, öz ömür yolu var. Həyatda insan həyatının formalaşmasında, Allah- Təalanın ona yazmış olduğu taleyin və tutduğu ömür yolunun böyük rolu olur.
Taleyini özü də hiss etmədən məhz tarixə - Bakı milyonçusu, babası Ağa Musa və atası Fərəc Nağıyevlərin talesiz talelərinə bağlayaraq, onların

istedadını, bilgisini aləmə car çəkmək, əməllərindən, gördüyü işindən zövq almaq qisməti oldu Dilarə xanımın alın yazısı.
Mənalı bir ömür yaşayaraq, xeyriyyəçiliyi, yüksək əxlaqi keyfiyyətləri ilə həyatda öz yerini tutmuş, başqaları üçün sözün əsl mənasında nümunə olmaqla yaddaşlarda özünə əbədi iz qoymuş, neft milyonçusu Ağa Musa Nağıyevin nəvəsi olaraq, atasının soyadının sürgünü olması səbəbindən o, 1940-cı ildə Dağıstan Respublikasının Dərbənd şəhərində dünyaya göz açıb. Atası Fərəcin elə bu səbəbdən beş övladının beşi də Bakı şəhərindən kənarda anadan olub.
Yüksək enerjiyə malik olacaq işgüzarlığı, potensial imkanları, intelektual səviyyəyə malik olan, çətin işlərin öhdəsindən məharətlə gələ biləcək Dilarə xanım, orta tibb təhsili ilə kifayətlənməyib, ali təhsilə - "Teatrşünas" ixtisasına yiyələnməklə bərabər, 1977 –ci ildə Ali partiya məktəbini bitirib iqtisadçı ixtisasını da mənimsəyib.
Əmək fəaliyyətinə 1959-cu ildə kino sənətində işləməklə başlayıb. "Azərbaycanfilm" Kinostudiyasında baş redaktor köməkçisi və kadr üzrə direktor müavini vəzifələrində çalışıb.
Azərbaycan televiziyası ilə "Kino yenilikləri" verilişinin ilk aparıcılarından olan Dilarə Nağıyevanın kadrların düzgün seçilib yerləşdirilməsində, eləcə də gənc kadrların və müxtəlif peşə işçilərinin seçimində əməyi az olmayıb. 1978- 2002-ci ilədək bu sahədə işini Ticarət Nazirliyinin sistemində davam edərək, ümumən 43 il əmək stajı toplamışdır.
Buna rəğmən o, hər zaman bu ifadəni vurğulayır: "Kadr işini sevmək lazımdır".
Deyilənlərə görə o, kadr işinin incəliklərini mənimsəyə bilib.
İşində tələbkar, prinsipal olub.
Dilarə xanım əldə etdiyi nailiyyətlərlə kifayətlənməyib, hər zaman öz üzərində işləməyi sevəndir.
Dilarə xanım işlədiyi dövrdə hər zaman ictimai işlərdə çox fəal olub. Respublika Qadınlar Cəmiyyətinin, 1999-cu ildən isə Zadəganlar Məclisinin üzvüdür. III Qadınlar və eləcə də Diasporanın qurultaylarının nümayəndəsi olub.
2006-cı ildə onun üzünə yeni qapı açılır. Bu əlçatmaz Məkkə qapısı idi. Çoxları deyir ki, Dilarə xanımın nəyi bacarmadığını sormaq daha düzgün olar.
43 yaşında "Əmək Veteranı" döş nişanına layiq görülən Dilarə xanım əski milyonçularının vərəsələrindən birincisidir ki, Ölkə Prezidentinin Fərdi Təqaüdinə layiq görülüb.

Onu tanıyanlar ailəyə münasibətindən xəbərdardır. İki övladı ilə fəxr edir.
Hər zaman çalışıb ki, ailəsinə olan isti münasibətini işində də davam etsin.
Gözünün ağı-qarası saydığı Samiri və 15 ildə tapdığı - ürəyi saydığı Könül qızı, aldıqları savada və tərbiyəyə görə hər zaman analarına minnətdarlıqlarını bildirir.
2009 –cu il Dilarə xanımın həyatında əvəzedilməz iz buraxıb.
Oğlunun ailəsi ilə hər zaman fəxr edən bu qadının iki nəvəsi ali məktəb tələbəsi oldu. O, gələcəyin Auditoru olacaq Dilarə, həkimi olacaq Nərmini ilə öyünür.
Riad nəvəsi isə həmin ildə məktəb pillələrinə ilk qədəmlərini qoyub.
Bu nənə Dilarənin müvəffəqiyyət siyahısını daha da dolğunlaşdırdı.
Övladlarının tərbiyəli, savadlı, yerini bilən, həyatda öz sözünü deməyi bacaran və arzularının çin olmasına çalışa bildiklərinə görə xoşbəxtdir.
Mənalı bir ömür yaşamaq, müqəddəs peşə sahibi olmaq doğrudan da böyük səadətdir. Bu səbəbdən öz mənalı ömrünü ailəsinə, atasına və babasına bağlayan nəcib insana da bir pay düşmüşdür.
Deyirlər ki, insanın əməlləri onun tərcümeyi halıdır.
Dilarə xanımın tərcümeyi - halını vərəqlədikcə, onun necə zərif duyğulu olduğunun, XXI əsrin rəmzi kimi parlayıb bu günə Ağamusa işığı saçan bir xanım dayanır qarşımızda.
Həyatın çətinlikləri çox vaxt onu sınağa çəksə də, o, bu sınaqlardan hər zaman qalib çıxa bilir.
Həyatda insan özünü dərk edəndən hansısa bir zirvəyə ucalmaq eşqiylə yaşayır. Bu zirvələrin ən çətini - ali insanlıq zirvəsini aşmaqdır ki, bu da hər kəsə nəsib olmur. Xanım xatınlığı ilə, əməlləri və mədəni rəftarı ilə zirvəni fəth edən Dilarə xanım görək nələr edib?...
Respublikamız müstəqillik əldə etdiyi vaxtdan Dilarə xanım - Ağa Musa Nağıyevin adını gündəmə gətirməyi özünə borc bilib, uzun müddət kölgədə qalmış “kapitalist” damğası altında əzilən neft milyonçusunun taleyini işıqlandırmağı qarşısına məqsəd qoyub və buna azacıq da olsa nail ola bilib.
Beləcə o, neft milyonçusu Ağa Musa və 22 il soyadının sürgünü olan yeganə vərəsəsi, oğlu Fərəc- Nağıyevlərin qaranlıq talelərinə işıq saçıb, əldə etdiyi nailiyyətləri aşkarlamaqla məşğuldur.
Dilarə xanımın bu sahədə göstərdiyi fəaliyyəti Respublikanın Prezidenti Cənab İlham Əliyev tərəfindən anılıb və o, başqa mükafatlara da layiq görülüb.

Soyadının uzun müddət kölgədə qalmasına görə hər zaman narahat hisslər keçirən Dilarə xanım babasının yolunu: xeyriyyəçilik və maarifçilik fəaliyyətini davam etdirmək məqsədilə Sədri olduğu
Ağa Musa Nağıyev adına "Milli Dəyərlərin Qorunması" İctimai Birliyini yaradıb.
Ağa Musa Nağıyevin 98 tikililərindən olan İqtisad Universiteti (Realnı məktəb) və Dünya Azərbaycanlıları komitəsinin divarlarını bu gün Dilarə xanımın səyi nəticəsində babasının portretləri bəzəyir.
Ağa Musa Nağıyevin adını daşıdığı xəstəxanada və İncəsənət muzeyində babasının fəaliyyəti ilə bağlı Sərginin təşkil edilməsinə, haqqında illərlə topladığı faktlar və xatirələr əsasında "Xalq üçün ömrünü şam kimi əridən..." kitabını ərsəyə gətirə bilməsilə Dilarə xanım məqsədinə qismən da olsa nail olub. (burada elmi iş haqqında....)
Atası Fərəc Nağıyev- Orta Asiya, Dağıstan və Azərbaycanın ucqar rayonlarında məskunlaşarkən, teatrın təşkili və təbliğində böyük rolu olması ilə bərabər, bütövlükdə incəsənətin fədaisi olub.
O, unudulmuş "Qaravəlli" xalq meydan oyunlarına yeni nəfəs verib.
Ağa Musa Nağıyevin xeyirxahlığını, insanpərvərliyini, alicənablığını yüksək qiymətləndirən Dilarə xanım deyir ki, babamın və eləcə də atamın etdiklərini kağız üzərinə köçürdükcə, mənə elə gəlir mirvari dənələrini sapa düzüb boynuma salıram ki, nəvazişlərinin hərarətini hiss edim.
Onu hər zaman düşündürən odur ki, əgər sağ olsaydılar, mütləq deyərdilər: "Sağ ol! Mənim qeyrətli qızım"!
80 il tapdaq altında qalmış, üç dəfə məcburi yerini dəyişmiş Ağa Musa Nağıyevin "əmanət" qəbrinin 1998-ci ildə əbədiləşdirilməsi zamanı keçirdiyi həyəcanı və təşvişi indiyədək unuda bilməyən Dilarə xanım, bu sırada gördüyü işlərin sayəsində aldığı "Sağ ol" mükafatı onun üçün çox əziz və qiymətlidir.

## Bakının arxitekturasını Ağa Musa Nağıyevin 98 binası bəzəyir

Bu yazı bir kasıb biləcərili saman satanın ailəsində dünyaya göz açan, sonradan Azərbaycanın ən məşhur milyonçuları sırasında maddi durumuna (413mln.) və tikililərinin sayına (98) görə birinci olan Ağa Musa Nağıyev haqqındadır.

İnsan anadan olandan, beşik başından axirət dünyasının astanasınadək bir ömür hekayəti yaşayır. Dünya isə yarandığından təzadlar üstündə qərar tutub. Sevinci, toyu, kədəri, qəm yükü ilə bərabər dözülməz dərdləri də yaşamağı bacarır.
Bütün bunların hamısı insanın dünyaya gəldiyi gün qismətinə yazılan tale payıdır. Amma bu qismət payını pozan da, onu əksinə çevirib məhvə sürükləyən də insan özü olur.
Elə insan da olur ki, xeyirxah əməlləri ilə ölməzliyə vəsiqə alır.
BeləlErindən olub Ağa Musa Nağıyev.
O, millətin naminə, xalqın mənəvi inkişafı uğrunda varlığından keçən bir insan olub.
Təbiət etibarı ilə Musa dəqiq və hər şeyi ölçüb- biçən olub. İllərlə hər çətinliyə sinə gərərək pul toplayan Musanın qazdığı quyudan su əvəzinə neft fontan vurur. Gecə-gündüz quyunun yanından çəkilməyən Musa, fəhlələrlə bərabər ağır işlər görür.
Qısa müddət ərzində fəhlə Musa iri neft maqnatlarından birinə çevrilir. Əldə etdiyi gəlir çoxaldıqca, Ağa Musa Bakı kəndlərindəki yataqları satın alır və yeni quyular qazdırır.
Varlandıqca "Qara şəhərdə" neft emalı zavodu tikdirir, Xəzər dənizində ilk bərəsi görünür.
49 yaşlı Ağa Musa Nağıyev igidlik, müdriklik səltənətinin məşhur milyonçusuna çevrilir. Lakin qənaətçilliyindən əl çəkməyir...
Qoçular sifarişlə onu oğurlayarkən, ondan istədikləri 10 min rublı ala bilmirlər. Sözün əsl mənasında onlarla "alver" edib, 1000 rubl verərək qoçulardan canını qurtarır.
Görünür belə hərəkətlərinə görə onun xəsisliyinin el arasında zərb məsələ çevrilməsinə səbəb olub.
Mis mədənlərinin xeyli gəlir gətirdiyindən xəbər tutan Ağa Musa, bu mədənlərin neft vura bilməsi ilə maraqlanır.
Bunun mümkün olmadığını bilən milyonçu "fontan vurmayan şeyə maya qoymaram"- deyir.
Dəniz limanında, müxtəif sahələrdə artıq təcrübə qazanmış Ağa Musanın misin fontan vurması haqda mülahizəsi əlbəttə ki, inandırıcı deyil.
Neft milyonçusu, "Neftin Kralı" (Çar II Nikolay onu belə adlandırıb) ikinci və sonradan birinci dərəcəli tacir, mesenat-xeyriyyəçi titullarının
daşıyıcısı Ağa Musa Nağıyev Çarın III dərəcəli "Müqəddəs Stanislav" ordeni və "Zolotaya şeynaya medal na Andreyevskoy lente" medalına layiq görülüb.
Onun adı yaddaşımızda Bakının memarlıq simasına ən çox töhfə verməsi ilə (98 bina tikdirməklə) qalmalı idi... Bolşevik inqilabından sonra binaların hamısı milliləşdirildi.
Nəvəsi Dilarə xanım ilə söhbət edərkən:
Dövlətimiz müstəqillik əldə edəndən Ağa Musanın qaranlıq taleyinə işıq salmaqla məşğulam. Xatirələri yada saldıqca elə bil o illəri yaşayıram. Həyəcanlanıram, kövrəlirəm, kədərlənirəm, hərdən ağlayıram... Var dövlət içində olsalar da, babam Ağa Musanın, atam Fərəcin çəkdikləri əzabları içimdə hiss edirəm, sızlayıram –deyir.

Azərbaycanda kommunist rejiminin qurulması neft baronlarına taleyin sərt üzünü göstərdi. Səfalət içində dünyasını dəyişəni, düşdüyü vəziyyətə dözməyib intihar edən və dərddən dünyasını dəyişənlər də oldu.
20-ci illərdə bolşeviklərin hakimiyyətə gəlməsi ilə Bakı milyonçularının taleyinə və karyerasına birdəfəlik xitam verildi. Sovet rejiminin 70 illik təbliğat maşını nəhəng tikililər ilə onun sahibi barədə məlumatların xalqın yaddaşından silnməsi üçün əlindən gələni etdi.
Lakin, "haqq nazilər, amma üzülməz" - deyiblər.
Onlara vurulan "xalq düşməni" damğası yalnız 70 ildən sonra üzərindən götürüldü. Bir zaman Bakının mədəniyyətində mühüm yer tutan insanlar barədə danışmaq təhlükəli olsa da, adlarının xalqın yaddaşından silinməsinə nail olmaq qeyri - mümkün oldu.
İllər keçdikcə Ağa Musanın xeyriyyəçiliyi unudulmuş, yalnız təsadüfən deyilən bir kəlmə, "simic" deyə onu yad edən Azərbaycan xalqının müasirləri onun etdiklərini, qoyub getdiklərini aramayıb, bununla da kifayətlənir.
Azərbaycan milli burjuaziyasının nəhəg nümayəndəsi olan Ağa Musa Nağıyev, özünün işgüzarlığı sayəsində milyonçu pilləsinə ucalıb.
Gələcəyi təmin etmək məsuliyyətini üzərinə götürən Ağa Musanı çox şey düşündürürdü. Azərbaycanlı balalarının savadsızlığı, Bakının susuzluğu, insanların küçə həyatı...
Onun ən ağrılı yerlərindən biri Azərbaycanın səhiyyə sistemindəki problemlər olub. Məhz səhiyyənin zəif olması səbəbindən oğlu İsmayılı itirən və bu itkinin ağrısını daima qəlbində gəzdirən milyonçu, başqasının çarəsizlikdən ölməsinin qarçısını almaq məqsədilə xəstəxanalar tikdirməyi qarşısına məqsəd qoyub. Bakıda o dövr üçün müqayisəolunmaz dərəcədə yüksək səviyyədə təchiz olunmuş dörd nəhəng xəstəxana tikdirir ki, bu gün də insanlar bu səhiyyə ocaqlarında şəfa tapmaqla bərabər möcüzələrlə rastlaşırlar.
Ağa Musa Nağıyev adına və Emin Əfəndiyev adını daşıyan xəstəxana, Pediatriya institutu (OMD) və Sabunçu qəsəbəsindəki poliklinika – onun töhvələri, olub. Bu binaların tikintisi zamanı antibakterial materiallardan, gümüş tozundan, xüsusi kafeldən istifadə olunub. Tavanın hündürlüyünün 5 metrə yaxın olması, enli və hündür pəncərələr -havanın tənzimlənməsi üçün, müasir dil ilə desək kondinsioneri əvəz etmək nəqsədilə nəzərdə tutulub.
Ağa Musa Nağıyev başqa milyonçulardan çox fərqli olub.
O, 35 yoxsul ailə başçılarının vəsiyyətinə əməl edib, onların dəfnini Kərbəlada keçirib; Fəhlələrinə öz hesabına toy edən, fərqlənən işçilərinin təhsil haqqını ödəyən, gənclərin savadlanmasına çalışan olub.
1879-1880-cı illərdə Qara şəhərdə kerosin istehsal edən zavod tikdirib.
Bu ildə onun əmlakının dəyəri 30 000 manat təşkil edib. Şamaxıda Realnı peşə məktəbinin tikintisinə ianə verib. "Marif Cəmiyyəti"yaradıb.
Mariflənməyə böyük fikir yönəldib, yüzlərlə gəncin savad almasina vəsait xərcləyib. Onun göstərdiyi maddi kömək sayəsində xaricdə təhsil alıb, ixtisas sahibi olanların sayı hesaba gəlməz olub.
100-dən çox ailələrə maddi yardım göstəribib, onlara himayədarlıq edib.

Bakıya Şollar suyunun çəkilişində vəsaitin 75%-ni ödəyən, 1891-ci ildə Qara şəhərə su çəkdirən Ağa Musa Nağıyev olub.
Kapitalın konsentrasiyası və sahibkarlığın aksioner firmasının ən çox yayıldığı bir şəraitdə sonradan milli sahibkarlıq müəssisəsindən birincisi hesab ediləcək "Neft Firması" yaradıb.
İri neft mədənləri yerləşən Sabunçu, Ramana və Balaxanıdakı çənlərinin sayı 65-ə, buxar qazanlarının sayı 91-ə, buxar maşınlarının sayı isə 35-ə çatmışdı.
1890-cı ildə Neft zavodunda 8.060.027 pud istehsal edilən neftin ticarət dövriyyəsi 700.000 manat təşkil edib.
1891-1892-ci illərdə Qara şəhərdəki zavodunda 31 buxar maşını,
12 dəmiryol rezervuarı olub. Zavodun istehsal etdiyi ağ neftin (kerosin) miqdarı 2,3 mln. pud olub. Müxtəlif istiqamətlərdə 15 mln. pud mazut və yüksək keyfiyyətli neft məhsulları göndərən məhz Ağa Musa Nağıyev olub.
Nədənsə ona vurulan "simic" damğası hansısa məmurun marağı ilə illər boyu unudulmur.
Nəvənin nigaranlığı onun ömür payına düşdüyündən, çəkisindən asılı olmayaraq çiyninə götürdüyü bu ağır yükü sona qədər daşımağı öhdəsinə götürüb.
Ağa Musanın 11 yaşında ikən belində daşıdığı palanın çəkisi 16 kq olub.
Artıq neçə illərdir ki, Diları xanım bu nəsil şəcərəsinin yorulmaz yolçusudur.
Bu gün də ruhların izi ilə söz və əməllərin yaddan çıxan anlarını arxiv sənədlərinin işığında durmadan araşdırır.
Əsas məqsədi - Ağa Musa Nağıyevin halal haqqını qaytarmaqdır.
Əslində tariximizi yaşatmaq baxımından Ağa Musa Nağıyevin simasında onları daha ətraflı öyrənib yaddaşlara köçürmək günümüzün reallığıdır. O, bütün səyini babasının fəaliyyətini araşdırmağa, həyatındakı qaranlıq məqamlara işıq saçmağa yönəldib.
Milyonçunun və atasının arxivini yaradıb, həll olmamış çox məqamları üzə çıxara bilib.
Gördüyü işlər hələ onu qane etmir. Belə ki:
Ağa Musa Nağıyevin 80 ildən sonra "əmanət"qəbrinin abadlaşdırılıb, əbədiləşdirilməsində mühüm işlər görüb.
Şah binası sayılan "İsmailiyyə"-də keçirdiyi yığıncaqlarda Ağa Musanı və Fərəci yad edir. Vəsiyyətinə əməl edərək, Dövlət İqtisad Universitetində və Diasporanın binasında Ağa Musa və oğlu İsmayılın portretlərinin asılmasına nail olub.
Məqsədlərindən biri olaraq, Ağa Musa Nağıyevə həsr etdiyi "Xalq üçün ömrünü şam kimi əridən..." kitabını yazıb və M.f.Axundov adına Mərkəzi kitabxanada kitabın elektron saytının açılmasına nail olub..
..... Dilarə xanım babasının həyat və fəaliyyətini əhatə edən "musanaqiyev. az" saytını yaradıb. Burada Ağa Musanın indiyədək görünmədiyi tərəflərini aşkara çıxarıb.
O, babasının adına – layiqli nəvə, atasının adına – layiqli övlad olmağa, xalqın qəlbində Ağa Musa Nağıyevi yaşatmağa çalışır.
Çünki Ağa Musa Nağıyev inanırdı ki, min təlatümlər olsa da, nə qədər küləklər əssə də, qədirbilən xalqı onun layiqli qiymətini verəcək.

Bu da mənim alın yazım, tale payım oldu –deyən Dilarə xanım sübuta yetirə bilir ki, tarixə nəzər saldıqcda Ağa Musanın nəhəng işləri üzə çıxır. Belə ki:
“Kaspi” qəzetinin nəşrinə vəsait xərclədiyi; İndiki M.A.Əliyev küçəsindəki tikdirdiyi məscidi; XIX əsrin son illərində Balaxanı, Sabunçu, Əmircan və Ramanada yeni neft sahələrini icarəyə götürdüyü; 1898-ci ildə yaşlı müsəlmanların təhsil kursları keçməsi üçün ianə verdiyi aşkar edilir.
1899-cu ildə yaratdığı “Neftayırma” zavodunda çalışan fəhlə və qulluqçuların sayı 226 nəfər olub . Onların aylıq mükafatlarının ümumi məbləği 7 min rubla çatıb. Hər fəhləyə illik 38 min manat düşən məbləğ, Şəmsi Əsədullayev və Murtuza Muxtarovun müəssisələrində işjəyən fəhlələrin qazancından çox-çox yüksək idi.
Ağa Musa Nağıyev 1906-cı ildə Balıq sənayesinin inkişafında da özünü sınayıb. O, balıq vətəgələri üzrə hərracda küllü miqdarda kapital sərmayə qoymaqla ən iri vətəgələri ələ keçirib. ”Kür - balıq” sənayesində çoxluq təşkil edən balıq vətəgələri ona məxsus olub.
1906-cı ildə artıq 600 fəhlə çalışdığı zavodunda 3mln.741.000 pud təmizlənmiş kerosin, 7mln. 494.000 pud neft qalığı istehsal edilib.
Həmin ildə “Aksioner Cəmiyyəti”nin müəssisələrində 242 işçi qüvvəsi olub. 1915-ci ildə bu rəqəm 713-ə çatıb. Onların əmək haqları 173.000 manat təşkil edib. Müvəqqəti işə götürülənlərə verilən əmək haqqı ilə birlikdə bu məbləğ 280.000 manatdan yüksək olib.
Ağa Musa Nağıyev 1907-ci ildə Realnı məktəbini tikdirməklə (İndiki İqtisad universiteti) bərabər himayədarlıq da edib. 25 müsəlman qızının təhsil haqqını ödəyib və “məktəbəqədər” sinfin açılmasına nail olub.
1908-ci ildə istehsal etdiyi Qara qızılın miqdarı 13 mln. puda çatmaqla rekord vurub.
1909-cu ildə “Zaqafqaziya balıq sənayesi” Cəmiyyətinin təsisçisi olub.
XX əsrin əvvəllərində onun neft müəssisələri Bakının ticarət sənaye dövriyyəsində xüsusi yer tutub.
Ağa Musa Nağıyev 1913-cü ildə Neft Sahibkarlarının Qurultayında 10 səs qazanıb, “onlar” sırasına daxil olub.
Ramanada neft mədənlərinin xidmət üsulunu yaxşılaşdırmaq məqsədilə dəzgahların təmir emalatxanasını yaradan, sahibi olduğu zavodunda 3,5 mln. pud təmizlənmiş neft, 3,6 mln. pud kerosin distilatı, 7,1 mln. pud mazut - ümumilikdə 42 mln. pud neft məhsulları istehsal olub.
Ağa Musa Nağıyev şikəst uşaqlara yardım edən “Uşaq bağçası Xeyriyyə Cəmiyyətinin” həqiqi üzvü olub. Uşaq ölümü ilə mübarizə aparan “Bakı Cəmiyyətinə” küllü miqdarda pul köçürüb.
“Maarif Cəmiyyəti” yaradıb.
Dünyanın qədim neft diyarı kimi tanınmış Azərbaycanda neftin sənaye üsulu ilə hasilatı hələ XIX əsrin ortalarından başlanmışdır. 1848-ci ildə Bakıda, Bibiheybət yatağında qazılmış quyudan yurmuş neft fontanı Azərbaycanda “qara qızıln” sənaye üsulu ilə çıxarılmasının əsası qoyulmuşdur. Artıq 1899-cu ildə Azərbaycan, neft hasilatı və emalı üzrə dünya neft hasilatının yarısını vermişdir.

Neft sənayesinin inkişafı yerli sahibkarların böyük bir nəslini yetişdirib. Neft hesabına varlanan Ağa Musa gəlirlərini yeni sahəyə - daşınmaz əmlaka yönəldir. Onun fikrincə bu sahə neft qədəq gəlir gətirməsə də,
etlbarlı sayılır. Mülklərin tikintisinə aludə olan Ağa Musa bu işə atasının tövsiyyəsi ilə başladığını hər zaman vurğulayırdı. Onun binalarının tikintisini "Qasımov qardaşları və K" şirkəti aparırdı.
Bakı milyonçuları arasında Ağa Musa Nağıyev dövrünün böyük azərbaycanlı milyonşusu adlanıb.
Şəhərimizin bu gün də həqiqi bəzəyi olan bu binalardan yaşayiş evləri kimi istifadə edilməklə bərabər, inzibati idarələr kimi istifadə olunanlarin sayi 20-dən artiqdir: (AMEA), Lukoyl neft şirkəti, Diaspora, Zabitlər evi, Rabitə nazirliyi, Məhkəmə ekspertiziyası, İqtisad Universiteti. Azərittifaq, "ÜNS" teatrı, 1saylı körpələr evi, 4 xəstəxana, Mərdəkanda Mədə bağırsaq sanatoriyası, keçmiş: Prodmaq, Ali məhkəmə, İncəsənət və Tibb universiteti ...).

## Ziyalı qadın

Çox sevinirəm ki, mənim haqqımda "Azərbaycan ziyalıları" kitabında gedən məqalə "Ziyalı qadın" deyimilə başlanmışdır.
Kitabın müəllifləri Nəzakət və Maral xanım haqqımda topladıqları materiallara əsaslanaraq qeyd ediblər:
Mənalı bir ömür yaşayaraq, xeyriyyəçiliyi, yüksək əxlaqi keyfiyyətləri ilə həyatda öz yerini tutmuş, başqaları üçün sözün əsl mənasında nümunə olmaqla yaddaşlarda özünə əbədi iz qoymuş, neft milyonçusu Ağa Musa Nağıyevin nəvəsi Dilarə xanım, 1940-cı ildə soyadının sürgün olması səbəbindən Dağıstan Respublikasında anadan olmuşdur.
O, ali təhsilli, yüksək intellektə malik "Sənətşünas" ixtisasına yiyələnməklə kifayətlənməyib, 1977 –ci ildə Ali partiya məktəbini də bitirmişdir.
İlk əmək fəaliyyətinə 1959-cu ildə başlayıb. "Azərbaycanfilm" Kinostudiyasında baş redaktor köməkçisi, sonradan kadr üzrə direktor müavini vəzifələrində çalışıb.
Azərbaycan televiziyası ilə "Kino yenilikləri" verilişinin ilk aparıcılarından olub. Kadr işində çalışdığı dövrdə, kadrların düzgün seçilib, yerləşdirilməsində, eləcə də kino sahəsində gənc kadrların və müxtəlif peşə sahiblərinin seçimində əməyi az olmayıb.
1978-ci ildən bu sahədəki işini Ticarət Nazirliyində davam edib.

Səksən il ərzində üç dəfə məcburi yerini dəyişmiş, babası Ağa Musa Nağıyevin "Əmanət qəbri"ni əbədiləşdirməklə, onun haqqında edəcəyinə qismən də olsa nail olub.
Soyadının uzun müddət kölgədə qalmasına görə hər zaman narahat hisslər keçirib Dilarə xanım. Babasının yolunu davam edərək, xeyriyyəçilik və maarifçilik fəaliyyətini davam etdirmək məqsədilə Ağa Musa Nağıyev adını daşıyan "Milli Dəyərlərin Qorunması" İctimai Birliyin yaradılmasına nail olub Dilarə xanım.
Bu gün Ağa Musa Nağıyevin tikililərindən olan İqtisad Universiteti (Realnı məktəb) və Dünya Azərbaycanları Komitəsinin (İctimai Yığıncaqlar üçün nəzərdə tutulmuş bina) – divarlarını Dilarə xanımın əməyi nəticəsində onun və nakam dünyasını dəyişmiş oğlu İsmayılın portretləri bəzəyir.
Babasının adını daşıdığı xəstəxanada və İncəsənət muzeyində babasının fəaliyyəti ilə bağlı Sərginin təşkil edilməsinə, haqqında illərlə topladığı faktlar və xatirələr əsasında "Xalq üçün ömrünü şam kimi əridən..." kitabının ərsəyə gəlməsində Dilarə xanımın əməyi çoxlarının diqqətini cəlb edib.
O, fəxr edir ki, tarixdə xeyriyyəçiliyi ilə dərin iz qoymuş Ağa Musa Nağıyev nəslinin davamçısıdır.

Xeyriyyəşiliklə şöhrət qazanmış,
Böyük bir insanın vərəsəsisən.
Qədir, qiymətini gözəl bilirsən,
Bununla öyünüb sən fəxr edirsən.

Ot kökü üstə bitər demiş atalar,
Özünü doğrultmuş, dəqiq kalamlar.
Sənin tək bu nəslin davamçısı var,
Tanrı olsun sənə daima qoy yar.

Ötüşüb keçibdir aylar, fəsillər,
Bir-birin əvəz edibdir illər.
Alqışlar olsun bu əməllərə,
İşin nümunədir gənc nəsillərə.

"Azərbaycan Ziyalıları" kitabı-2009 il

## *Aprel ən çox sevdiyim aydır*

1991-ci il aprelin 2-də ilk nəvəm – adımın daşıyıcısı Dilarəm dünyaya göz açdı!
Bundan böyük dövlət ola bilməz. Həyatımın ən böyük töhfəsidir. Düşündüyünüz kimi məni "nənə" adı qocaltmadı, əksinə, o vaxt hələ azlıq təşkil edən titullarımın sayını artırdı. 2009-cu ildə iki nəvəm ali məktəbə daxil olmaqla məni bir daha sevindirdi. Ata-ana sevgisi başqadır, amma nənə sevgisi tamamilə başqa aləmdir. Xoşbəxtəm ki, bu anları yaşamaq, bu sevgini duymaq mənə nəsib oldu!
Aprel ayını çox sevirəm. Əlbəttə ki, mənə ən böyük uğur gətirdiyinə görə.
Respublikamızın Prezidenti İlham Əliyev cənabları ilə ilk görüşüm 2004-cü ildə məhz aprelin 2-də, nəvəmin doğum gününə təsadüf etdi. Sevincimin həddi hüdudu yox idi. Heç cürə həll edə bilmədiyim mühüm bir məsələ elə görüş zamanı həllini tapdı.
Ağa Musa Nağıyev nəslindən olduğuma görə və bu yolda apardığım tədqiqatları nəzərə alaraq, Cənab Prezident məni və bacım Solmaz xanımı –hər iki nəvəni fərdi təqaüdə layiq gördü.
Atamın xatirələrinə və faktlara əsaslanaraq babam haqqında yazdığım "Xalq üçün ömrünü şam kimi əridən..." kitab, böyük marağa səbəb oldu. Gecikmiş kitab. Apardığım tədqiqatlar məndən vaxt tələb edirdi. Kitabı 2006-cı ilin aprel ayında yazmağa başladım. Okeanda tənha gəmini xatırladırdım. Düşüncələrim, rast gəldiyim insanlar, arxiv materialları, atamın uzaqdan gələn əks-sədası və axır 15 ildə yaşantılarım. Əziyyətlərimin, daha doğrusu bu yolda tapıntılarım mükafatım oldu. Vaxtı ilə nefti ilə Azərbaycanı onlar sırasına qatan, Bakıya Şollar suyunun çəkilişində vəsaitin 75%-ni ödəyən, məsçid və zavod, xəstəxanalar və mehmanxanalar, Kirxa və Sinaqoq tikdirən, maariflənməyə xüsusi diqqət yetirən, təhsil ocaqları, əlillər və körpələr evləri tikdirən, iri neft sahibkarları arasında birincilik qazanan, 1904-cü ildə əldə etdiyi Qara Qızılın istehsalını 12,3mln.puda çatdıran, övladlarının faciəsini yaşayan bir insan – şəxsiyyət haqqında kitab bağladım. Kitabın təqdimatı aprel ayında keçirildi.

Uzun illər belə bir şəxsiyyət fenomeni – Ağa Musa Nağıyevin qənaətçiliyini "başa düşməyən" hər hansı bir ünsür – onu "xəsis" imici ilə damğalamışdır.
Nə yaxşı ki, mən varam. Bu neçə illərdə çalışdığımın bəhrəsini gördükcə, uğur qazandıqca, yaşamaq həvəsim daha da artır.
Çünki etdiklərim hələ məni qane etməyir.
Ağa Musa Nağıyev ilə əlaqəli əldə etdiyim hər hansı bir məlumatı qida kimi qəbul edib, yeni axtarışlara davam edirəm.
Bir binasını da tapdım 2010 –cu il aprelin 2-də.
Çoxdandır ki, Xaqani 14 binasının axtarışına hazırlaşırdım. İşimin çox olduğundan, bu ünvana çata bilmirdim.
Nəhayət aprelin 2-də binanın qarşısında dayananda "Məhkəmə ekspertiziyası" lövhəsinə nəzər saldım. Kim olduğumu bilən idarənin mühafizəçisi – binanın əvvəllər mehmanxana olduğunu deyəndə, məni elə bil ildırım vurdu. Çoxdan sorağında olduğum "Astoriya" mehmanxanasının qarşısında dayanmışdım. Binanın döngədən sola S.Vurğun küçəsinə, olan davamiyyəti – yenə Ağa Musanın tikilisi olan– "Zabitlər evi" nin binasına yapışıq idi.
Qarşısında dayandığım binanın möhtəşəmliyindən, gözəlliyindən doya bilmirdim. Bir nüçə il öncə bir yaşlı qadının bu binanın mehmanxana olduğunu söyləyib, hətta buradan "bardel" kimi istsfadə olunmasından da söhbət açmışdı.
Artıq Ağa Musa ətrafinda çalışdığım məni qane etmirdi. Nə isə yenilik axtarırdım. Kitabdan Attestasiya Komissiyasının Sədri Arif Mehdiyev cənablarına təqdim edərkən, məni çox təriflədi. Ağa Musanın etdiklərini vurğulayaraq, onun nəhəgliyindən söhbət açan Arif müəllimə elmi mövzu götürmək arzusunda olduğumu bildirəndə, fikrimi müsbət qarşılaması məndə ruh yüksəkliyimin artmasına səbəb oldu.
Elmi işim 2009 cu ilin aprel ayında təsdiq olundu.
Əski milyonçularının varislərinin ilk nümayəndəsiyəm ki, "A.M.Nağıyevin xeyriyyəçilik və fəaliyyəti" mövzusunda elmi mövzu üzərində çalışıram.

**Şam kimi əridim bu yolda**
**amma sönmədim**

Neft milyonçusu – xeyriyyəçi Ağa Musa Nağıyvin "əmanət" qəbrini daimiləşdirməklə, qismən də olsa, məqsədimə nail oldum. Onun xeyriyyəçilik və maarifçilik fəaliyyətini davam etmək məqsədilə adını daşıdığı "Milli Dəyərlərin Qorunması" təşkilatını yaratdım. Vaxtı ilə tikdirdiyi Dövlət İqtisad Universitetinin və Dünya Azərbaycanlıları Komitəsinin divarlarında portretinin asılmasına nail oldum. Uzun illər boyu babamın və atamın etdiklərini aşkarlaşdırıb, gündəmə çıxartmaqda işimi bu gün də davam edirəm.
Adətən hər bir işin ustası olduğu kimi, babam və atam haqqında xatirələrə və faktlara istinad edib, ikinci kitabı yazmaqla, elə bil tablo üzərindəki əsərindən zövq alan rəssama oxşatdım özümü.
Buna haqqım çatır desəm, təvəzökarlıq hesab etməyin. Çünki hər bir işin tamamlanması – vaxt, zaman, enerji, istək və arzu tələb edir.
Bu isə damla-damla həyata keçir. Belə yarandı Ağa Musa və Fərəc Nağıyevlər tablosu mənim təsəvvürümdə.
Şam kimi ərisəm də, amma sönmədim.
Çünki mənim üçüncü kitabım artıq yoldadır.
"Tacirlər" kataloqunda, "Kimi yaşadacaq dünya", "Ömrün ziyası", "XXI-ci əsrin elitar qadınları", "Fətulla bəy Rüstəmbəyov" kitablarında ictimai fəaliyyətim haqda yazılar dərc olunub.
2009-cu ildə nəşr olunmuş "Azərbaycan ziyalıları" ensiklopediyasında haqqımda ətraflı və geniş məlumat verilib.
Respublikamız müstəqillik əldə etdiyi vaxtdan babam Ağa Musa Nağıyevin adını gündəmə gətirməyi qarşısıma məqsəd qoyub, milyonçunun qaranlıq taleyini işıqlandırmağa nail olduğum haqda "Carçı" jurnalı məqalə çap etməklə bərabər, yubileyim münasibətilə təbrik edib, fəaliyyətimi qiymətləndirib.
Ömrümün 70 ilini başa vurub, etdiklərimdən qürur duyuram.
Arxaya nəzər salıb, gördüyüm işləri az bilib, deyirəm:
"Məndə sığar iki cahan, mən bu cahana sığmazam".

## "musanaqiyev. az" saytı internet səhifələrində

İctimai məsələlərinin həllində əvəzsiz xidmətləri olan neft milyonçusu Ağa Musa Nağıyevin xalq qarşısında xidmətlərini yaşatmaq məqsədilə yaradılmış internet Saytının təqdimatı oğlu

İsmayılın xatirəsinə həsr etdiyi "İsmailiyyə"(AMEA) – binasında doğma ocağında 04.03. 2010 il tarixində keçirildi.
Ağa Musa Nağıyevin ictimai fəaliyyətini daha geniş formatda xalqa çatdırmaq üçün saytını yaratmağı qarışma məqsəd qoydum və buna nail oldum.
Saytın səhifələrində Ağa Musa Nağıyev haqqında düzgün və dolğun məlumatın verilməsi əsas prinsiplər kimi qarşımda dururdu.
Xeyriyyəçiliyi və maariflənməyə yönəltdiyi məsələlərin həlli tapılacaq bu saytın- işıq üzü görməsi, Ağa Musa Nağıyevin vəfatının 91 ilinə (04.03. 2010) təsadüf etdi.
Sayt vasitəsilə Ağa Musa Nağıyevin neft istehsalında təcrübəsini və fəaliyyətini, əsasən bu günədək işıqlandırılmayan dəqiqliyi göstərmək oldu məqsədim.
Övladları Ümmül Banu və İsmayıl haqqında, Ümmül Banunun Fransaya getmə tarixçəsini, orada hansı çətinliklərlə qarşılaşması, sonradan "Banin" ləğəbi ilə şöhrət tapması, Fərəcin sürgün həyatı və incəsənətdə qoyduğu izlər, ən əsası bu vaxtadək işıq üzü görməyən dəqiqliyi göstərməyə nail olacağıma ümüdlü idim.
Vaxtı ilə Ağa Musa Nağıyevin tikdirdiyi, lakin bu günədək çoxlarının tanımadığı binaların tarixini və fotosunu, 25-dən artıq binalarının bu gün inzibati idarələr kimi istifadədə olmasının siyahısını təqdim etməyi saytın planına daxil etdim. Çünki 11 Bakı milyonçularından yalnız Ağa Musa Nağıyev 98 bina inşa etdirib. Memarlıq üslubu cəhətdən nadir tikililər yalnız ona mənsub olub.
Düşündüm ki, "musanaqiyev.az" saytı vasitəsilə: "Tikmədim özüm qalam, tikdim ki, izim qala"- deyiminin mənasını dərk etməyin vaxtının yetişdiyi sübutə yetəcək.
Ağa Musa Nağıyevin - millətin olmadığı bir dövrdə bir dövlət görəcək işlərini – sayt vasitəsilə xalqa çatdırmaq; neftdən gələn gəliri millətin inkişafına sərf etdiyini, xeyriyyəçiliyi və çoxsaylı tikililərilə Bakının 11 milyonçularından fərqlənməsinə səbəb olan təsadüf – onun 11 yaşında zəhmətə qatılıb, hamballıq etməsi olub.
Bakının salnaməsinə bəxş etdiyi – qotik üslubda tikilmiş "İsmailiyyə", "Lukoyl" və "Sokar" neft şirkətlərinin binası, "ÜNS" teatrının, Diaspora və Gül pasajı kimi fəaliyyət göstərən şedevr binaların müəllifi, 35 yoxsul ailənin başçısının vəsiyyətinə əməl edib, onların dəfnini Kərbəlada keçirən, maarifçiliyə xüsusi diqqət yetirən, səhiyyəyə nəzər salıb, dörd xəstəxana tikdirən – belə bir insanın qənaətçiliyini qiymətləndirməyi bacarmayanlara bu sayt bir mesajdır.

Neft istehsalının həcminə görə (13 mln.pud) 1908-ci ildə rekord vuran məhz Ağa Musa Nağıyev olub. Əbəs deyil ki, Çar II Nikolay Bakının 11 milyonçuları arasında məhz onu “Neftin Kralı” adlandırıb.
Rus rublının alıcılıq dövriyyəsi yüksək olan bir dövrdə atasının vəsiyyətinə əməl edib, vəsaitini daşınmaz əmlaka sərf edən Ağa Musa Nağıyevin hələ də layiqli qiymətini almadığını xalqa bəyan etməyi sayt vasitəsindən istifadə etməyi borc bildim.
Axı onlar bizim üçün yaradıblar, biz də bu millətin övladlarıyıq.
Saytla maraqlanacağınıza ümüd bəsləyib, rəylərinizi izləyəcəyəm.

## Müqəddəs Həcc ziyarətində oldum
(İrfan əhliyəm)

Ağa Musa yolunda çalışdığım zamandan uğur əldə etdiyim qədər, uğursuzluqla da rastlaşmışam.
Özüm haqda fikirləşməyə vaxtım çatmır. Axşamın düşməsini istəmirəm. Çünki gündüz saatlarında çalışmağım mənə azlıq edir.
Amma mənim barəmdə də düşünənlər tapılır.
Babam yolunda çarpışdığımla, çoxlarının hörmətini qazanmışam.
Deyilənlərə görə daxilim xarici görkəmimi tamamlayır.
Komplimenti çox sevirəm. Onda ki, etdiklərim kənardan baxanlar tərəfindən qiymətləndirilir.
Hamı kimi məni də düşündürən odur ki, əski milyonçuların vərəsələrinin arasında babası yolunda çalışanlardan birincisiyəm. Bir nömrəyəm!
Əski milyonçuların vərəsələri məni “Flaqman” – öndə gedən adlandırırlar.
2006-cı ildə Bakı İcra Hakimiyyətindən gözəl bir insan mənə Həcc ziyarətinə getməyi təklif etdi.
Çaşıb qaldım. Nə deyəcəyimi düşünmədən, fürsəti əldən verməyib, dedim: - gedərəm!
Səhəri gözümlə açdım. Düşündüm ki, “hə” deməyim düz idi, yaxud...
Axı çox çətin yoldur. Mən buna hazır deyildim. Arzum olsa da, bunun reallaşmasından qorxurdum. Təklifin həqiqətə çevriləcəyindən qorxurdum. Amma gözləyirdim.

2006- cı ilin may ayında olan söhbətdən 3 ay keçəndən sonra mənə zəng oldu:
Dilarə xanım, sənədlərinizi Təzə Pirə təqdim edin.
Allah bilir nələr çəkdim o anlar. Bir tərəfdən sevinc, o biri tərəfdən isə qorxu hissi məni tərk etmirdi.
Sənədlərimi təqdim edərkən röyalarda idim.
Bütün bunlara baxmayaraq, içimdəkiləri heç kəs ilə bölüşməyib, sorğu – sual edənlərə qürurla cavab verirdim – bəli, Həccə gedirəm!
Babam yolunda fəaliyyətimi dəstəkləyənlərdən biri məni əlçatmaz arzu olan Həcc ziyarətinə göndərir.
Bu mənə ən böyük hədiyyə idi.
2006-cı il dekabrın 22-də təyyarə ilə yola düşdüm. Təyyarədə nələr keçirdiyimi ancaq özüm bildim.
İlahi! Ciddə şəhərinə ayaq basanda qorxunu fərəh hisləri əvəz etdi. Biz hamımız bu dünyanın qonaqlarıyıq. Torpağı öpdüm.
Bir də deyirlər ki, bəxtə inanan bəxtəvər olur. Əsas budur. Mən hər zaman düşündüklərimin həyata keçəcəyinə inanıram. Hər hansı bir arzum həyata keçəndə isə qüvvəmə heyran qalıram.
Deyirlər ki, Həcc çağırır. Inanmırdım. Qayıdarkən təyyarəyə minəndə, bu sözün həqiqət olduğunu anladım. Ağladım. Qayıtmaq istəmirdim, özümdən asılı olmayaraq.
İnanın! Bu həqiqətdir. Həcc çağırır!
Allahın evində qonaq olarkən ehram geyimində söylədiyim:
“Ləbbeyk Allahumə ləbbeyk, ləbbeyk və şədikə ləkə ləbbeyk” - sözlərin əks sədasını Kəbədə eşidirdim.
Ziyarətdən qayıtdıqdan sonra məndən sual edənlərə bir mənalı cavab verirdim – mən Allah ilə görüşdüm!
Çünki ziyarətdə ikən insanın mənəvi zirvəyə ucalması Allaha qul olmaqdan başlayır. Məhz ona görə namazda hər zaman deyilir:
“Əşhədü ənnə Mühəmmədən Əbduhu və Rəsulu”.
Yəni, Məhəmməd (S) Allahın əvvəl qulu, sonra isə Rəsuludur.
Müqəddəs Məkkə şəhərində təvafı məscidi hərəmdə etdik.
Mənə çoxları deyir ki, üzüm nurludur. Axı Həcc ziyarətində olanların sifətinə Allah nur çiləyir.
Nur dağına, Sur və Ərəfət dağlarına çıxıb, aşağı düşəndə məni sonradan dəhşət bürüyürdü ki, mən ora necə də asanlıqla çıxıb, düşmüşəm.
Fatimeyi Zəhranın evinə yaxınlaşmağa icazə vermədilər.
Ərafatda İbrahim Peyğəmbər və Həvvanın olduqları yerləri ziyarət etdim.

Minada “Çadır şəhərciyində” quru yerdə xalça üzərində uzanarkən, yumşaq yun döşək üstə uzandığını hiss edirsən. Elə ki, gözümü yumurdum, gözümün önündən dəvə karvanı keçirdi.
Dekabrın 26-da Minaya çatan kimi xalça üzərində 10 dəqiqə çimir vurdum və yuxu gördüm. Artıq üç ilə yaxın idi ki, ailəm ilə bağlı bir məsələ məni çox narahat edirdi.
Yatdım və müşkül işin həllini yuxuda gördüm. Yuxuda verdiyim telefon nömrəsinin səhv olduğunu söyləyərkən, öz səsimə ayıldım. Söylədiyim telefon nömrəsini 38-67-50 etiraf edəndə, bu qardaşım qızının nömrəsi olduğunu (bəlkəm də 20 ildən artıq idi ki təhfil vermişdi) deyərkən qışqırıb ayılmışdım yuxudan.
İndi deyəcəklərim məni hər zamandakı kimi bu gün də şoka salır.
Düz bir ilin tamamında, 27 dekabr 2007-ci ildə yuxum çin oldu. Axı bu Həcc yuxusu idi.
Mən Kəbədə Allah ilə görüşmüşdüm axı!
Ziyarətdə isti heç hiss olunmurdu.
“Şeytana daş atma mərasimi” çətin də olsa, hətta ən çox narahatlıq keçirdiyim tuneldən keçmək belə asan oldu.
Allah –Təala özü kömək olur o anda hər bəndəsinə.
2006- cı il 30 dekabrında qurban kəsdim.
Bəlkə mənə bir az gec və yaxud tamamilə bu ziyarət qismət olmayacaq idi?
Dəqiq deyə bilmərəm. Ancaq bu mənə qismət oldusa, deməli mən Allahın istəkli bəndəsiyəm.
2006-cı ilin əvvəlində, həm də sonunda Qurban bayramı olduğundan (bu 20 ildən bir olur), biz Hacı Əkbər adını qazanmış olduq.
Bu da bir qismət!
Ziyarət etdiyimə və Hacıxanım adına layiq görüldüyümə görə üç insana: Şəhər İcra Hakimiyətinin Baş memarı – Akif Abdullayev, Rabitə və İnformasiya Texnalogiyaları Naziri - Əli Abbasov və İqtisad Universitetinin Rektoru, Millət vəkili – Şəmsəddin Hacıyev cənablarına hər zaman minnətdar olacağam. Beləcə mən Müqəddəs Həcci ziyarət etdim.

Ən böyük **günah -qorxaqlıqdır**: “Allahdan qeyrisindən qorxmaq şirkdir”

Ən böyük **bəla -ümidsüzlikdir**: “Şeytan ümidsizlərin padşahıdır”
Ən böyük **miras -ədəbdir**: “Kim böyük Allahın ədəb qaydalarına yiyələnsə, əbədi qurtuluşa çatar”
Ən böyük **hədiyyə-güzəştdir**: “Bir-birinizə güzəşt edin, çünki Allah da sizə güzəşt edir”
Ən böyük **sirr -ölümdür**: “İnsanlar yuxudadırlar, öldükdən sonra ayılacaqlar”
Ən böyük **sərmayə -yəqindir**: “İnam islamdan üstündür. Yəqinliyin son həddi ixlas, ixlasın sonu isə xilas və qurtuluşdur”Ən böyük **ustad - təcrübədir**: “İşləri təcrübədən çıxarmayan aldanar”
Ən böyük **dövlət -ağıldır**: “Ağlın nişanəsi insanları yola verməkdir”
Ən böyük **fəxr -imandır**: “İman -qəlb ilə tanımaq, dil ilə iqrar etmək və bədən üzvləri ilə əməl etməkdir”
Ən böyük **şücaət -səbrdir**: “Kim Allaha xatir səbr edərsə, öz məqsədinə çatar”
Ən böyük **sevinc -çalışmaqdır**: “Allah bekar cavandan bezardır”
Ən böyük **arxa -məşvərətdir**: “Məşvərət etmək doğru yol tapmağın

gözüdür.Öz rəyi və fikrilə kifayətlənən adam özünü təhlükəyə atmışdır”.

## Unutqanlığı sevmirəm

Ağa Musanın həyatını nağıla bənzədirəm:

“Yoxsulluqdan – zənginliyə, zənginlikdən – unutqanlığa...”
Hərdən öz həyatımı da nağıla bənzədirəm.
Ağa Musa Nağıyev nəslindən olub - əsrin yarısını susmalı oldum, müstəqillik yaranandan bu adı layiqli pilləyə qaldırmaqla məşğulam.
Onu tanıtdım - tanındım, adını yüksəklərə qaldırdım – hörmət qazandım.
Qüvvəmin artdığını hiss etdikcə, imkanlarım genişləndikcə, məqsədim şaxələndikcə, Musasevərlər və azacıq məni sevərlər ətrafımda artdıqca, nağıllarda təsəvvür etdim özümü.
Beləcə, adi bir nəvə – Ağamusa tədqiqatçısına çevrilib, cürət edib – haqqında kitab yazdım. Vəsiyyətinin bir kiçik hissəsini həyata keçirdim: İqtisad Univrersitetində və Dünya Azərbaycanları Komitəsində portretinin asılmasına nail oldum Hətta haqqında işləməyə elmi mövzu

götürdüm. Daima gündəmdə olacaq adını daşıdığı təşkilat "Milli Dəyərlərin Qorunması" İctimai Birliyini yaratdım, saytını açdım.
Şöhrətə yüksəldim - desəm yanılmaram.
Amma bəzi nağıllardakı kimi unudulmaqdan qorxuram.
Bu məqsədlə bu yolda təməlin bərkiməsi üçün var qüvvəmi əsirgəmirəm.

## Mükafatlarım

2006 ildə - **Həcc ziyarəti;**
1990 və 2010 ildə - **Məşhəd ziyarəti;**
1999 ildən - **Əsilzadələr Məclisinin, Azərbaycan Respublika Qadınlar Cəmiyyətinin, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin və eləcə də "Altun Ləyaqət medalı və Diplomu"nun Protokol Komissiya Heyətinin – üzvü.**

**"Qafqaz Media" İB-nin Sədr müavini, "Qafqaz Press" qəzetinin baş redaktor müavini.**
**Respublika Qadınlarının III və Diaspora Qyrultaylarının nümayəndəsi;**
2009 il Ümümdünya **Sülh Federasiyasının - Ağa Musa Nağıyev ölümündən sonra və mən "Sülh səfiri"** Diplomlarına;
**Azərbaycan Respublikası "Oskar" Mədəniyyət qəzetinin 2009 il – "İlin adamı"** Fəxri Diplomuna layiq görülmüşəm.

**"Simurq" Mədəniyyət Assosiasiyasının** yaradıcı fəaliyyətinin inkişafında xidmətlərimi nəzərə alaraq, Assosiyasiyanın və eləcə də,
**Akademik Zərifə Əliyevanın** anadan olmasına həsr edilmiş konfransın nümayəndəsi olaraq - **Dövlət Mədəniyyət və İncəsənət Universitetinin;**
Gənc zabit kadrların hazırlanmasında göstərdiyim hərbi vətənpərvərlik xidmətlərimə görə - **Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin "Fəxri Fərman"** ları ilə təltif edilmişəm.

**Ağa Musa Nağıyevə həsr etdiyim "Xalq üçün ömrünü şam kimi əridən..." kitab**ımın işıq üzü gördüyünə və eləcə də demokratik mətbuatda müstəsna xidmətlərim nəzərə alınaraq, **"Könül" ictimai-siyasi qəzetinin;**

Təşkilatın üzvü, ictimai xadim, xeyriyyəçilikdə şöhrət qazanıb, **mədəniyyət – elm sahəsində fəal iştirakımı nəzərə alaraq – "Zirvə" Ziyalılar təşkilatının**;

Ədəbi mühit ilə sıxı əlaqələrə görə **"Kitab evi"** İB –nin

**“Vətən Naminə” Fəxri Diplom**larına layiq görülmüşəm.

**Ulu Öndər Heydər Əliyev İdeyalarının təbliğində fəal mövqeyimə,** Ağa Musa Nağıyevə həsr etdiyim **“Xalq üçün ömrünü şam kimi əridən...”kitabın** işıq üzü gördüyünə görə -**Təhsil Mərkəzinin Diplomuna**, **“Abdulla Şaiq” Fəxri mükafat**ına;
Ziyalılığımı -yüksək mənəvi keyfiyyətlərimi nəzərə alaraq:
**“Əsilzadə Xanım”** və **“Xan qızı Natəvan” Fəxri Diplomların**a layiq görülmüşəm.

**“Ailələrə Sosial Dəstək” İB-nin Humanist Diplomu**na;

Milli dəyərlərimizə yetirdiyim diqqət və qayğıya görə - Məhsəti Şairlər İB-nin **“Məhsəti Gəncəvi” Fəxri Diplomu**na;

**Musa Nağıyev fəaliyyətinin araşdırıcısı**, müasir gənclər arasında vətənpərvərlik duyğularının aşılanmasında, xeyriyyə marafonunda fəal iştirakına görə **“Məlhəm” İB-nin Əsilzadə xanım Diplomu**na;
Xeyriyyəçiliyi ilə tarixdə silinməz iz buraxmış milyonçu **Ağa Musa Nağıyevin ləyaqətli nəvəsi** olaraq, babanın yadda qalan əməllərini daima yaşada bildiyimi dəyərləndirib, **“Zirvə” Ziyalılar İB-nin “Ali” Əsilzadə Diplomu**na;
**Xeyriyyəçi əməllərimi nəzərə alaraq**, Ağa Musanın vəfatının 89 ildönümü münasibətilə “Qafqaz Media” İB-nin: **“Qafqaz” Diplomu**na, Qafqazda mədəni əlaqələrin inkişafında xidmətlərimə görə **“Qafqaz” mükafatı**na - layiq görülmüşəm.

Anadan olmağımın **70 illiyim münasibətilə**:
“Qafqaz Media” İB –nin **“Cəsarətli Qələm”** ;
İlin ziyalısı – xeyriyyəçi, Milli mətbuatın mənəvi dayağı və **Ağa Musanın nəvəsi** olaraq, **“Əsrin Ziyalıları” İB-nin Fəxri Diplomları ilə** təltiq f olunmuşam.

**Xeyirxah əməllərimi nəzərə alaraq,** gözdən əlil uşaqları sevindirdiyim üçün, iftar süfrələrində maddi-mənəvi dəstəyimi əsirgəmədiyimi nəzərə alaraq: “Qafqaz Media” İB, Gözdən əlil uşaqlar üçün məktəbin və Suraxanı r-n 7 saylı internat məktəbinin müdüriyyətinin **“Təşəkkürnamə”lərinə layiq** görülmüşəm.

**Dilarə xanıma**

Kölgəsindən də səmimiyyət süzülən
könül sirdaşım! Kübarlığını və
əsilzadəliyini qoruyub saxlayan,
xanımlığı ilə xanımları heyran edən,
son dərəcə nəzakətli, məlahətli xanıma

Səni qoy tanrı nəzərdən qorusun,
Hər gələn dərdi-xətərdən qorusun.

Çin ola arzu –kamın dünyadə,
Tar xeyir, Tanrı zərərdən qorusun.

Axmasın bircə gilə yaş gözdən,
Kövrələn dəmdə, qəhərdən qorusun.

Qəlbi saf kəslər ola mehmanın,
Dinsə yad, dildə zəhərdən qorusun.

Olmasın əskik üzündən şuxluq,
Üzünü Tanrı kədərdən qorusun.

Munisin iltiması var Haqdan,
Səni qoy böhtanü-şərdən qorusun!

Gülarə Munis

## Ö m r ü n z i y a s ı

2007 –ci ildə Tinatin Əhmədqızı “Ömrün ziyası” kitabı ilə oxucuların görüşünə gəlmişdir. Bu kitabda işi, fəaliyyəti ilə nümunə olan ziyalılar arasında öz əksini tapanlar sırasında mən də varam. Müəllif əsilzadə nəslinin layiqli davamçısı olaraq mənim də fəaliyyətimi qələmə aldı.

Məhəmməd Peyğəmbərin sözü ilə başlayıb mənə həsr etdiyi yazını:

"İnsan özündən sonra təmiz və yaxşı övlad, ona daim rəhmət oxutduran sədəqə və xalqına fayda gətirən bilik qoyub gedir."
Azərbaycanın məşhur milyonçusu, xeyriyyəçisi Ağa Musa Nağıyevin nəvəsi, görkəmli sənətşünas, fəal ictimaiyyətçi, Əmək veteranı, Prezident təqaüdçüsü Dilarə (Əliəsgər) Fərəc qızı Nağıyevanın ömür yolu ilə tanışlıq zamanı qəlbim qürur hissi ilə doldu və o an atalarımızın söylədiyi qiymətli fikirlərdən biri yadıma düşdü: "Ot kökü üstə bitər."
1929-cu ildə "Kapitalist"damğası vurulan A.M.Nağıyevin oğlu –vərəsəsi 26 yaşlı Fərəc həyat yoldaşı ilə birlikdə Orta Asiyada – Aşqabadda, Dağıstan Respublikasında və Azərbaycanın bir çox rayonlarında sürgün həyat keçirib.
İncəsənət sahəsinədə fitri istedada, yaradıcılıq qabiliyyətinə malik olan Fərəc, məskunlaşdığı yerlərdə teatrın təbliğində və təşkilində fəallıq göstərir. O, həm də bir çox satirik şeirlər müəllifidir.
Kim bilirdi ki, illər ötəcək və Dağıstanda dünyaya göz açan Dilarə Nağıyev nəslini başı üzərində gəzən qara kölgədən xilas edəcək və nəslin taleyində daim bir dan ulduzu kimi parlayacaq...
İşi, fəaliyyəti, ailə qayğıları ilə yanaşı Dilarə xanım babası A.M.Nağıyevin adına ölümündən 80 il sonra şəffaflıq gətirdi...

- Nəsillərə nümunə olan və olacaq bir insandan – Ağa Musa Nağıyevdən bu dünyada yaxşılıqlar qalmışdır. Əzəmətli dağlar kimi, qayaların köksündən çıxan bulaqlar kimi- söyləyir Dilarə xanım.

Nə fitnə qalacaq, nə şər qalacaq,
Yaxşı kişilərdən əsər qalacaq.
Çör – çöpü sahilə tullayır dəniz,
Dənizin dibində gövhər qalacaq.

**Dilarə xanım 50 yaşın mübarək!**

Vaxt keçir, il ötür, zamansa köçür,
Sən demə varaq-varaq ömürdən keçir.
Kimisi ağ örpəklə gəlin köçürür,
Kimi qəhərlənib, köksün ötürür...

Keçən günlərimdə görən nə etdim,
Həyat keşməkeşin mən necə keçdim?

Quş tək uçdum, köhlən tək keçdim,
Niyə həyat yolunu mən belə keçdim?

Bütün bunlar deyir saxla keçmişi,
İtirmə gəncliyin öz təravətin.
Hələ nə etmisən ay Dəli köhlən,
Saraltma söz ilə göz təravətin!

Ağlatma gözünü, əlliyə çatdın,
Dağlatma ürəyi, şimşəkdin, çaxdın.
Neçə-neçə yuxuya sən haram qatdın,
Hələ nə etmisən ay Dəli köhlən!

Muğamdın, oxudun qəmli mahnını,
Sarı simdən doğan sənli mahnını.
Təzə başlayırsan şənli mahnını,
Hələ nə etmisən, ay Dəli köhlən?

Almaydın yetişdin, dərdin dedilər,
Gözəllik xalçasın, sərdin dedilər.
Xəstə könüllərsə, dərdim dedilər,
Hələ nə etmisən, ay Dəli köhlən!

İqtisad Universitetinin Dosenti
Nüsrət Qurbanov

**Rauf qardaşımın qızlarının arzuları**
(Nağıyevlər sülaləsinin ayrılmaz beşliyi)

Ömrün uzun, ürəyin
Qanadlı bir quş olsun.
Gözəl həyat bağında
Sevincə qoşmuş olsun.
Həyatın bir günəş tək
Parlaq olsun həmişə!

Səni qaldırsın həyat
Aya, göyə, günəşə!
Ürəyində qalmasın dilədiyin arzular
Bizim bu gün deyilməmiş sözümüz var.
Görək səni sevinclə baş-başa bibi!
Altmış, yetmiş nədir, yüz yaşa, əziz bibi!

## Gəncliyimi xırdalayıb 65-ə çatdım

Artıq 1992-ci ildən əsas işim neft milyonçusu Ağa Musa Nağıyevin oxu ətrafında çalışmaqdır.
Bu illər ərzində çox adlar qazanmışam el içində. Ən böyük mükafatım aldığım təşəkkürlər olub.
Hər dəfə eşidəndə ki, "Babası Ağa Musa və atası Fərəc haqqında etdiyi açıqlamalara görə Dilarəyə eşq olsun!" - bunu mükafat kimi qəbul edirəm.
Səhhətimdə balaca dəyişiklik oldu, amma qalib gələ bildim.
Başqa cürə ola da bilməzdi. Çünki mənim bu iki insan haqqında görəcəyim işlər hələ irəlidədir.
Bundan sonra yaşayacağım ömürdə bu sahədə etdiklərimi daha da aydınlaşdırmağa çalışacağam.
Nazim Hikmətin sözləri ilə desəm: "Mən yanmasam, sən yanmasan, bəs qaranlıqları kim işıqlandıracaq?" Cavab verirəm ki, bu insanlar haqqında qaranlıqları mən işıqlandıracağam!
Yubileyimdə söz verirəm ki, gecəmi gündüzümə qatıb Ağa Musa və Fərəc Nağıyevlərin tarixdə layiqli yer tutacaqlarına çalışacağam.
Özümə can sağlığı arzulayıb, ailəmə xoşbəxt, sakit həyat sürməyi diləyirəm.

## Ürək sözlərim

O zaman Ağa Musa "Azərbaycan" adlı bir məmləkətə "Böyük qardaş deyib". Lakin həmin "Böyük qardaş" bizə tariximizi unutdurmağa çalışsa da, tarix millətin say-seçmə oğullarının çiyinlərində qərar tutur.
Ağa Musa Nağıyev Bakının neft maqnatları arasında Nobel qardaşlarından sonra ən varlı və mötəbər milyonçu kimi tanınıb. Onun əməyi və vəsaiti nəticəsində Bakıda qısa müddət ərzində bütöv bir ziyalı nəsli təşəkkül tapıb.
Ağa Musa Nağıyev xeyirxahlığı, müsbət əməlləri ziyalı təfəkkürü ilə yadda qalıb.
Doğumla ölüm arasındakı məsafədə hərə öz həyat trayektoriyasını cızır. Ağa Musa Nağıyev həmişə inamlı olub. İnanıb ki, xalqımız qədir biləndir, min- min təlatümlər olsa da, qara küləklər əssə də, onun xeyirxahlığı öz layiqli qiymətini alacaq.

P.S. Həyat məni ağladıbsa da, bir o qədər də mənə mənalı ömür bəxş edib. Həm zahiri, həm də daxili gözəl olan Muxtar həyat yoldaşım olub, iki gözəl, dəyərli övlad sahibi olmuşuq.
İlk sevincimiz Samir oğlumuz oldu. Nənə - baba sevincini də o bizə bəxş etdi.
Bu gün övladlarımız tərbiyə və mədəniyyəti ilə üzümüzü ağ edir.
Hər ikisi, Samir və Könül aldıqları savada və yaşayış tərzinə görə minnətdarlıqlarını bildirirlər.
Övladda nəvənin şirinliyini Dilarəm anlatdı mənə. Adımın daşıyıcısı olan Dilarəm bu İqtisad Universitetinin pillərini addımlayaraq məni bir daha sevindirdi. İstəkli gəlinim, Gülüm (Gülnarə) 1992-ci ildə yenidən məni qocaltmağa çalışıb, Nərmin adlı bir nəvə də bəxş etdi.
Nərmin də öz növbəsində bacısı kimi savadı ilə məni sevindirib, Tibb Universitetinə daxil olub, kiçik ailəmdə həkimin sayının artmasına səbəb oldu. Gəlinim həkim kimi nəslimin tibbi xidmət yükünü daşıyır.
13 ildən sonra dünyaya gələn nəvəm Riad – ümdə arzularımdan biridir.
Ən ümdə arzum belə sevincləri Könülümdən görməkdir.
Uca tutduğum ailəm problemlərimə və sevinclərimə hər zaman şərik olub, ictimai fəaliyyətimi alqışlayır.

## SAMİRİMƏ HƏSR EDİRƏM

S ən məni unuda bilməyəcəksən,
Səni mənim xatirələrim izləyəcəkdir.
İllər dolansa da, aylar ötsə də,

Gözlərin yolumu gözləyəcəkdir.
Qəlbinin sakini mən olacağam,
Evinin sakini həyat yoldaşın.
Gözünün içində mən olacaqam,
Gözünün önündə həyat yoldaşın.

Oğlum Samirim mənim həyatım oldu. İsti nəfəsim, döyünən ürəyim, bütövlükdə canım oldu. Tək onun eşqiylə yaşadım düz 15 il. Könül anadan olanadək. Samir yaşamağa ilham verdi bütün bu illəri mənə.

Sən mənim fəxrim oldun. Sənin əsl oğul olduğunla hər zaman fəxr etmişəm. Aldığım nəfəsi duymusan. Bu qarşılıqlı olub.

Səni evləndirmək fikrinə düşəndə ilk söhbətimiz: “Ay ana, hələ evlənən vaxtım deyil. Amma sən belə düşünürsənsə, deməli belə olmalıdır. Əyər lazım bilsən, məni oda da atsan, deməli bu odda yanamlıyam”- oldu.

Xalan bu sözlərə görə sənə sağ ol dedi. Hər belə sağolları eşidəndə cavanlaşıram. Problemlərimin həlli yüngülləşir.

Hələ uşaq ikən, məni ezamiyyətdən qarşılayanda, gül gətirirdin.

Bir dəfə rayondan qayıdarkən görüşümə gülsüz gəlmişdin. Mehdi Hüseyn bağından gül qırdığına görə, polis atana və sənə acıqlanmışdı.

Hər dəfə ezamiyyətdən qayıdarkən: - mama sənsiz həyat elə bil dayanır, sənin üçün darıxıram sən olmayanda –deyirdin.

Mən də öz xatirələrimdə yazmışdım ki, anam evdə olmayanda, dünya mənə darlıq edir. Amma anam evdə olanda həyat mənim üçün nur saçır.

Samir hələ kiçik yaşlarından pulumun olub - olmadığını bildikdən sonra sifarişini bildirirdi.

Texnikumda oxuyurdu. İcazə almağa gəlmişdim , hara isə getməli idik. Rəhbərlik ondan giley etdi ki, dərsdə bir az zəifləyib. Bilmirəm cin məni vurdu, ya mən cini. Onsuz getdik, papası və dayısı Çingiz ilə birlikdə. Tərbiyəni pozmamaq üçün onu cəzalandırdım, amma kabab boğazımdan keçmədi.

14 yaşında ikən kor bağırsağında cərrahi əməliyyat aparılacaqdı. Dünya gözümdə yox idi. Nələr keçirdiyimdən bircə Allahın xəbəri var idi.

Nə pis imiş övlad istəmək.

Əməliyyiat qurtarar qurtarmaz, həkiminə demişdin: “Çox sağ olun, məni anam üçün yaşatdız. Axı mən onun tək balasıyam”.

Sonradan həkim təəccübünü gizlədə bilməyib, təcrübəsində bunu birinci hadisə adlandırmışdı.

Belə bir çətin vəziyyətdə mənə bəslədiyin məhəbbətini unutmaq olarmı?

Verdiyim tərbiyənin bəhərini gördükcə dünya mənə gen gəlir.

Əsgərlikdən qayıtdıqdan sonra bir il ali məktəbə daxil ola bilmədin.

Sənin institutda oxumadığına təəccüblənənlərin kinayəsini görəndə, elə bil başıma qaynar su tökürdülər.

Mənim göz yaşlarımı görəndə, bu dəfə mütləq daxil olacağına söz verdin. Mənim göz yaşıma dözə bilmədin.

Ali məktəbə daxil olmağa hazırlaşdığın vaxtda, elçi getdim sənin üçün. Tamilla xanımın birinci sualı olanda ki, “ola bilməz ki, Samirin ali savadı olmasın” – həyat gözümdə söndü.

Qızı gözüm elə tutmuşdu ki, avqustün axırını – ali məktəbin cavabını gözləməyib, elçi getmişdim. Özümü toplayıb, onu deyə bildim ki, ali savdla ölçülən ailə həyatı mənə lazım deyil. Ali savad almaq Samirin arzusu, mənim isə bir nömrəli problemim idi.
Mən çəkdiyimi çəkdim, Samir ali məktəbə daxil olldu və Gülnarə ilə ailə qurdu.
1988-ci il bizim üçün çox düşərli oldu.
İlk qızına Dilarıə adını verdin. Onu mənə bəxş etdin, adımı isə bir ömür də yaşatdın. Çox sağ ol, oğul!
Dilarə qızımızı xəstəxanadan çıxaranda, Səadət sarayından gətirdiyim maşın, video çəkən, ziyafət və sair sürprizlərim səni şaşırsa da, bilirdin ki, tutduğumu buraxan deyiləm. Çox oğul ana adını balasına verir. Sən bu çoxlardan deyilsən. Sən mənim oğlumsan. Bu mənim yuxusuz gecələrimin, ali savad yolunda çəkdiklərimin, əsgərlikdə olarkən ağrılarımın, bir sözlə, yolunda şəhid olduqlarımın "sağ olu" idi.
Axı mənə qudam Tamilla xanım da "sürprizli – məcnun qaynana" titulunu vermişdi.
Uşaq vaxtı velosipeddən yıxılıb, qolunu sındırmışdın. Səhərə qədər yatmadıq, söhbət etdik. Söz də tapdıq danışmağa. Hər zaman fikrimiz də bir olub, söhbətimiz də.
Sözüm çoxdur, aşıqlar kimi əlimə saz götürsəm, sözüm qurtarmaz sənin eşqinə.

## ÜÇ RƏFİQƏ, ÜÇ ANA, ÜÇ İCTİMAİ QADIN

Biri var idi, biri yox idi. Üç qız göz açmışdı dünyaya ayrı -ayrı ailələrdə.
Hə... Biri birindən bixəbər idi onlar.
Birinə Elmira, o birilərinə Rəhilə və Dilarə adını verdilər. Onlar az getdilər, çox getdilər, dərə -təpə düz getdilər. Beləcə böyüyüb, məktəbə getdilər.Qızlar bir-birinə baxıb gülümsəyir, səhər salamlaşır, dərsədən sonra ayrılırdılar.
Artıq qızların biri-biri üçün darıxdıqlarını hiss edən canavar, hər cürə onları ayırmağa çalışır.
Ancaq bu "qırmızı papaq" qızları ayırmaq artıq gec idi. Qızlar bir də gördülər ki, məktəbin son sinifindədirlər.
Hec bir əhdi - peyman bağlamadan dostluq etməyə yönəldilər. Artıq onların dostluqlarına qibtə edənlərin sayı artırdı.
Ovçular canavarı aradan götürmüşdülər.
Nənələr isə nağılını davam edir, əsl dostluğun sirlərini bu qızlara açırdı.
Sonradan ali məktəb, görüşlər, ailə qurmaq mərasimi başladı.
İlk olaraq Rəhilə ailə quranda, Elmira və Dilarə həsrətlə onu izləyirdi.
Dilarə ailə quranda, Elmira düşündü: -Mənim nəyim onlardan əskikdir ki?
Amma Elmira ailə quranda, Dilarə və Rəhilənin sevinci göylərə sığmırdı.

**NAĞIYEVA DİLARƏ AĞAMUSA**

Mənalı bir ömür yaşayaraq, yüksək əxlaqi keyfiyyətləri ilə həyatda öz yerini tutmuş, yaddaşlarda yaşamaqla özünə əbədi iz qoymuş, neft milyonçusu Ağa Musa Nağıyevin nəvəsidir.

Yüksək intellektə malik olan Dilarə xanım, iki ali savadlı və bir Orta ixtisaslıdır. Uzun müddət kadr üzrə mütəxəssis işləyib.Prezident təqaüdçisidir. Ağa Musaya həsr etdiyi "Xalq üçün ömrünü şam kimi əridən" kitabının müəllifi daha iki kitab üzərində işləyir. Babasının adına İctimai Birlik yaradıb. Akademiyanın Tarix institutunun dissertantıdır. Qızı Könül ilə nəfəs alır, oğlu Samirin ailəsi ilə fəxr edir. Həyatda yaxşı insan kimi sevilir, gözəl həyat yoldaşı olmaqla, misilsiz ana və qaynana rolunun öhdəsindən qəhrəmanlıqla gələ bilib. Nənə cevgisi ilə tarix yaradıb. Qardaşı uşaqları onun hünərini qiymətləndirərək onu "Fəxri bibi, Əjdaha və Aslan bibi" kimi adlara layiq görüb.

Baba və atasının fəaliyyətini işıqlandırdıqca, onların nəvazişlərinin hərarəitini hiss etdiyini vurğulayır Dilarə xanım. Bunun müqabilində o, Həcc ziyarətində olub. Rəfiqələri onu -məclislər yaraşığı adlandırır.

Özü isə deyir - "Dünyanın xöşbəxti mənəm!"

.... Hə, bu qızlar o vaxtı heç düşünmürdülər ki, həyat cığırlarını bir yerdə addımlayacaqlar. Özü də nə az, nə çox, düz 63 il! Rəhilənin 2, Elmiranın 3, Dilarənin 2övladı var. Onlar ali savadlı, tərbiyəli və qabiliyyətli olub, ata-ana qədri biləndir.

Bu xanımların biri ağ, biri qırmızı, biri sarı gül oldu həyat yoldaşları üçün.

Beləcə canavar nənə şəklində gəlib çıxdı **ELMİRA** xanım gilə.

Nə görsə yaxşıdır? Soruşur: hanı uşaqlar? Elmira xanım cavabında deyir:

Mənim iki övladım çoxdandır ki, xaricdə yaşayır. Bəs sən nə bilirdin?

Səni gözləyəcəyəm ki, gəlib mənim nəvələrimi yeyəsən? Hələ Bakıdakı qızımı da göndərəcəkdim onların yanına. Başım **DİLARƏ** xanımın yubileyinə qarışdı.

Nə əcəb "Neolit" restoranına getməmisən, ay canavar? Get gör orada nə vur çatlasın var.

Elə azından üç "yeməli" xanım var.

Amma demə ki, ünvanı mən verdim. Yaxşı canavar qardaş? Onu da deyim ki, gələn həftə də "Neoqara" restoranında vur-çatlasının ardı olacaq.

Söhbətin üstünə **RƏHİLƏ** xanım gəlib çıxdı. O dedi:

Vallah nə qədər yeni nağıllar yaransa da, canavar elə olduğu kimi – nağıl qəhrəmanı olaraq qalır (o qorxusundan belə deyir).

Elə sənin ucbatındandır ki, mən də iki nəvəmi xaricə göndərmişəm, üçüncünü də bu il göndərəcəyəm.

Bax, beləcə nə az getdik, nə çox. Görün nə böyük yol keçdik biz üç rəfiqə? Övladlarımızın firavan böyüməsi, xoşbəxt olmaları üçün çox çalışdıq və böyük işlər gördük.

Uduzduqlarımız də bir oldu. Hər üçümüz həyat yoldaşımızı itirdik.

Həyatla mübarizədə tək qalsaq da, qalib çıxdıq, çünki onlar bizə yaxşı övladlar bəxş edibər. Hansılarla fəxr edirik, sevinirik, gülüb, şadlanırıq.

**RƏHİLƏ xanım KƏRİMOVA**

Söz xəzinəsini insanlara çatdıran olub, Rəhilə müəllimə. Xarıcı dil müəllimməsi olmaqla yanaşı artıq 45 ildir ki, şagirdlərlə külüng vurub, dağ yarır. Onun verdiyi biliyin nəticəsində yüzlərlə şagird – tələbə hüququ qazanıb. Çünki o, metodbirləşmənin sədridir. Rəhilə xanım Təhsil Nazirliyinin "Fəxri fərmanı" və eləcə də "Qabaqcıl Təhsil İşçisi" döş nişanı ilə təltif edilib.

**ELMİRA xanım ƏFƏNDİYEVA**

Gözəl pedaqoq, səmimi insan, incə qəlbli xanım! Ali savadlı psixoloq, ömrünü uşaq müəssisəsində işləməyə həsr etmişdir. "Qabaqcıl maarif xadimi" döş nişanı, Təhsil Mərkəzinin "Abdulla Şaiq" Fəxri Diplomu ilə təltif edilib.
Ömrünün 45 ilini uşaq bağçasında rəhbər vəzifədə çalışıb. O daima körpələrin milli zəmin, adət - ənənələr ruhunda tərbiyə olunmalarına fikir yönəltmışdır. Təcrübəli pedaqoq daima valideyinlərlə əlaqəni genişləndirib. O, iş prinsipini günün nəbzilə uzlaşdırmağı bacaran pedaqoq-psixoloqdur.

Hər üçü üçün həyatın əsas mənası: həyatda öz yerini tutmaq, mövqeyini müəyyənləşdirmək, başqaları üçün nümunə olmaq!
Bütün bu xüsusiyyətlərə malik olan **ELMİRA** xanım –birinci, **DİLARƏ** xanım-birinci, **RƏHİLƏ** xanım isə birinci yerdədir.
Hər üçü bir amala xidmət edib, öyrədici xüsusiyyətə malikdirlər.

Esse – elegiyanın müəllifi, bəstəkarı, ssenarisi, rejissoru və ev sahibəsi **DİLARƏ** xanımdır.

23 May 2010 il.

## Zəka və ülviyyət

Hər insanın öz taleyi, öz ömür yolu var. Həyatda insan həyatının formalaşmasında, Allah- Təalanın ona yazmış olduğu taleyin və tutduğu ömür yolunun böyük rolu olur.
Taleyini özü də hiss etmədən məhz tarixə - Bakı milyonçusu, babası Ağa Musa və atası Farəc Nağıyevlərin talesiz talelərinə bağlayaraq, onların istedadını, bilgisini aləmə car çəkərək, əməllərindən, işindən zövq almaq qisməti oldu alın yazısı Dilarə xanımın.

Aldığı savad və mənəvi keyfiyyətlərinə görə o, çoxlarından fərqlidir. İctimai işlərdə fəal olduğu ilə bərabər 18 ildən artıqdır ki, bu yolun ixtiraçısıdır. Ağa Musa Nağıyev haqqında yazdığı kitabdan əlavə daha iki kitab üzərində işləyir. Dilarə xanım Ağa Musa Nağıyevin ictimai fəaliyyəti və xeyriyyəçiliyinə aid elmi mövzu üzərində işləyir.
Sədri olduğu "Milli Dəyərlərin Qorunması" təşkilatı da babasının adı ilə bağlıdır.
Həyatda insan özünü dərk edəndən hər hansı bir zirvəyə ucalmaq eşqilə yaşayır. Bu zirvələrin ən çətini - ali insanlıq zirvəsini aşmaqdır ki, bu da hər kəsə nəsib olmur. Xanım - xatınlığı ilə, əməlləri və mədəni rəftarı ilə zirvəni fəth edən Dilarə xanım özünü bu onun əvvəlində hiss edir.
Bu yolda layiq görüldüyü təltiflər sırasına : Akademik Zərifə xanım Əliyevanın 87-ci ildönümünə həsr edilmiş konfransın iştirakçısı maarifpərvər, ziyalı kimi Az.dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Fəxri Fərman"ı, anadan olmasının 70 illiyi münasibətilə Qafqaz Media İB-nin təsis etdiyi "Cəsarətli Qələm" Diplomu qatıldı.
Dilarə xanım həyatda yaxşı insan kimi sevilir, misilsiz ana və qaynana rolunun öhdəsindən qəhrəmanlıqla gələ bilir. Nənə sevgisi ilə tarix yaradıb.
"Carçı" jurnalı 2010 il

## Bu ərəfədə ikinci dəfə məşhəd ziyarətində oldum

"Qafqaz Media" İctimai Birliyinin Sədri Azadə Talehin təşkilatçılığı ilə Milli Mətbuatın 135 illiyi "Ulu Borçalı" restoranında böyük təntənə ilə qeyd olundu. Gürcüstan, Qazaxstan, Ukrayna Respublikalarından və İran İslam Respublikasından da bayrama nümayəndələr dəvət olunmuşdu. İrandan gələn şairə Əzəm Çai şeirləri və çıxışı ilə hamı kimi mənim də yaddaş dəftərimdə özünə xüsusi yer tutdu.

Yubiley ərəfəsində "Qafqaz Media" İB Sədri Azadə Taleh Hüseynova Təbriz "Şəhriyar Ədəbi Birliyi" nin dövlət səviyyəsində keçiriləcək Konfransa - İran İslam Respublikasına dəvət almışdı.
Azadə Taleh 9 nəfərdən ibarət qrupun iştirakçıları ilə səfərə çıxacağını qət etmişdi. Bu konfransa mən də dəvətli idim. Bizi Əzəm xanım Çai müşayət edəcəkdi.
Şairə Əzəm Çai Bakı ilə Təbriz arasında körpü yaratdı.
Təbriz bu şəhərə səfər edənədək təsəvvürümdə tamamilə başqa idi . Bircə onu deyə bilərəm ki, Təbriz gözəllərinin (qadınları) İranın başqa şəhərlərindəki gözəllərindən fərqləndiyinin şahidi oldum.
Bakıda Milli Mətbuatın 135 illiyi ilə əlaqədar keçirilən tədbirdə Təbriz "Şəhriyar Ədəbi Birliyi"nin məclis üzvü – şairə Əzəm Çai iştirak edirdi. Onun simasında gözəllik, tərbiyə, mədəniyyət və Azərbaycana qarşı böyük ehtiram gördüm. Təbriz mənim gözümdə daha da ğözəlləşdi və bunun şahidi oldum.
İranda 1990-1991-ci illərdə ziyarətdə olmuşdum. Konfransda iştirakıma görə iki qat sevinirdim ki, bu yerləri bir də görəcəyəm. İştirakçılar siyahısında: şairlər- Azadə Abbasqızı Taleh, Zərəngiz Dəmirçi Qayalı, Mir Emin Həsənzadə, Hicran Qarabağlı həkim –şair, yazıçı publisist Nubar Hakimqızı, Gülnar – həkim, İlham Əliyev –tələbə, Nəcəf Cahangir "Borçalı" qəzetinin foto müxbiri və mən var idim.
Azadə xanımın başçılığı ilə iyulun 25 –də İran İslam Respublikasına yola düşdük. Səfər avqustun 4-də başa çatdı.
Yolboyu İran Astarası, Ərdəbil, Nur, Sərab, Bostanabad şəhərləri bir-bir geridə qalırdı.
İlk dayanacağımız şəhər Təbriz oldu. Sərhəddi keçərkən bizi ayıran Araz çayına qibtə ilə baxdım. Məhz bu çay vaxtı ilə çoxlarının bir-birinə həsrət qoymuşdu. Müğənni Rubabə Muradovanın yanıqlı mahnısı, ustad Şəhriyarın nisgil dolu şeirləri, Yaqub Zurufçunun "Ayrılıq" mahnısı səsləndi qulaqlarımda.
Bizi ayıran Arazın o tayında idim.
Təbrizdə möhtəşəm görüşlərimiz oldu . Toplandığımız şeir məclisində yaradıcılığı ilə hələ Arazın bu tayında tanış olduğumuz 84 yaşlı şair Əli Nəzminin qarşısında dayanmışdıq. Ustad Əli Nəzmi və Höccətül – İslam Rəsuli maraqlı söhbətləri ilə bizi heyran etmişdi.
Yeri gəlmişkən qeyd edim ki, onların hər ikisi Əzəm xanımım ustadı olmaqla bərabər, qazandığı uğurlarında rolu böyük olub.
Konfrans iştirakçısı həkim- Hicran xanım şəxsi kitabxanasında Nəzminin kitablarının xüsusu yer tutduğunu qeyd etdi.
Çıxışlar bir daha sübut etdi ki, qanımız bir, fikirlərimiz eynidir. "Şəhriyar Ədəbi Məclisi" nin Sədri Ağayi Şahbazi də gözəl görüş təşkil etmişdi. O, sonra Təbrizdə Məhəmmədhüseyn Şəhriyarın məqbərəsini ziyarət etməyimizə imkan yaratdı. Ağayi Şahbazi "Şəhriyarın divanı" kitabını bizə hədiyyə etdi.
Hər iki tərəfin ədəbiyyat və yaradıcı insanları ətrafında olan çıxışlar dolğun və mənalı idi.
Belə bir deyim var: Qardaşın kimdir? Bilmirəm, yol getməmişəm –deyirlər.
Səfər zamanı Konfrans iştirakçılarına başçılıq edən Azadə xanımın səbrinə, mədəniyyətinə və ən başlıcası – Azərbaycanı lazımınca və ləyaqətli təmsil edə

bilməsinə heyran oldum. Hələ yol boyu həkim kimi göstərdiyi yardımdan söz açmıram.
Görüşlər Ərdəbil şəhərində davam etdi. Əzəm Çainin ustadı şair İsmayıl Nuzanı ilə Şeyx Səfiyəddin Ərdəbili xiyabanında görüşdük.
İran İslam İnqilabının banisi Ayatullah Xomeyninin məqbərəsini ziyarət etdik.
Çarşın şəhərində "Cəmkərəm" məscidində sözün əsl mənasında "iynə atsaydın yerə düşməzdi". Sahibi əz-Zamanın mövludu idi.
Bayram böyük ruh yüksəkliyi ilə keçirdi. Çarşın şəhərinin bütün sakinləri məscidə girməyə cəhd edirdı. "Nimeye Şaban" bayramı çox təntənəli keçirdi.
İzdiham mənə bir anlıq Həcc ziyarətini xatırlatdı. Belə bir izdihamda iştirakımıza və itməməyimizə görə Əzəm xanıma minnətdarlığımı bildirirəm.
O günü niyyət gecəsi idi. Sahibi əz-Zaman quyusuna atılan niyyət həqiqətdir – belə deyirlər. Ölkəmə əmin-amanlıq və zəbt olunmuş torpaqlarımızın qaytarılmasını, ən əsası Prezidentimizə cansağlığı arzulayıb, bu günümüzə görə, müstəqilliyimizə görə dualar etdim.
Oğlum və qızım üçün niyyətlər etdim. Məktubların quyuya atılması çox çətinlik törədirdi. Bunun həyata keçməsinə Azadə xanım əməyini əsirgəmədi. Ertəsi günü Bakıdan şad xəbər aldım.
Qum şəhərində xanım Məsumənin qəbrini ziyarət etdik.
Atalar deyib ki, "Həm ziyarət, həm ticarət". Biz iş adamlarının bu yolu isə "Həm işlə, həm də ziyarət et" –oldu.
Yolboyu gecələdiyimiz yerlər məscid və mədrəsələr oldu.
Nişapur şəhərində: rəssam Kamal Ül Mülkün, alim Əttar Nişapuri və eləcə də həm Şərqin, həm də Qərbin böyük filosofu - şairi Ömər Xəyyamın məqbərəsini ziyarət etdik.
Göyün yeddinci qatını gördüm desəm, həqiqətdir. Ömər Xəyyamın məqbərəsini həm öz yerimə, həm də onun "məcnunu" saydığım rəfiqəm şairə Gülarə Munisin yerinə ziyarət edib, yanımda olmağını arzuladım.
Ürəyimdə keçirdiyim həyəcanı və xoşbəxtliyi onunla bölüşdüm. Onu yanımda gördüm. Məqbərənin maketini ona hədiyyə aldım.
Məşhəd şəhərində İmam Rza hərəmini ziyarət etmək də qismətimizə düşdü. İmam Rzanın hərəminə yaxınlaşmaq qeyri mümükn idi. Burada da dadıma Əzəm xanım çatdı. Ziyarət ediləcək Hərəmin başlanğıcı yerin 3-cü qatında imiş. Əzəm xanımın bacarığı sayəsində xüsusi yollarla Hərəmin 3-cü qatında özümü görəndə həyəcanımın həddi-hüdudu yox idi.
Burada dualarımı təkrar etdim. Ən əsası ölkəmə əmin-amanlıq dilədim.
İranın keçmiş mərkəzi sayılan Ərdəbildə İslamın İranda yayılmasında böyük əməyi olan Şah İsmayıl Xətainin məzarı qarşısında dayanmışdım. Heyrətdən donub qalmışdım. Muzeyin girəcəyində nənəsi Həlimə Bəyimin, içəridə baş otaqda Ulu babası Şıx Səfinin məzarları görünür.
Şah İsmayılın məzarı olan otağın divarında təxminən 50x50 ölçüsündə əlinin izi qalıb. Sarayın bəzəyi təkraredilməzdir, şəbəkələr saxsıdandır.
Saray əvvəlki görkəmində muzey qoruğu kimi qorunub, saxlanılır.
Burada Əzəm xanımın ilk müəlimlərindən - alim İsmayıl Nuzanı ilə görüşdük.

Əzəm xanımın böyüklüyündən bizə danışmağa imkan verməyən şair, onun haqqında bilmədiklərimizi söylədi. Əzəm xanım gözlərimiz qarşısında hər an böyüyüb, ucalırdı. Təbrizin belə gözəli var! Şairə - Əzəm Çaı!
Yolboyu bələdçilikdən usanmaq bilməyən Əzəm xanım gəzinti və ziyarətlərdə də bizi tək buraxmırdı.
Əzəm xanım 8 aydır ki, həyat yoldaşı Ağayi Məhəmmədi itirib. Bu itgi ilə heç cürə barışa bilməyən Əzəm xanım təsəllisini Məhəmmədinə həsr etdiyi şeirlərində axtarır. Belə bir zərbə alan Əzəm xanım bizi bir dəqiqə belə diqqətdən kənar qoymurdu.
Hal-hazırda Azadə Talehin təşkilatçılığı ilə Bakıda Əzəm Çainin kitabı çapa hazırlanır.
Əzəm xanımın 3 övladı var. Təbrizdə yaşayan hər üçünün qonaqpərvərliyi bizi valeh etdi.
Ziyarətdə olarkən, əmisi oğlu - iş adamı Maqsud Xeyirxah, bizi Məşhədin yaxınlığındakı mənzərələrlə tanış edib, Tərqube qəsəbəsində "Qanad" istirahət mərkəzinə dəvət etdi.
Sonradan onun müşayətilə "Çala dərə" gölündə təbiəti seyr edib, istirahət etdik.
Yuxarıda adları çəkilən hər bir yaradıcı şəxslərə : "Qafqaz Media" İB-nin "Müqəddəs Qələm" diplomu, müəllifi olduğum və Ağa Musa Nağıyevə həsr etdiyim "Xalq üçün ömrünü şam kimi əridən..." kitabım və Milli Mətbuatımızı təmsil edən çoxsaylı qəzetlər təqdim edildi.
Əzəm xanımın təşəbbüsü ilə İran İslam Respublikasında gördüklərimin hamısını qələmə almaq qeyri mümkündür.
Şəxsən özümün və konfrans iştirakçılarının adından şairə - bələdçi Əzəm xanıma dərin təşəkkürümü bildirib, belə görüşlərin axarıncı olmasını arzulayıram.

Məqalə Avqust 2010 ildə
Respublika "Səs"qəzetində dərc olunub.

## Ad günün mübarək!

( Bacıma ünvanlayıram)

Bir qız göz açdı dünyaya 1931-ci ilin qarlı qışında, neft milyonçusu Ağa Musa Nağıyevin ocağında. Solmaz qoydular adını.
18 yaşında ikən, solmayan Solmaz qırmızı yanaqları, ağ dərisi və mavi gözləri ilə hamını heyrətdə qoyurdu.
Çox sərgüzəştli olub gəncliyi bu gözəl - ərkəsöyün qızcığazın.

Soyadının sürgünü olan atası Fərəc vətənə- Bakıya qayıdarkən, ailəsini çətinlikdən qurtarmaq məqsədilə, orta ixtisas təhsillı Solmaz ali savad ardınca deyil, işləməyə qərar verir.
Qız həsrətində olan Nağıyevlər nəslinin ocağında Solmazın dünyaya gəlişi bir parlaq ulduza bənzəyirdi.
Onun eşqinə 40 günlüyündə "şappaxeyir" hamamı tikilmişdi.
O vaxt belə adət-ənənə dəbdə olsa da, hamam tikdirmək hər adamın hünəri deyildi.
Solmaz xanımın 1 yaşınadək hər ayı bayram kimi keçirilib, 1 yaşı isə həyatına qızıl həriflərlə həkk edilmişdi. Atamız Fərəcin ona olan istəyi o biri övladlarının istəyindən fərqli olub hər zaman.
Fərəc sənət fədaisi olub. Bir dəfə o, ezamiyyətə hazırlaşarkən, Solmaz gəlinciyini onun çantasına atır. Mənzil başına çatan atam, həmin günü ezamiyyətdən yarımçıq qayıdır.
Bacısı olmadığından Solmaza bacı deyib çağırardı atam.
Deyirlər ki, övladdan pay olmaz.
Amma atam çətin də olsa, övladı olmayan qardaşı Zeynala Solmazı hədiyyə edir.
Ürəyi qan ağlasa da, qardaşından keçə bilməyib bu addımı atır atam.
Amma bu Zeynal əmimə çox baha başa gəlir...
O, Solmazın bütün kaprizlərinə dözsə də, gecə yarısında Solmazın təkidilə məcburi olaraq onu evimizə gətirərdi.
Belə vaxtlarda Solmaz əmisinə aldırdıqlarını da özü ilə aparmagı unutmazdı.
Solmaz hələ cavanlığından çox şıltaq olub, azadlığa üstünlük verib.
Gənc Solmaz modadan geri qalmaz, hər paltara uyğun çəkmə tikdirərdi.
Səs salan çəkmələrinin cırıltısından məhlə xəbər tuturdu ki, gələn Solmazdır.
Hələ o vaxtlardan şəkil çəkdirməyi sevən Solmaz, bu yaşında da bu hobbisindən əl çəkməyir.
Bütün bu keyfiyyətlər sonradan Solmazın sözün əsl mənasında azərbaycanlı xanımı olması üçün təməl oldu.
Düz deyiblər ki, ot kökü üstə bitər.
Solmaz xanım qurduğu ailəsinin qəhrəmanına çevrildi.
Onun saflığı, təmizliyi, qeyrəti və ən nəhayət övladlarının üstündə qartal olması bunları təsdiq edir.
Bu gün o, dörd övladı ilə fəxr edir. Fəxr edir ki, onların hər birinin savadlı mütəxxəsisə çevrilmələrində və ailədə düzgün yol seçimində böyük rolu olub.

Dörd övladdan on nəvə payı alan Solmaz, artıq yeddi nəvə toyu görüb.
Bütün bunlar Solmaz xanımın ömür payına düşüb.
Dövlətdə - dəvə, övladda – nəvə deyiblər.
Bu da Solmaz xanımın qismətinə yazılıb.
Altı nəticədən biri bu gün Solmazın adını daşıyır.
Nağıyev soyadının sürgün taleyini o da yaşayıb – Ağa Musa Nağıyevin nəvəsi olaraq. Vaxtı ilə atamın dediyi: "sus..., danışma..., bunu demək olmaz....."kəlmələri indi də onun qulaqlarında əks səda verir.
Bu gün mənim Ağa Musa ətrafında etdiklərimi alqışlayıb, sevinir.
Axı bunların acısını Solmaz daha çox hiss edib, şahidi olub.
Sevinirəm ki, belə bacım var.
Bu gün Nağıyevlər nəslinin işığını yandırmaq ikimizə nəsib olub.
Arzum budur: bu işığın qığılcımları Solmaz xanımın üstündən əskik olmasın. Bir yerdə olaq, nailiyyətlərimizi, uğurlarımızı birgə yaşayaq.
Solmaza arzum budur ki, 80 illik yubileyini Ağa Musa Nağıyev fəaliyyəti ətrafındakı yeni nəaliyyətlərimizlə qarşılayaq.
Bu sahədə arzularımız tükənməzdir. Buna görə əziz bacım, ölməzliyə vəsiqə almalısan!
Məqalə "Kredo "qəzetində
2009 ildə dərc olunub.

## Solmazın gözəlliyi gündəmdədir

Azərbaycan ziyalıları kitabının II hissəsində Solmaz haqqında yazı dərc olunub:
"1931-ci ilin noyabr ayında, qarlı-qışında bir qız dünyaya gəldi. Adını Solmaz qoydular. Tez bir zamanda ağ dərisi, qırmızı yanaqları və mavi gözləri ilə hamını heyrətdə qoydu o.

18 yaşında Ticarət texnikumunu bitirib əmək fəaliyyətinə başladı, atasından sonra ailədə ikinci çörək qazanan oldu. Qısa bir müddətdə müdür müavini vəzifəsinə təyin edildi. Qeyrətdə, qabiliyyətdə ailədə onun xüsusi yeri var idi. Buna səbəb onun damarlarında axan mavi qan – Ağa Musa Nağıyev nəslinin genləri idi.

Hələ uşaqlıqdan gözəlliyi və şıltaqlığı ilə Solmaz xanım hamını heyrətə salırdı. İndiki zaman olsaydı – Solmaz bəzəksiz, qrimsiz ola-ola gözəllik müsabiqələrində bütün mükafatlara layiq görülərdi.

21 yaşında ali təhsilini ailə qurmaqla əlaqədar yarımçıq qoydu. Zabit rütbəli bir oğlanla ailə həyatı qurdu. Dörd övlad sahibi oldu. 2 qız və 2 oğlan onun təhsilə davamiyyətini dayandırdı".

Şeirdə deyildiyi kimi: - bir əfsanə, bir əfsanə - elə bil Solmaz xanımın gözəlliyinə həsr edilib.

Çox zəhmət sevən qadındır. Başqa cürə ola da bilməzdi. Çünki onun damarlarında dövr edən mavi qan – bunu tələb edir.

Ümumiyyətlə Ağa Musa nəslində qız uşağı çox az olduğundan, Solmazın dünyaya gəlişi Fərəcin ailəsində sevinc kimi qarşılandı.

Ailəmizin qeyrəti atamız Fərəcin adı ilə bağlı olub.
Tarixdən bəllidir ki, Bakının arxitekturasına tikililəri ilə gözəllik verən milyonçulardan birincisi Ağa Musa Nağıyev olub. Onun haqqında çoxları bəlkə yalnız bu fikirdədir – xeyriyyəçidir, vəssalam!

Buradan belə qənaətə gəlmək olar ki, Ağa Musanın həyatı, qurub – yaratdıqları, qoyub getdikləri barədə çoxlarının məlumatı ya az, ya da səthidir.

Solmaz xanım, Ağa Musa haqqında rast gəldiyi hər hansı bir yazını elə bil ac adam kimi oxuyur, çox vaxt təəssüflənir, nadir hallarda sevinir ki, babası da yada düşür. 1991-ci ildə bir neçə haqsız yazılara təsadüf edərkən, Solmaz xanım məni Ağa Musa taleyi ilə maraqlanmağa yönəltdi. Aydındır ki, Sovetlər qurulduqdan sonra yaranmış totalitar rejim bizi hətta soyadımızı gizlətməyə belə məcbur etmişdi.

Hətta qızlarının ailə qurarkən soyadlarını dəyişməsi, Fərəci kədərləndirmək əvəzinə sevindirirdi. Ona görə ki, Nağıyevlər "kapitalist ünsürləri" damğası ilə damğalanmışdılar. Bu baxımdan ailədə Ağa Musanın adını çəkmək isə böyük cürət tələb edirdi.

Belə olub Nağıyevlər ailəsinin – nəslinin aqibəti.

Belə bir rejimdən sonra demokratiyanın yaranması ailəmiz üçün çətinlik yaratmasına baxmayaraq, ağır həyat tərzinə qalib gəldik. Beləliklə Ağa Musa Nağıyevin qaranlıq taleyinə işıq salındı. Buna əsas səbəb özlərini yalandan Ağa Musa Nağıyevin "nəvəsi" kimi qələmə verən kənar şəxslərin səyi ilə yazılmış "Milyonçunun dilənçi nəvəsi" məqaləsi oldu. Araşdırmalar aparıldı. Ağı qaradan seçmək üçün əlimizə imkan düşdü.

İndi üzümüz ağdır. Çünki Ağa Musanın həyatında açılmayan səhifələri biz nəvələri, iki bacı – Solmaz və Dilarə sürətlə vərəqləyirik.

## Varisin vəfası

Övlad kimi, nəvə kimi nəsillərə nümunə olan Hacı Dilarə xanıma!

Danışıq tərzimizdə elə sözlər var ki, bəzən onların mənasının fərqinə varmırıq. Hərdən bu sözlərdən biri dilimizin ucunda dolaşır.
Elə fikir söyləyəciyim Varis- sözü də buna aiddir. Dilimizdə, nitqimizdə işlənən bir söz.
Vərəsə sözündən yaranmış bu kəlmə ünvanlandığı şəxsi öz nəslinə, şəcərəsinə bağlayır və kimliyini təsdiqləyir.
Varis o kəslərə deyilir ki, mənsub olduğu şəcərənin adını uca tutub, onları yaşatmaqla gələcək nəsllərə əcdadını tanıtdırsın. Bunları etmək üçün mütləqdir ki, varisin vəfası olsun, ürəyi olsun. Çoxları varis deyə özünü öyə bilər, amma vəfalı ola bilərmi o kəs?
Əgər varis incə ruhlu bir qadındırsa, onda zərif çiyinlərində ağır yükü necə daşıdığını təsəvvür etmək çətinlik yaradır.
Söhbət Bakı milyonçularından birincisi sayılan, səxavət və qeyrət sahibi Ağa Musa Nağıyevin varisi, qanunu vərəsəsi, A.M.Nağıyev adına "Milli dəyərlərin qorunması" İctimai Birliyinin sədri Hacıxanım Dilarə Nağıyevadan gedəcək.
2001-ci ildə tədbirlərinin birində tanış olduğum bu xanım yüksək mədəniyyəti və zadəganlara məxsus davranışı ilə diqqətimi cəlb etdi. Tanışlığımızın vaxtının uzanması ilə onun nə qədər yüksək və zəngin mədəniyyət sahibi olduğunun şahidinə çevrildim.
Xanımın Ağa Musa Nağıyevin nəvəsi – varisi olduğunu bildiyim vaxtdan xəyal məni keçmişlərə apardı.
Bakı milyonçuları haqqında ilk məlumatı ana nənəm Səkinə xanımın söhbətlərindən almışdım. Nənəm əslən içərişəhərli olduğundan, Bakının sirli tarixindən çox məlumatlı idi. O, mənə danışdığı nağıllarla bərabər, ara bir milyonçulardan da söhbət açardı. Onların xeyirxahlığından, tikdirdiyi binalarından ürək yanğısıyla deyər, qoyub getdiklərindən yanıqlı-yanıqlı məlumat verib, xəyala dalardı. Söhbətinin sonunda isə eşitdiklərim haqda məktəbdə bir kəsə söyləməyəyi bərk-bərk tapşırardı. Uşaq ikən bunları anlamırdım, çox illər keçdikdən sonra, Bakının tarixi, keçmişi barədə kitablar oxuyarkən bu müəmmaların mənasını anladım. Nə yaxşı ki, tale mənim milyonçulardan birinin nəvəsi ilə dostlaşmağıma səbəb oldu.
Dilarə xanım Ağa Musa Nağıyevə həsr etdiyi "Xalq üçün ömrünü şam kimi əridən..." kitabında və elmi işində, eləcə də tədbirlərində onun həyat və fəaliyyəti haqqda müfəssəl məlumat verib.

Mənim isə deyəcəklərim Dilarə xanımın fədakarlığı, bir varis kimi vicdani borcunu necə yerinə yetirməsi haqdadır.
O, tək baba varisi deyil, eyni zamanda atası Fərəc Nağıyevin də xatirəsini ehtiramla yad edən bir övladdır.
Ömrünü incəsənətə və xalqın bu sahədə maariflənməsinə həsr edən səhnə fədaisi Fərəc Nağıyevin 100 illik yubileyini vaxtı ilə Ağa Musanın tikdirdiyi İsmailiyyə binasında -indiki AMEA –nın böyük salonunda keçirməsi irəlidə qeyd etdiyim fikri təsdiqləyir. Tədbir iştirakçıları arasında elm və incəsənət xadimləri ilə bərabər Fərəc Nağıyevin vaxtı ilə sənətə gətirdiyi tələbələri də var idi.
Dilarə xanımın çıxışını dinləyənlərin axan göz yaşları indi də gözümün önündədir. O, hər dəfə “atam” deyəndə, insana elə gəlirdi ki, salonda Fərəc müəllimin surətini görür, ona müraciət edirdi.
Onun incə qadın çiyinləri ata qayğısından daha ağır bir yük də götürüb. Bu babasının adının əbədiləşdirilməsi və onun layiqli qiymətinin verilməsi sahəsindəki nəhayətsiz zəhmətidir.
Bu sahədə yorulmadan çalışan Hacıxanım Dilarə babası Ağa Musanın fəaliyyətinə yeni nəfəs verib, desəm, yanılmaram.
Dünyasını dəyişdikdən sonra dörd məzar gəzən Ağa Musanın nəşi, 1998-ci il iyul ayında doğma ata-baba torpağı Biləcəridə daimi məzara qoyularkən, iri damlalarla yağan yağış sanki onun üçün göz yaşı axıdırdı.
Ağa Musa Nağıyev məhz nəvəsinin səyi nəticəsində 80 ildən sonra yenidən dünyaya gəldi. Elə bu səbəbdəndir ki, Hacıxanım Dilarənin dilində bu sözlər əzbər olub:
“Qollarım beşik olaydı, uzanaydın qollarımda kaş!”
1998-ci ildə qəbrin açılışı günü -25 dekabr tarixini onun doğum günü elan edib Dilarə xanım.
Babasının fəaliyyəti ətrafında tədqiqat aparmaq üçün günün 24 saatı bəs etmir bu xanıma. O, hər gün axtarışdadır, Dövlət Arxiv idarəsinə baş vurub, onun haqqında yeni məlumatlar toplamaq, binalarını aşkarlamaq, eşitdiyi hər bir sözün müəllifini axtarıb tapmaq və barəsində kimin nə isə bildiyini əldə etmək - onun qarşısında bir vəzifə kimi durur.
Evində yaratdığı şəxsi arxivi görəndə düşündüm ki, 98 bina tikdirib xalqı üçün əmanət qoyan, xalqın maariflənməsi və səhiyyənin inkişafı üçün heç nə əsirgəməyən, Bakıya və eləcə də Qara şəhərə həyat rəmzi olan Şollar suyunu çəkən, xəstəxanalar tikdirən Bakı mliyonçusu barəsində belə sənədlər özünə muzeydə yer taparsa...

Yaddan çıxarmaq olmaz ki, Ağa Musa Nağıyev ilə bağlı nə varsa, bunlar haqqında gənc nəsil məlumatlanmalıdır.
Hayıf ki, bu gün ondan nümunə götürülməli olan nə qədər çox olsa da, nümunə götürən bir o qədər azlıq təşkil edir.
Bircə ona əminəm ki, xalqının qeyrətli oğlu Ağa Musa Nağıyev dördüncü məzarında rahat uyuyur.
Çünki onun Ağamusa ləqəbini daşıyan Dilarə kimi vəfalı, oğul əvəzi nəvəsi - varisi var.

Gülarə Munis – Dilarəsevər
"Kredo"qəzeti - 2009

## Dilarə xanım bütün nəslimizin gözündə bir aslandır

Özünə peşə seçdiyi kadr işi- insanlarla birbaşa ünsiyyət, Dilarə Fərəc qızını bu işin peşəkarı edib.
"Azərbaycanfilm" kinostudiyasında, sonradan Ticarət Nazirliyində kadr mütəxəssisi kimi fəaliyyət göstərən Dilarə xanımın işçiləri ixtisaslarına uyğun düzgün seçilib, peşələrinə uyğun yerləşdirilmələrində böyük rolu olub. Kadr mütəxəssisi kimi insanlarla ünsiyyət saxlamaq Dilarə Fərəc qızının həyatının əsas məqsədi olub. Bu sahədə gördüyü işlər ona haqq verir ki, desəin:
"Bu məsuliyyətli vəzifənin öhdəsindən gəlmişəm. Kadr işinin əlifbasından başlayaraq, 40 il ərzində çalışıb, bu işin sirlərini öyrənməyə nail olmuşam. Bu sahədə Fərhad kimi külüng vurub, dağ da yarmışam. İşçinin maddi cəhətdən təmin olunmasına daim sevinmişəm. Bu sahədə bir çoxlarının ailəsində oynadığım rola görə özlüyümdə sübuta yetirmişəm ki, bu vəzifə mənə insanları, onlara isə məni sevdirib."
Ümumiyyətlə, insanlara xidmət göstərmək, qarşısına qoyduğu prinsiplərdən birincisi olub.
Dilarə xanım 18 ildən artıqdır ki, uzun illər kölgədə qalmış "kapitalist" damğası altında əzilmiş neft milyonçusu Ağa Musa Nağıyevin taleyinə işıq saçır. O, eyni zamanda atasının incəsənət aləmində fəaliyyətini də aşkar edib.
Onun səyi nəticəsində onların hər ikisinin yaradıcılığı və fəaliyyəti haqqında xatirələr və faktlar araşdırılıb. Ağa Musa Nağıyevin adını

vəfatından 80 il sonra yaddaşlara salıb, məzarını əbədiləşdirib, eləcə də o məcaziabadlaşdırılmasında xidmət göstərib.
Ağa Musa yoxsullara əl tutan, savadsızlığın qarşısını alan, kasıbların vəsiyyətinə əməl edən, saysız-hesabsız binalar ucaldan bir xeyriyyəçi olub.
Sovet dövrü və kommunist ideologiyasının siyasəti xalq üçün əvəzsiz işlər görmüş milyonçunu gələcək nəsillərin gözündə mənfi obraz kimi qələmə verməyə çalışmışdır.
Dilarə xanım hər zaman deyir, heyf ki, Ağa Musa iki ömür yaşamadı. Əgər yaşasaydı, pisi yaxşıdan seçib:" hazıra nazir olanlar – yaxşılıq edin, bina tikin, kasıblara əl tutun"- deyərdi.
Dilarə xanımdan ətrafdakılara və o cümlədən bizim (qardaşı Raufun) ailəsinə bəslədiyi isti münasibəti bildirmək üçün və özünün adlandırdığı kimi "kiçik" xeyirxahlığından danışmaq çox vaxt tələb edir. Biz hələ 2000-ci ildə ona "Fəxri bibi" adı vermişdik. Həyata keçirə bildiklərinə rəğmən, bu gün o bizim "Aslan bibi"mizdir.

Gülnarə Rauf qızı Nağıyeva
"MDQ" İB-in təsisçisi

**60 iliik yubileyinə təbrikimiz**

Əzizimiz, fəxrimiz,
Bizim bircə bibimiz.
Bu yubiley günündə
Səni təbrik edirik.

Öpürük və deyirik,
Nurumuz, dirəyimiz,
Bizim Fəxri bibimiz,
Arzuların çin olsun,
Övladların ömrünə
İşıq saçan nur olsun!

Nağıyevlər sülaləsinin ayrılmaz "beşliyi" – Raufun qızları

## Tarixdən silinəcək izlər dövrümüzün səhifələrində

Mənalı ömür yaşayaraq xeyriyyəçiliyi, yüksək əxlaqi keyfiyyətləri ilə həyatda yerini tutmuş, başqaları üçün sözün əsil mənasında nümunə olmaqla yaddaşlarda özünə əbədi iz qoymuş, neft milyonçusu Ağa Musa Nağıyev sovet imperiyasının sərt illərində müəyyən olunmuş qadağalarla üz-üzə qalaraq adı ləkələnmiş, qəbul olunmamışdır.
Bu zamanın insanlara, onların əmək və fəaliyyətinə saldığı kölgə və damğanın nəticəsində belə olmuşdur.
Bütün mülkünü, varidatını xalqına sərf edən, maddi dünyanın nemətlərinə çox sadə bir şəkildə yanaşan Ağa Musa Nağıyev mənəvi abidənin əbədiliyini dərk etmiş zamanın axarında əldə etdiyi maddi vəsaiti ölkənin simasının dəyişməsinə, xalqın həyat tərzinin yüksəlməsinə tərəf yönəltsə də, onun bu fəaliyyəti birmənalı qarşılanmadı. Məlum mənbələrdə bizə həqiqətlərin üzü açıldı.
Ağa Musa Nağıyev ənənələrini yaşadan və adını dşıyan "Milli Dəyərlərin Qorunması" İctimai Birliyin sədri Dilarə xanım Nağıyeva babasının irsini, adını yaşadıb, təbliğinə diqqət yetirir.
Prezidentin fərdi təqaüdünə layiq görülən Dilarə xanım, Heydər Əliyev ideologiyasının təbliğində fəal mövqe tutduğuna görə, Respublika Təhsil Mərkəzinin "Fəxri Diplomuna" layiq görülmüş, Xanqızı Natəvan ədəbi mükafatının laureatıdır.
Soyadı, nəslilə fəxr edən, arzu və qüvvəsi tükənməyən Dilarə xanımın bu il 70 yaşı tamam olur.
Bu münasibətlə "Qafqaz Media" İB-nin "Qızıl Qələm" mükafatı, Zirvə Ziyalıları təşkilatı və Əsrin Ziyalıları İctimai Biriyinin "İlin Ziyalısı" və "Xeyriyyəçi xanım" diplomlarına layiq förülüb. "Oskar" mədəniyyət qəzetinin "İlin adamı" Diplomu ilə də təltif olunub.
Baba və atasının irsini səhifə -səhifə aşkarlaşdıran Dilarə xanımın da sovet dövründə yaşanılan ictimai siyasi böhran taleyindən, fəaliyyətindən yan ötməmişdir. İllər ötsə də, bu nəslin davamçısı kimi ağrı-acısını yaşamaq ona da nəsib olub.
1968-ci ildən kommunist partiyasının üzvü olan Dilarə xanımı neçə il sonra mərkəzi komitədə "kapitalist qalığı"adlandıranlar tapılmışdır.
Soyadının uzun müddət kölgədə qalması onun narahat hisslər keçirməsi səbəbindən babasının yolunu davam etdirərək, xeyriyyəçilik və maarifçilik xüsusiyyətlərini aşkarlamaq məqsədilə Ağa Musa Nağıyev adına "Milli Dəyərlərin Qorunması" İctimai birliyini yaradıb.

Dilarə xanımın əsas məqsədi insanları layiqli şəkildə qiymətləndirmək və dəyərlərin qorunmasında iştirakını əsigəməməkdir. O, babasının tikililərinin ornamentinin qorunmasını da nəzərdə tutur.
Təbiətən çox müasir olan Dilarə xanım:
- Hansısa bir formada zahiri dəyişkənliyi eybəcər bir planda təsdiq edib, müasirlik kimi həzm etmək qəbuledilməzdir – deyir. Azərbaycana xas olan adət-ənənələr qorunub saxlanılmalıdır. Allah bizim qəlbimizdədir. Müasirlik yaxşı tərbiyə almış, mədəniyyətini büruzə verən, Azərbaycan ənənələrinə riayət edən şəxs kimi qəbul olunur. Bunu mənəvi xüsusiyyətlərlə də göstərmək olar.
Müasir həyatımızda YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyeva Azərbaycanın milli-mənəvi dəyərlərinin dünyaya tanıdılması yönümündə böyük işlər görür. Xoşməramlı səfir adı Ona təsadüfi verilməmişdir. Şəhərimizdə olan qədim binaların təmir və bərpası zamanı dövlətin nəzarəti altında milli üslub, ornamentlər saxlanılmaq şərtilə bu işlər aparılır. Gənclərin təlim-tərbiyəsində milli ruhda böyüməsi üçün hətta Azərbaycandan kənarlarda Mehriban Əliyevanın gördüyü işlər müsbət qarşılanıır.
Bu baxımdan ictimai qurum olaraq, Dilarə xanım fəalliyyətini dövlətin inkişafı, eləcə də, dövlətin yürütdüyü siyasət əsasında gerçəkləndirməyə çalışır.
Azərbaycanın milyonçuları olmuş və sovet dövründə əmlakı müsadirə edilən insanların fəaliyyətini aşkara çıxarmaq, gəncləri maarifləndirmək istiqamətində işini aparan bu qurumun arzuları:
- İnternat məktəblərinə, uşaq evlərinə hansısa formada köməklik göstərmək mənəvi rahatlıqdır.
Dilarə xanım sülhsevər ideyalarına görə və Ağa Musa Nağıyevin ölümündən sonra Ümumdünya Sülh Federasiyası tərəfindən "Sülh Səfiri"adına layiq görülüb.
Əski milyonçuların varislərinin ilk nümayəndəsidir ki, "Ağa Musa Nağıyevin xeyriyyəçiik və ictimai fəaliyyəti" mövzusunda elmi iş üzərində işləyir.
Öz sözlərilə desək: Mənalı bir ömür yaşayan Ağa Musa Nağıyevin varisi olaraq hələ görəcəyi işlər çoxdur. Ömür vəfa etsə, şok açıqlamalr olacaq.
Redaksiyanın adından Dilarə xanımı yubileyi münasibətilə təbrik edib, ona can sağlığı və bu mürəkkəb işində uğurlar arzulayır.
Zümrüd. "Səs" qəzeti
İyun -2010.

# S a d i q   ö v l a d

"...Və hər kəsə əməlinə görə mükafat verilir. Və, O, (yəni Allah) nə etdiklərini daha yaxşı bilir."

(Qurani – Kərim. Zumər surəsi.70.)

Doğrudan da yaxşı əməl sahiblərini Allah mükafatlandırır...
Kimini yaxşı övladla, kimini bol ruzi ilə...və s.
Azərbaycan xalqının çox müdrik kəlamları var. Məsələn:
"Ot kökü üstə bitər"
İnsanları heç bir haqsızlıq və biganəlik soy-kökündən uzaq sala bilməz. Hərə öz nəslinin yolunu və əməllərini davam etdirir.
Belə nəsil davamçılarından biri də Azərbaycanın "Neft Kralı" adı ilə tanınan Ağa Musa Nağıyevin varisi Hacı Dilarə xanım Nağıyevadır. Onunla çoxdan tanışıq. Dilarə xanımın təbiətində ən üstün cəhət onun insanlarla ünsiyyət qurmağı bacarmasıdır. Babası və atası üçün təşkil etdiyi möhtəşəm xatirə gecələrində dəfələrlə iştirak etmişəm. O hamıya eyni dərəcədə diqqət yetirir. Bu onun yüksək mədəniyyət və əxlaq sahibi olmasından irəli gəlir.
Dilarə xanımın çox gözəl təşkilatçılıq bacarığı var.
Yenicə yaratdığı və sədri olduğu Ağa Musa Nağıyev adına "Milli Dəyərlərin Qorunması" İctimai Birliyin Azərbaycan ziyalıları üçün təşkil etdiyi tədbirlər - bu fikri bir daha təsdiq edir.
Dilarə xanım təkcə xeyriyyəçi kimi deyil, həm də bütün ruhu ilə dininə və əqidəsinə sadiq olan bir Hacı xanımdır. Onun dilində ən müqəddəs and "Getdiyim Həcc yoluna and olsun!" – ifadəsidir.
Onun məqsədi, amalı yolunda necə çarpışması hər bir gəncə nümunə ola biləcək bir xüsusiyyətdir. Yaşının müdrik, qəlbinin cavan bir vaxtında yüksək səviyyədə elmi iş üzərində çalışması buna bariz misaldır.
Dilarə xanım gözəl insan, vəfalı varis, səmimi dost və bütün bunlardan ucada dayanan qayğıkeş ana və nəvazişkar nənədir.
Əminəm ki, o, bir alim kimi də özünü doğruldacaq. Çünki "Ot kökü üstə bitər!" Bu "otun", daha doğrusu, artıq ağacın kökləri Vətən torpağının çox dərin qatlarındadır.
Arzu edirəm bu ağacın budaqları buludlaradək ucalsın!

Gülarə Munis.
2010 il.

## Təbəssüm üzündən əskik olmasın

Ömür insana bir dəfə verilir. Onu elə yaşamaq lazımdır ki, mənasız keçən illər üçün əzab çəkməyəsən.
Əzizimiz Dilarə xanım məhz mənalı ömür yaşayan ziyalı xanımlarımızdandır.
Babalarımız söyləmiş: “Aslanın erkəyi, dişisi olmaz”; Qadınla kişiyə, ana ilə ataya heç bir fərq qoymayaraq: “Ana evin dirəyidir”; ”Qadın quran evi fələk də gəlsə, uçura bilməz”; Ən əsası isə Məhəmməd Əleyhisalam: “Cənnət anaların ayaqları altındadır” – deməklə qadınların müqəddəsliyini bir daha vurğulamışdır.
Ulu babalarımızın sözünün qüvvəti, bəzi kişilərdən fərqli olaraq fədakarlıq göstərən kişi qeyrətli, nəsillərə örnək olacaq xanımlarımız ta qəidmdən, öz zəkası, hünəri ilə yaşadığı dövrün rəmzi kimi parlayıb, bu günə işıq saçmışlar.
XIX əsrin axırı XX əsrin əvvəli yaşamış “Neft kralı”, milyonçu Ağa Musa Nağıyev nəslinin davamçısı Dilarə xanım Nağıyeva ilə tanışlığımız bir neçə ildir ki, davam edir.
Gülərüzlü, gözəl görkəmli, üzündən nur yağan bir xanımdır. Hər bir hərəkəti, nəzakətli davranışı, həlim danışığı, rəftarındakı sadəlik, təvəzökarlıq insanda heyrət doğurur. İnanıram ki, onu yaxından tanıyan hər kəs bunu təsdiq edər. Təbii ki, bu belədir. Axı başqa cürə ola da bilməz. Çünki o, Ağa Musa Nağıyevin layiqli davamçısıdır!
Ömrünün 43 ilini dövlət qulluğuna həsr edın Dilarə xanım, ölkənin ictimai həyatındakı işlərində yaxından iştirak edən xeyriyyəçi bir xanımdır. Hal-hazırda o, xeyriyyəçilik fəaliyyətini uğurla davam edir.
2004-cü ildə yaratdığı “Mesenat” fondu 2009-cu ildən etibarən Ağa Musa Nağıyev adına “Milli Dəyərlərin Oorunması” İctimai
Birliy kimi fəaliyyət göstərir. Yaratdığı İB-in əsas məqsədi – xalqımızın milli-mənəvi dəyərlərinin, adət və ənənələrinin öyrənilməsi və xeyriyyəçiliyin həyata keçirilməsidir.
Gözəl təşkilatçılıq qabiliyyətinə malik olan bu xanım, insanlarla ünsiyyət qurmağı da bacarır. “Ot kökü üstə bitər” deyiblər. Sadaladığım xüsusiyyətlərinə əsaslanaraq, babası Ağa Musanın davamçısıdır desəm, yanılmaram.

Yorulmaq bilmədən qocalar evində, əlillər evində, uşaq evində və internatlarda keçirdiyi hər bir tədbir zamanı bacardığı köməkliyi göstərir. Onu hamı bir xeyriyyəçi xanım kimi tanıyır.
Dilarə xanım əski milyonçuların varislərinin ilk nümayəndəsidir ki, "Ağa Musa Nağıyevin xeyriyyəçilik və ictimai fəaliyyəti" mövzusunda elmi iş üzərində çalışır.
Bir heçə kitabların müəllifi olan Dilarə xanım Nağıyevaya ictimai fəaliyyətində və yaradıcılıq yollarında müvəffəqiyyətlər, nailiyyətlər və uğurlu yollar arzulayıram. Onun üzündəki təbəssümün heç vaxt çəkilməməsini, sağlam ruhun təcəssümçüsü olmağını və ən azı ona 100 il yaşamağını arzulayıram.

Gülümsər üzündə səhər açılır,
Nurani simadan nurlar saçılır.
Səninlə təmasda olan insanlar,
Saf xasiyyətindən çox razı qalır.

Sadə danışırsan, sadə dinirsən,
Hamını özünə doğma bilirsən.
İmkanın olandan, imkansızlara,
Xeyriyyəçi kimi kömək edirsən.

Harda tədbir olsa, gedirsən ora,
Paylar aparırsan getsən sən hara.
Qocalar evinə, internatlara,
Uşaq evindəki o fidanlara.

Təbəssüm üzündən əskik olmasın,
Yaz ətirli çöhrən heç vaxt solmasın.
Zirvələrdə görək Vətən qızını,
Milyonçu Nağıyev davamçısını!

Yazıçı – jurnalist Maral Əliqızı
2010 il

## Sönmüş bir ocağın işığısan

Qadın olsa igid - ər,
Qayalarda çiçək bitər.

Azərbaycan qadını tarixən gözəlliyi ilə deyil, mərdliyi, mübarizliyi ilə tanınıb. Bir əli nənni yüyrüyü tutub, bir əli işdə- gücdə olub. Vətənin dar günündə isə ərənlərdən geri qalmayaraq, at çapıb, qılınc oynadıb, yurdu düşməndən qoruyub. At çapan, qılınc oynadan, yağıya qan udduran Cəlahiyyələrimiz, Həcərlərimiz, Banu Çiçəklərimiz bu gün də var.

Bizim Dilarə xanım da mənalı bir ömür yaşayıb. Yüksək əxlaqi keyfiyyətlərilə həyatda ön sıralarda öz yerini tutmuş neft milyonçusu Ağa Musa Nağıyevin nəvəsi və varisidir.

Dilarə xaım (əzizim, canım) zəngin mənəviyyata və geniş ürəyə malikdir. Tanışlığımızın ilk günündən istər ailədə, istərsə də cəmiyyətdə gözəl insanlıq keyfiyyətləri ilə başqalarından seçildiyinin şahidi olmuşam.

Hər yerdə hörmətlə qarşılanır. Dilarə xanım yurd, vətən sevgisini qəlbində uca tutan, bu torpaqla nəfəs alan bir vətəndaşdır. Vətənin daşı olmağa çalışır. Vətən onun dünəni, bu günü, sabahıdır.

Dilarə Ağamusa – babasının adını daşıyan "Milli Dəyərlərin Qorunması" ictimai birliyin sədridir.

Prezident təqaüdçüsü, AMEA-nın Tarix institutunun dissertantı olan Dilarə Ağamusa, Bakının əski milyonçularının həyat və yaradıcılığını öyrənməklə bərabər, xeyirxah əməllərini təbliğ etməklə yanaşı onların xatirəsini əbədiləşdirməyə çalışır.

Onun əsas məqsədi xalqının milli – mənəvi dəyərlərinin, milli meyarlarının, adət və ənənələrinin qorunmasına və xeyriyyəçilik əməllərinin aşılanmasına yardımçı olmaqdır.

O, hər zaman vurğulayır ki, qanunlarımızın aliliyini, milli dəyərlərimizi qorumalıyıq və ona sahib şıxacağımıza əməli işimizlə cavab verməliyik.

Sömüş bir ocağa
Sönməz işıqsan.
Qəlbinin işığını

Çox evlərə salmısan.
Qoyma bu işıq sönə,
Qoyma, Dilarə bacım!

Vətənini, millətini ürəkdən sevən bacım Dilarə Ağamusaya tutduğu bu çətin yolda uğurlar arzulayan:

“Yenilməz Xalq” qəzetinin redaktoru
publisist-şairə Mərcan Şahbuzlu.
Sentyabr 2010.

## F ə r ə c   Na ğ ı y e v i n
## həyat   yolundan   kiçik  epizod

Teatr aləminin ilk səhifələrini vərəqləyərək, incəsənətin sahələrini aşılayan Fərəc, ailəsi ilə birlikdə uzun illər Azərbaycanın rayonlarında və ölkədən kənarda köçkün-qaçqın həyatı keçirib.
Həyat yoldaşı Zəhra xanım ilə birlikdə addımlayıb bu yolları. Zəhra xanım heç bir çətinlikdən qorxmayaraq, hər bir şəraitsizliyə dözüb, beş övladı ilə birlikdə atamın arxasınca getmişdir.
Onun yaradıcılığı və keçdiyi sənət yolu haqqında bütün sənədlər Dövlət Ədəbiyyat və İncəsənət arxivində 475 saylı fondda saxlanılır.
Fərəcin “Qaravəlli” afişasının üzərində çəkdiyi Kos-Kosanın geyiminə verdiyi göy, qırmızı və yaşıl rənglər – onun vətənprvərliyindən xəbər verməklə bərabər, kolleksiyasında yeni bir səhifəninin açılmasına səbəb oldu. Bu səhifə onun arzularının həyata keçməsinin, qarşısına qoyduğu məqsədinin bəhrəsi idi.
Onun yazdığı satirik şeirlərində (200-ə qədər ) dövrün və eləcə də hakimiyyətin onu narahat etdiyiaşkarca hiss olunur.
Xalq yaradıcılıq evinin direktoru ona müraciətində: -Yoldaş Nağıyev Fərəc, ürəkdən təbrik edib, bu yönümdə işinizi daha da ciddiləşdirib, “Qaravəlli” teatrının inkişafina yönəltməyinizi tövsiyyə edirəm- sözlərini yazmışdır.
Azərbaycanın ilk Xalq artisti, pofessor Hacıağa Abbasov isə Xalq yaradıcılıq evinin – Qaravəlli Xalq teatrı adını alması münasibətilə təbrik məktubunda yazmışdı:

“Mənim dərs verdiyim ilk tələbələrimdən biri olan Fərəc Nağıyevin belə bir teatr yaratmasına sevinirəm. Hələ rejissorluq fakultəsində təhsil alarkən, F.Nağıyevin savadı məni heyran etmişdi. Onun fitri istedadı və bacarığı hamını heyrətə salırdı. Sevinirəm ki, o, məhz mənim tələbəm olub. Gələcək nəsil üçün nümunə olmağını arzulayıram”.
Bütün bunları, eləcə də atamın incəsənətdə və bütövlükdə teatr sənətində qoyduğu izləri nəzərdən keçirərkən, etdiklərinə ürək ağrısı ilə nəzər salıb: -52 ildən artıq ömrünü incəsənətə fəda verən incəsənət işçisinin adının heç bir yerdə çəkilməməsi məni çox narahat edir.
Onun qarşısında bir məqsəd olub: - Orta Asiya və Dağıstanda, eləcə də geridə qalmış rayonlarda mədəniyyətin, ələlxüsus incəsənətin inkişafı üçün əlindən gələni etsin.
Şəki, Salyan, Quba, Əli Bayramlı, Neftçala və başqa rayonlarda tamaşalar hazırlayarkən, rejissor, aktyor, bədii rəhbər, dekorator və afişa tərtibatçısı olmaqla bərabər, atam paralel olaraq kolxozlarda və sovxozlarda konsertlərin təşkil olunmasını da unutmurdu. Atam özünü incəsənətin statisti adlandırırdı. Mən isə onu incəsənətin fanatı adlandırıram və əminəm ki, səhv etməmişəm.
Onun Səhnə mədəniyyətində “Danışıq janrı”nın da inkişaf etməsində böyük rolu olub.
1929-1952-ci illərdə - qarşısına çıxan bütün çətinliklərə sinə gərə bilib, incəsənətin inkişafında əməyini əsirgəməyib. Sözün əsl mənasında gecəsini-gündüzünə qatıb atam.
Mən Dərbənddə - dünyaya göz açanda üç gün süd yemədiyimdən, həkimlər öləcəyimi qət ediblər. Gətirdiyi Dağıstan balından dodağıma sürtməyi xahiş edən atamın arzusunu həkim ümidsiz yerinə yetirir. Beləcə Dağıstan balı məni həyata qaytarır. Mən sözün əsl mənasında kəfəni yırtmışam. Bugünkü “şücaətimi” görən bacım Solmaz (eləcə də mərhum qardaşım Rauf ) deyir: -Dilarə, nə yaxşı ki, ölməmisən. Bütün bunları həyata keçirmək, həyatda babamıza və atamıza “ikinci” nəfəs vermək ancaq sənin bacarığın sayəsində ola bilərdi.
Ağa Musa babamın və Fərəc atamın (Nağıyevlər) tale yükləri eyni olub. Belə ki, Ağa Musa hamballıq edib, milyonlara sahib olub və ehtiyacı olanlara çörək, savad verib, xeyriyyəçilik edib, amma sonradan unudulub.
Fərəc isə 15 yaşından səhnədə fəhləlikdən fəaliyyət göstərib, sənətkarları aşkar edib, yazıb, yaradıb və bütün bunların müqabilində uzun müddət kölgədə qalıb.
Ona Fərəc adını verməklə Ağa Musa - sanki onun tale xəttini cızmışdı.

Fərəc adının bir mənası: “Allah işinə fərəc versin”; bir də – “xeyir dua vermək” deməkdir.
Görünür sənət yolunda yeni cığırlar salmaq onun adı və taleyi olub.
O vaxtlar Fərəcin heç ağlına da gəlməzdi ki, milyonlarla hesablanan var-dövlətin yeganə varisi olsa da, bu mirasdan ona bir qəpik də çatmayacaq.
Sibirə sürgün edilmək təhlükəsi ilə üzləşməmək, keçmiş NKVD-nin gözündən yayınmaq üçün Türkmənistanda, Aşqabadda, Dağıstanda, daha sonralar isə Azərbaycanın ucqar rayonlarında məskunlaşmalı olacaq. 12 il nişanlı qaldığı mavi gözlü Zəhra xanımla evlənəndən az keçmiş həyatın bütün keşməkeşli yollarında onunla birlikdə addımlayacaq.
“Satirikon” teatrının yaradılması ilə demək olar ki. Fərəcin aktyorluq fəaliyyətinin təməli qoyulur.
Fərəc Şərqdə yaradılan və SSRİ Xalq artisti Şövkət Məmmədovanın rəhbərlik etdiyi Teatr texnikumunun “Aktyorluq” və “Rejissorluq” fakultələrini bitirir. Sonradan onun rejissorluq fəaliyyətində Azərbaycanın Xalq Artisti Hacıağa Abbasovun böyük rolu olacaq.
Totalitar rejim Fərəcə iki dəfə 1938-1943-cü illərdə NKVD-nin zirzəmisində adına gəlmiş vərəsəlik pullarını guya “yetimxanalara bağışlanması” məsləhət görülüb atdığı imzadan sonra neçə on illiklər susmasına səbəb olur. Hər dəfə Fərəc Allah -Təalaya şükr edir ki, ailəsindən ayrılmadan – ondan əl çəkirlər.
Şamaxıdakı dəhşətli zəlzələdən sonra Aşqabada xeyli insan axını olmuşdu. Tale Fərəci də Aşqabada gətirib çıxarır. Burada “Türkmən-Musiqili Komediya” teatrı yaratmaq ona nəsib olur.
Dənizin o tayına belə işləməyə getməyə can atan Fərəcin yalnız bir fikri var idi –Bakıdan nə qədər mümükünsə, uzaq olmaq.
Bütün bunlara səbəb NKVD-nin yerli şöbəsində qeydiyyatdan keçmək, miras haqqında müxtəlif sorğu-suallara cavab vermək oldu.
O, artıq belə “iş rejimindən” yaxa qurtarmağı qərara almışdı.
Hər yerdə olduğu kimi Aşqabadda da yeni işinə köhnə bir binada, demək olar ki, sıfırdan başlayır.
Qısa bir zaman içərisində Fərəcin çalışdığı kollektiv Türkmən və Azərbaycan dillərini bilən tamaşaçı auditoriyasını teatra cəlb edə bilir.
Çox sonradan Nuxa (indiki Şəki) Dram teatrında işləyərkən o, artıq yetkin, formalaşmış bir kollektiv yaratmışdı.
Fərəc soyadına görə hətta Bakıda yaşayış yerindən də məhrum olmuşdur.

Böyük çətinliklə də olsa, o, 1952-ci ildə Bakıya qayıda bilmiş və bir otaqlı məzil əldə etmişdir.
1952-ci ildə Fərəcə xəbər gəlir ki, vaxtı ilə ona məxsus olan mülkün (indiki Ş.Əzizbəyov 28) axırıncı otağı da müsadirə edilir. Fərəc uzun və gərgin danışıqlardan sonra yeddi nəfər ailə üzvləri ilə birgə (artıq onun 5 övladı var idi) həmin binanın 18 kv.m sahəsi olan birotaqlı mənzilində yaşamaq hüququ əldə edir.
Məhz Bakıda bir çox illər qədim xalq bayramı olan "Qaravəlli" meydan oyununun tam ortaya çıxmasına çalışır. Bu tamaşa onun uşaqlıq xatirələrinin röyaları idi, yuxuları idi.
Novruz bayramının ssenarisinin yazılması, səhnə kostyumlarının eskizlərinin və eləcə də afişaların hazırlanması, donların tikilməsi Fərəcin əməyi sayəsində ərsəyə gəlir.
Bakıda və eləcə də Respyblikada Fərəc Nağı kimi tanınmış aktyor – rejissor, ilk neft milyonçusu, neftin banisi Ağa Musa Nağıyevin yeganə vərəsəsi olub.
"Tənqid - təbliğ" teatrında həvəskar aktyor kimi incəsənət sahəsində fəaliyyətə başlamış, 1928-ci ilədək bir sıra "Xalq teatrlarında" işləmiş, sonradan "Səyyar kəndli" teatrında baş rolların iştirakçısı olmuşdur.
Sabirabad Dram teatrının yaranmasına böyük əmək sərf etmuşdir.
Orta Asiyada və Dağıstan Respublikasında, eləcə də Azərbaycanın ucqar rayonlarında : Salyan, Nuxa, (indiki Şəki) və Sabirabadda teatrların təşkilində, aktyorların püxtələşməsində, tamaşaların quruluşçu rejissoru və tərtibatçısı kimi atamın böyük əməyi vardır.
Nağıyev soyadı onu hər zaman təqib etdiyindən, Fərəcin yaradıcılığı kölgədə qalmışdır.
Bütün bunların canlı şahidi – Quranın ilk tərcüməçisi, görkəmli alim Əli Fəhmi, Şəhriyar kimi şəxsiyyətlə birgə döyüşən, məhz bu səbəbdən sonralar Vətəndən didərgin düşmüş Məhəmməd Biriyadır. Ona sözün əsl mənasında qardaşlıq edən respublikanın əməkdar artistləri:
Hacı Məmməd Qafqazlı və Əlihüseyn Qafarlı olub.
Atam üzügülər, zarafatcıl, dostu qardaş qədər yaxın bilən olub.
Azərbaycanda ilk qarmon və piano ifaçısı, böyük bir nəslin nümayəndəsi olan Ruxsarə xanım Mirzəbəyova da onun dostlarından idi. Atam gözəl səsə də malik idi. O, ölüm yatağında ikən, Ruxsarə xanımdan pianoda "Leyli və Məcnun"dan bir parça çalmasını xahiş etmiş və yanıqlı – yanıqlı oxumuşdu .
O, bizdən ayrılacağını duyurdu.
İndi bunlar yada düşdükcə, düşünürəm ki, röyalarda yaşamışam.

Atam sağ olsaydı, onun çoxşaxəli keyfiyyətlərini qiymətləndirən mütləq tapılardı.
Çünki sözün əsl mənasında o, fitri istedada malik bir insan olub.
Masabəyi, müğənni, rejissor, aktyor, rəssam, ədəbi hissə müdiri, bədii rəhbər, gülüş ustası, bir sözlə teatr sahəsindəki bacarığını sadalamaqla bitməyən istedada malik olub atam.
Gözəl rəqs edirdi. Qonaqlıqlarda oynadığı "Qoçəli" rəqsini özünə məxsus bir məharətlə ifa edirdi. Üzünün cizgilərinə qədər rəqsə uyğun dəyişməsi onun rola girdiyinin sübutu idi. Onu Azərbaycanın Esambayevi adlandırmaq olardı.
O vaxtlar onun sənətinə mətbuat vasitəsilə belə qiymət verilmişdi:
"Fərəc əminin sevinməyə ixtiyarı var. Ssenari müəllifi, maskalar, məzhəkəli kupletlər – bütün bunlar – onun qəlbidir, zəhmətinin bəhrəsidir, bilik və təcrübəsidir, bütövlükdə - ürəyidir."
Bütün bunların işığı onun üzündə əksini tapırdı.
Taleyi belə olub Fərəcin. İşıq üzü görməyən sənət ömrü. Sənət yolunda şəhid etsə də özünü.
Sovetin dövründə yaşa görə təqaüdə çıxmaq məcburiyyətində qalan Xalq artisti Əli Zeynalov televiziya ilə çıxışında demişdi:
"Əgər teatrda qalsam, mənə ikinci dərəcəli rol, yəni ya paltarasan, ya da qapıçı rolunu oynamaq təklif olunacaq. Ürək ağrısı ilə olsa da, teatrdan getməyim məsləhətdir. Çünki mən tamaşaçıların qəlbində Kral Lir kimi qalmaq istəyirəm".
Atam çox çətin bir dövrdə yaşayıb yaradıb. Lakin yaşayıb yaratdığı dövr nə qədər çətin olsa da, o, əqidəsindən heç vaxt dönməyib. Kapitalist damğası, soyadın sürgünü olmaq ona nə qədər maneçiliklər törətsə də, onu sevənlərin və ailəsinin qəlbində buraxdığı dərin izlər bu gün də görünür.
Sevinirəm ki, atamın yaradıcılığı ikinci ömrünü Dövlət ədəbiyyat və incəsənət arxivində yaşayır.
İlbəil onun vətənpərvərlik hissləri artırdı. Buna onun şeirlərində və tərtib etdiyi afişalarda rast gəlmək olur.
Həyatda uduşu gözəl, qeyrətli həyat yoldaşı və beş övladı olub.
Bir də ki, böyük ürəyi ilə özünə çoxlu dost qazanıb.

## FƏRƏCİN YARADICILIĞINA KİÇİK EKSKURSİYA...

( Soyadının əsiri, sənət fədaisi )

Atam heç vaxt düşündüyünü bizimlə bölüşməzdi. Çox-çox sonralar başa düşdüm ki, bu uzun illər soyadının sürgünü olmasından irəli gəlirdi.

Uşaqlıq illəri çox xoşbəxt və firavan keçsə də, gəncliyinin şirinliyini dadmadı.

Ailəmizə xələl gəlməsin deyə, Ağa Əlini Çəmbərəkənd qəbiristanlığında qardaşı Ağa Musanın yanında dəfn etmək fikrindən vaz keçməyə məcbur olduğunu söyləyərdi.

Atamın vəfatından 37 il keçir. O, həmişə deyərdi ki, insan ömrünə oldu – öldü kəlmələri qərar verir.

Mən bir övlad kimi qətiyyətlə deyirəm ki, Fərəc yaşadığı həyat tərzinə uyğunlaşa bilmədi və Ağa Musa Nağıyev kimi ömrünü 70 yaşında sona vurdu.

Arzuları çox idi. Vaxtı ilə Ağa Musa 100 bina tikdirəcəyini qarşısına məqsəd qoysa da, 98-ni tikdirə bildi.

Fərəc isə məskunlaşdığı şəhər və rayonlarda ömrünü teatrların təşkilinə və təbliğinə həsr etdi. Unudulmuş "Qaravəlli" xalq meydan oyunlarına yeni nəfəs verdi.

Uşaq ikən gördüyü küçə oyunları, meydan rəqsləri heç vaxt gözü önündən getmirdi. Uşaqlıq illərinin xatirələrini yenidən canlandırmağın onun üçün nə qədər əhəmiyyətli olduğunu sonralar anam Zəhra xanım dönə-dönə danışardı.

Atamın anamla sevgi macarası anam 4 yaşında ikən başlamışdı.

Bu onun həyatda çaldığı ən böyük qələbə idi.

Atam xəstə yatarkən, "Yeddi oğul istərəm" filminin çəkiliş qrupu, Novruz bayramında niyyət axşamı səhnəsinin hazırlanması üçün onunla məsləhətləşib, "Qaravəlli"dən istifadə etmişdir.

Artıq 1970 –ci ildə Fərəc Nağıyevin əməyi və təşəbbüsü sayəsində Xalq yaradıcılıq evi "Qaravəlli" adlanır. O, incəsənətin universalı olub, qurub – yaradanı olduğu kimi fəhləsi də olub. O, nail olduğu ixtisasa əsasən rejissor, aktyor, rəssam kimi fəaliyyəti ilə işlədiyi teatrlarda dərin iz buraxmışdır.

Çox heyfslənirəm ki, bu sözlər kiçik hərflərlə yazılır...

Bütün bunlarla yanaşı Lütfiyar İmanov, Qulu Əsgərov, Zeynəb Dostəliyeva, K.Atayev, S.Əliyeva, Rubaba Muradova, Əsgər Şoqi kimi sənətkarların yetişməsində onun xüsusi rolu olmuşdur.

Fərəc vəfat etməmişdən yaradıcılığına nəzər salıb, az iş gördüyünü düşünərək, əzab çəkirdi.

O, yaşa dolduğunu belə izah edirdi: "Dünya cavanlaşır, biz isə qocalırıq. Yaşamaq həvəsi isə nə qocalır, nə də ölür."

Qocalıqdan şikayət edənlərə zarafatla deyirdi: "Adam var ki, qocaldıqca ipək olur, adam var ki, qocaldıqca köpək olur."

Düşünürəm ki, atam bu dövrdə yaşasaydı, bütün mükafatlara (Qran prilərə) sahib olardı.
Öz – özünə yetişən, özünə imkanlar yaradan Fərəc Nağıyev sənətinin kölgədə qalmasına səbəb məhz “kapitalist” damğası olmuşdu.
Elə bu səbəbdən idi ki, o, 23 ildən çox Bakı üzünə həsrət qalmışdı.
Ömrünü yuxarıda qeyd etdiyim ucqar, əlçatmaz, müasirlikdən uzaq rayonlarda, Orta Asiyada və Dağıstanda teatr sənətinə sərf etmişdir.
Düşünürəm ki, əgər Ağa Musa Nağıyev əvvəldən Fərəcin belə çətinliklərə düşəcəyini duysaydı, çox güman ki, onu vərəsə elan etməzdi.
Amma çətinliklərlə üzləşən Fərəc Nağıyev, soyadı və nəsli ilə hər zaman fəxr edib.
Azərbaycan Dövlət arxiv idarəsində 475 saylı fondda F.Nağıyevin satirik şeirləri, “Qaravəlli” və “Spartak” tamaşalarına yazdığı ssenariləri öz yerini tapmışdır.
Təvəzökarlıqdan kənar olsa da, onun şeirlərini oxuyarkən, hərdən düşünürəm ki, bu atamın şeirləridir, yoxsa M.Ə.Sabirin?
Atamın etdiklərini, onun ömür səhifələrini vərəqlədikcə, düşünürəm...

Əllərini ver mənə, uzat mənə əllərini,
Uzat, tuta bilim soyuq, zərif əllərini.
Ver mənə əllərini isidim,
İsti nəfəsimlə isidim.
Uzat mənə əllərini, Ata!
Uzat ki, ürəyimin həsrət oduyla isidim əllərini.
Ver mənə əllərini dartım, qopardım səni əzrayılın əlindən...
Uzat mənə əllərini, övlad qayğısından yorulmayan,
Saçlarıma sığal çəkən əllərini.
Uzat mənə əllərini, Ata!
Çəkim, çıxarım səni qaranlıq məzardan.Çıxarım...
Bir vaxt sən mənə deyərdin: ”Əlini ver mənə”.
Qaytarmaq istəyirəm sənə övlad borcumu,
Ata! Ver mənə əllərini.
Ata ürəyinin hərarəti ilə isinən əllərini ver mənə!
Əllərini verə biləydin mənə.
Əlindən üzülən əllərim tək qalıb.
Tək! Yetim qalıb əllərim.
Yetim qalan əllərim sığınıb bir-birinə
Ver mənə əllərini! Ver!

Şeirin müəllifi – Gülarə Munis

## Teatr atamın bu günü, sabahı, gələcəyi olub
(əbədi həyat - əbədi sənət)

Deyirlər ki, sənətkar dünya ilə vidalaşdıqdan sonra da sənəti yaşamaqda davam edir.
Amansız xəstəlik 1973–cü ildə onu haqq dünyasına qovuşdurdu.
O, yaşadığı dövrdə incəsənətə, ələlxüsus teatr sənətinə çox töhfələr verdi.
1903–cü ilin dekabrında Ağa Əli Nağıyevin ailəsində Əliəsgər adlı bir uşaq dünyaya gəldi.
Qızı Ümmül Banunu və oğlu İsmayılı erkən itirən xeyriyyəçi, mesenat, Nağıyevlər soyadının parlaq nümayəndəsi Ağa Musa, qardaşı Ağa Əlidən yeni doğulmuş uşağı hədiyyə istəyir və adını dəyişib, kədərdən sonra gələn sevinc- mənasını daşıyan Fərəc qoyur.
O vaxtlar balaca Fərəc heç təsəvvürünə belə gətirməzdi ki, Ağa Musanın vərəsəsi olmaqla, ömrü boyu kimlərdənsə qaçıb gizlənməyə məcbur olacaq və onun mirasından bir qəpiyin belə sahibi olmayacaq.
İncəsənət ilə maraqlanan 18 yaşlı gənc, gələcəkdə həyatını bütövlükdə teatr sənətinə həsr edəcəyinə qərar verir.
Məhz bu səbəbdən Fərəc respublikada savadsızlıq hökm sürdüyü bir dövrdə teatr texnikumunun aktyor və rejissor, eləcə də təsviri incəsənətin rəssamlıq ixtisaslarına yiyələnir.
30 yaşında o, artıq bu ixtisasları mükəmməl mənimsəyir və bu sahədə püxtələşir.
On iki yaşından nişanlanan Fərəc nişanlısı zümrüd gözlü Zəhra xanımla 1928-ci ildə ailə qurur. Tez bir zamanda Fərəc həyat yoldaşı ilə birlikdə Bakını tərk edərək, Orta Asiyanın, Dağıstanın şəhərlərini və Azərbaycanın rayonlarını qarış-qarış gəzib dolaşır. Nağıyev soyadlı “kapitalizmin qaçaq varisinin” acı taleyini mətanətlə paylaşır.
Beləcə Fərəc teatr sənətinin ən cəfakeş təbliğatçısına çevrilir və uzun müddət – 29 il ailəsi ilə birgə bu ömrü yaşamağa məcbur olur.
Elə bu səbəbdən onun övladları müxtəlif şəhər və rayonlarda dünyaya göz açmışlar. Belə ki, 1934-cü ildə Aşqabad Dram teatrında çalışdığı zaman üçüncü övladı - Ağa Əli, 1938-ci ildə Nuxada – dördüncü övladı Çingiz, 1940-cı ildə isə Dərbənddə ailənin son beşiyi – Dilarə dünyaya göz açıb.
Sənətdə ilk addımlarını “Satirikon” teatrında atan Fərəc, Milli teatrın tamaşalarında baş rolların ifaçısına çevrilir. “Səyyar kəndli” və“Türk işçi” teatrlarında çalışır.
Azərbaycanın ucqar rayonlarında: Quba, Sabirabad, Neftçala və Salyan teatr sənətinin inkişafında mühüm rol oynamış Fərəc Nağıyev, 1938-1940 -cı illərdə Dərbənd Dram teatrının təməl daşını qoyanlardan olub.

Teatrın direktoru olmaqla bərabər, baş rejissor və bədii rəhbər vəzifələrini də icra etmişdir.
Bununla yanaşı Fərəc işlədiyi teatrlarda afişaların və proqramın tərtibatı ilə də məşğul olub.
Çalışdığı məkandan asılı olmayaraq o, hər yerdə özünü ilk növbədə aktyor, rejissor, rəssam və nəhayət sənətinin əlaçısı kimi göstərə bilib.
1923-cü ildən o, artıq rejissor kimi fəaliyyət göstərir.
"Qanlı səhra", "Qana-qan" tamaşalarında isə özünü istedadlı rəssam kimi də göstərə bilir.
Şaiyələrdən, söz-söhbətdən, hədə-qorxudan uzaq olmağa, Sibirə sürgündən qorunmaq məqsədini güdən Fərəc Nağıyev yaşayış yerini tez-tez dəyişməli olur.
Hətta 1938-1943-cü illərdə o, vaxtı ilə Ağa Musa Nağıyev tərəfindən İsveçrə bankına qoyulmuş hesabdan gələn mirasdan imtina etmək məcburiyyətində də qalır.
Burada qeyd olunan məlumatlar ilk baxışda bəlkə də sadə görünə bilər, lakin belə taleyin ağrı və acısını yalnız onu yaşayaraq başa düşmək olar.
Fərəc qarşısına çıxan bütün çətinliklərə sinə gərən, yorulmadan yaradıcılıqla məşğul olan insan olub.
Ona Fərəc adı verən Ağa Musa, sanki onun həyat trayektoriyasını cızmışdı. Bu adın bir mənası da xeyir – duadır. Uzaq yola çıxanlara: "Allah işinə Fərəc versin deyirlər". Görünür elə buna görə idi ki, Fərəc incəsənət yollarında yeni cığırları açmaqdan usanmırdı. Həyatının ən böyük sevinci də onun yaradıcılığı ilə bağlı olub.
Amma bu yolda o tək deyildi, bütün haqsızlıqlara onunla birlikdə ömür gün yoldaşı Zəhra xanım da məruz qalıb. Lakin çətinliklərə baxmayaraq, yaradıcı insanın arxasınca gedib, ona arxa olmağa çalışıb.
Fərəc Nağıyev "Yuriy", "Qazı", "Allah adamı və yoxsul" hekayələrinin, "Utanıram", "Meyxana", "Ehtiyatlı ol!"və "Seçim" kimi intermediyaların müəllifi olub.
O, Azərbaycan estradasında danışıq janrında çıxış edən aktyorlardan birincisi olub.
Uzun illər onun diqqətini vaxtı ilə küçələrdə səhnələşdirilən, artıq yaddaşlardan silinən, xalq yaradıcılığına aid olan "Qaravəlli" meydan oyunu cəlb edirdi. Fərəc gənc yaşlarında ikən "Qaravəlli"nin 70 səhifəlik ssenarisini yazsa da, aşkara çıxara bilməyir. Əlbəttə bunun səbəbi soyadı olub.
Çox illər sonra SSRİ-də incəsənətin bütün sahələrini istiqamətləndirən Mərkəzi Komitənin manelərinə baxmayaraq, Fərəc Nağıyev "Qaravəlli"

ssenarisini nəhayət ki, 1969-cu ildə öz səyi nəticəsində təsdiq etdirməyə nail olur və çox böyük həvəslə tamaşanın proqramının hazırlanmasına başlayır. Afişaları, dəvətnamələri tərtib edib, tamaşada Kos-Kosa rolunu da ifa etmişdir.
“Qaravəlli” afişası atamın həyat albomunun son şəkli, ömür kitabının isə yeni bir səhifəsi, gerçəkləşmiş arzusunun rəmzi oldu. Dram teatrının baş rejissoru Adil İskəndərovun təklifi ilə “Xırs quldurbasan” tamaşasına satirik şeirlə yazdığı proloq və epiloqda Fərəc Nağıyevin yaşadığı dövrün qayda – qanunlarından narazılığı hiss olunurdu.
1968-1969 cu illərdə Fərəc Nağıyevin təşəbbüsü və böyük səyi nəticəsində “Qaravəlli” Milli teatrı yaradılmış və o, bu teatrın direktoru təyin olunmuşdur. (Burada əmrin surəti olmalıdır)
Fərəc Nağıyev “Şeyx Sənan”, “Küləklər şəhəri”, “Evliykən subay”, “Yuriy” tamaşalarında baş rollarda çıxış etmiş, “Od gəlini”, “Hacı Qara” pyeslərinin rejissoru olmuşdur.
Atam qocalmaqdan heç vaxt qorxmayıb. O, qocalığı bir həqiqət kimi qəbul edib deyirdi ki, “Dünya cavanalaşır, biz yaşlanırıq. Yaşanmış ömür isə nə qocalır, nə də ölür. Qocalıq insana yaraşıq verən yaş dövrüdür”.
Bir də o xatirələrində yazır: “Həyat axarının mənası iki məhfumdan ibarətdir – doğum və ölüm. Həyatı zənginləşdirən insandır. Həyatdan gedəndən sonra başqaları onu xatirələrdə yaşadır... Amma necə? Bax, elə əsas məsələ də budur!

## Qaravəlli tamaşası haqqında

(atamın xatirələrindən)

Qaravəlli qədim oyun və mərasimlərin, məcazi mənada – teatrvari (alleqorik) tamaşaların məişətləşmiş bir formasıdır.
Qaravəlli sözü qara camaat – yəni kənd əhlinə daha çox yaxın mənasında işlədilirdi.

Hətta bu gün də hər hansı bir şəxs məzəli əhvalat və yaxud hadisə danışırsa, kənardan “bu lap qaravəlli oldu ”, yaxud da “bu başdan ayağa lap qaravəllidir ki,” sözlərini eşidirik.
Yəni gülməli, məzəli əhvalatları qaravəlli təşkil edirdi. Bu haqda materialların az olmasına baxmayaraq, bu bir xalq teatrı idi.
Bu teatr xalqın yaşayışı idi. Belə ki, teatr xalqın yaıayış tərzindən, ictimai – mədəni məişətindən, ehtiyacından yaranıb, inkişaf etmişdi. Ulu babalardan irs qalmış təsviri incəsənət arxivində, dastan və nağıllarda “Qaravəlli” teatrının əsası gözə çarpmaqla bərabər, nəzəri prinsiplərə də rast gəlmək olurdu.
“Qaravəlli”- Azərbaycan xalqının milli meydan oyunları tamaşası deməkdir.
Bu tamaşalar : Novruz bayramı (Kevsəc), Qışa hazırlıq (Mehrican), Məhsul bayramı və sair bu kimi mərasimlərdə nümayiş etdirilirdi.
Tamaşaların iştirakçıları məclislərdə (teatrda) lazım olacaq libas və əşyalarını hərə öz heybəsinə (çantasına) yığıb, oba -oba, kənd - kənd, eləcə də qəsəbə- qəsəbə gəzər, insanların yaşayış yerlərinə yaxın məkanları müəyyən etdikdən sonra gəlişlərini camaata bildirmək məqsədilə təlxəklər Kosa və Keçəl ulağın (eşşəyin) üstünə minib, küçə və bazarda car çəkib, tamaşanın vaxtını və məkanını bildirib, camaatı tamaşaya dəvət edərdilər.
Tamaşanın keçiriləcəyi yerdə ertədən oyunbazlar (iştirakçılar) hazırlıq işləri ilə məşğul olardılar.
Adətən səhnələr karvansaralarda və yaxud meydançalarda keçirilərdi.
Əgər belə tamaşalar düşərgədə və yaxud karvansarayda keçirilirdisə, səhnə su hovuzlarının üstündə taxta döşəmələrdən estrada səhnəsinə bənzər hazırlanırdı.
Düzəldilən səhnənin arxasında biri – birindən 4-5 metr aralı dirəklər basdırılıb, onları kəndirlə birləşdirib, üzərinə palaz və yaxud həsir sərib, gərdək (arakəsmələr) düzəldib, dirəklərin sağ və sol tərəfində oyunbazların səhnəyə daxil olub çıxmaları üçün əlvan parçalardan pərdələr asılardı.
Arakəsmələrin sağ və sol tərəflərində adam boyundan bir az hündür üç ayaq nazik dirəklər qoyulardı ki, bunların da üstünə ağac, çəmən, ev və saray təsvir edilmiş rəsmlər asılardı.
Hər iki tərəfdə olan üçbucaqların üstündə səhnəni işıqlandırmaq üçün çıraqlar qurulardı. Səhnənin qarşısında oturacaq üçün sağ və sol tərəfdə döşəkçələr və kətillər düzülərdi.

Qədim xalq meydan oyunları formalaından biri olan “Qaravəlli” tamaşaları xalq məzhəkələrinin inkişafi ilə bağlı olub. Belə tamaşaların nümunələrindən biri olan “Kosa- Gəlin” məclisi ər və arvad münasibətlərini əks etdirən dramatik tipli bir komediyadır.
Azərbaycan xalq yaradıcılığının parlaq nümunəsi olan ”Qaravəlli” teatrı romantik xüsusiyyət daşıdığı kimi demokratik təbəqələrin başlıca olaraq kənd həyatı və məişətlə bağlı olan xüsusiyyət daşıyıb.
Teatrın repertuarına əxlaq və tərbiyəvi əhəmiyyəti olan xırda həcmli pyeslər daxil edilirdi. Tamaşa zamanı satira o qədər şiddətlənirdi ki, hətta bu acı bir kinayəyə çevrilib, ictimai əxlaq qüsurlarını qamçılayırdı.
“Qaravəlli” teatrı üçün nəzərdə tutulan məzhəkə və dastanların məzmunları müxtəlif olduğuna görə tamaşa zamanı günün vacib, siyasi və ictimai hadisələri haqqında oyunbazların ağzından yeni xəbərlər də eşidirdilər.
Xalq tərəfindən sevilə - sevilə qəbul olunan tamaşalarla yanaşı aşiqanə və qəhrəmanlıq dastanları təsvir edən məclisləri də teatrın repertuarına daxil edilirdi. Bütün bunlar tamaşacılar tərəfindən böyük rəğbətlə qarşılanırdı.
Təəssüf ki, sayca çox olan xalq dram əsərlərinin yazılı surətləri bizə gəlib çatmamışdır.
Bunlar ancaq xalqın hafizəsində yaşayaraq, ağızdan – ağıza gəzərək, nəsildən - nəsilə çatdırılaraq, zəmanəmizə qədər gəlib çıxa bilmişdir.

Tamaşa belə başlanır:
Meydan babası deyir: Tamaşaya başlamaq olar!
Bu işarəni verdikdən sonra ilk növbədə tamaşada iştirak edəcək oyunbazlar meydana daxil olaraq, meydanın sağında və solunda qoyulmuş oturacaqlara əyləşirlər.
Tamaşanı müşayiət edəcək musiqiçilər tamaşanın başlanğıcında dastan məclislərində baş rolu ifa edəcək aşıqlar isə səhnənin qarşısında qoyulmuş kürsülərdə əyləşirlər.
Sonra qara və tünd əlvan rəngli parçadan paltar geymiş Qaravaş - səhnəyə lazım olacaq əşyaları qoymaq üçün daxil olur.
Tamaşa başlanmamışdan əvvəl oyun meydançasını işıqlandırmaq məqsədilə üçbucaqların üstündə qurulmuş çıraqları yandırmaq və eləcə də tamaşanın sonunda onları söndürmək də Qaravaşın öhdəsinə düşürdü.
Qaravaş səhnəni işıqlandırdıqdan sonra musiqi sədaları altında səhnəyə daxil olan Keçəl (Meş), Kosa (Meşardı) – təlxəklər nağara çalırlar.

Musiqi susduğu zaman, Keçəl yenidən nağara çalıb, əli sazlı aşığı səhnəyə dəvət edir.
Aşıq tamaşaçıları salamladıqdan sonra söz salıb, ustadını tərifləyirdi.
Tamaşada iştirak edən Keçəl surəti yoxsul, nikbin, əməkçi kütləni təmsil edirdi. Kosa isə müəyyən qədər varlı, xırda peşəkar, hər şeydə az da olsa qazanc məqsədi güdən bir surətdir.
Keçəl və Kosa "Qaravəlli" teatrının məfkurəsini, daxili mahiyyətini özündə təcəssüm edən əsas surətlər sayılırdı.
Kecəl dastan məclislərində və başqa məzhəkələrdə surətin özünəməxsus üzlük (maska) taxardı.
Diribaş, bacarıqlı komediant Kosa məzhəkə məclislərində və dastanlarda şeytan, dərviş ya da küpəgirən qarı surətlərini ifa etdiyi zaman gülünc, eybəcər üzlüklər taxıb, yeri gəldikdə şeir deyər, qəzəl və ya mahnının sözlərini oxuyardı.
Hər iki hoqqabazlar məclis zamanı iştirak edəcək oyunbazları səhnəyə dəvət etddikləri zaman onların təmsil edəcəkləri şəxsiyyətlər haqqında tamaşaçılara izahat verirdilər.
Hər bir məclisin və ya tamaşanın sonunda ikinci tamaşanın başlanğıcınadək olan fasilə zamanı Qaravəlli meydan oyunları teatrının başqa iştirakçıları: kəndirbaz, gözbağlıca, rəqqas , lirik şeir və meyxana deyənlər öz məharətlərini göstərib, tamaşaçıları əyləndirərdilər.
Azərbaycanın Milli Meydan oyunları "Qaravəlli" belə olub.
1968 il.

## "QARAVƏLLİ"
## xalq teatrının yaranması

Fərəc Nağıyev 1969-cu ildə "Qaravəlli" xalq meydan oyununun dirçəlişinə nail olub.
Mərkəzi Komitənin katibi Şıxəli Qurbanovun göstərişinə əsasən Bahar bayramı – Novruz bayramı şənlikləri keçirilərkən məhz meydan oyununa müraciət etməsi, Fərəcin bu sahədə aktivləşməsinə səbəb oldu.
Əsas məqsəd – meydan oyununun işıq üzü görməsi üçün Mərkəzi Komltənin razılığı idi.
Belə bir çətin işi Fərəc öz üzərinə götürür.

Yazdığı 70 səhifəlik ssenaridə o, məzhəkəli şeirlərdən, tarixi hadisələrdən, Novruz bayramı ənənəvi oyunlarından istifadə edib, keçmişimizin milli mentalitetini yada salıb.
Xatirələrində yazır ki, belə məqamları yada saldıqca, uşaqlıq illərini xatırlayıb, inqilabdan əvvəl məhərrəmlikdə imam təziyələri günlərində keçirilən "Şəbeh" meydan oyunları yenidən gözüm önündə canlanırdı. "Müslümün öldürülməsi", "Kərbəla aşura hadisələri", "İmam övladlarının Şamə əsir aparılması", Yezidin məclisi" və bir çox gördüyü tamaşalar kino lenti kimi gözü önündə təkrarlanır və özünü bir zaman "Şəbeh" tamaşasında oynadığı Müslümün oğlu rolunda görürdü.
Hər dəfə ev şəraitində keçirilən şənliklərdə, "Qaravəlli" oynanılan məclislərdə lotu Məmmədəli və onun övladları lotu İsmayıl və Hacı Məmməd, bacısı oğlu aşıq İbrahimin surəti gözünün önündən getmirdi.
Fərəc "Qaravəlli" tamaşasının ilk baxışını keçirərkən, meydan oyunlarının cəlbedici olması üçün hazırladığı "Dəvətnamə"yə belə bir elan vermişdi (əlyazmasından) :
-Qaravəlli - XIX əsrin ortalarına qədər yalnız Xalq yaradıcılığı kimi el bayramlarında, dini mərasimlərdə, ibtidai tərzdə, Mirzə Fətəli dühası ilə isə müstəqil sənət səviyyəsinə yüksəldilmiş yeni bir janr kimi təşəkkül tapmışdır.
Nümayiş ediləcək "Qaravəlli" oyunlarının məramnaməsində xüsusi qeydlərə yol verilmişdi:
Oyun babası - rolunun ifaçısı, mətnin müəllifi Fərəc Nağı.
Oyunda kara gələn əşyalar, ev müxəllifatlari, əsləhə və hadisələrin məkanını göstərən lövhələr müəllif tərəfindən hazırlanmışdır.
Dirçəlmiş "Qaravəlli"yə xeyir-dua verən Azərbaycan səhnəsinin veteranı, Respublikanın ilk Xalq artisti, professor Hacağa Abbasov Xalq Yaradıcılıq evinə belə bir müraciət etmişdir:
"Sizin Yaradıcılıq evi Xalq meydan oyunları teatrının - "Qaravəlli" nin əsaslanmasını qərara alıb. Sevinirəm ki, bu işi mənim tələbəm, rejissorluq fakultəsini əla qiymətlərlə bitirən, hər zaman gənc nəslin yetişməsində qüvvəsini əsirgəməyən, sənətə xeyir gətirən – istedadlı tələbəm Fərəc Nağiyev həyata keçirib".
Sonradan atamın xatirələrində incəsənət xadimi, professor Kazım Ziya onun haqqında :
"Fərəc Nağıyev nadir yaradıcılıq xüsusiyyətinə malik olub, hər zaman gənc nəslin yetişməsinə həvəs göstərir. O, mənim rəhbərlik etdiyim "Satiragit Tənqid- Təbliğ" teatrında hələ sənət aləminə gəlməzdən əvvəl

fəhləlikdən işə başlamışdır. Artıq çoxdandır ki, Fərəc səhnəmizin statistinə çevrilmişdir. Məhz bu həvəs onu daima axtarışlar aparmağa vadar edir" - demişdir.
1969 –cu ildə Bakı İcra Hakimiyyətinin 17 oktyabr tarixli 15 – 306 saylı qərarına əsasən: -Mədəni xidmət üsulunu gücləndirmək məqsədilə "Qaravəlli" teatrı yaradılır və Xalq Yaradıcılıq evinə "Qaravəlli" adı verilir.
Atamın xatirələrində rast gəldiyim bu qərarın üzərində müdüriyyət belə bir dərkənar qoyulmuşdu:
Yoldaş Nağıyev Fərəc, Sizi təbrik edib, "Qaravəlli" teatrının işini daha da möhkəmləndirməyi tövsiyyə edirəm.

## Ağa Musa Nağıyev adına təşkilat yarandı

Ağa Musa Nağıyevin simasında Azərbaycan xalqının tarixi yaddaşı olan neft milyonçularının adlarını və tarixi haqqını bərpa etmək cəhdlərində müəyyən uğurlar qazanmışam.
2004-cü ildən yaratdığım fond "Mesenat" adı ilə fəaliyyət göstərib.
Uzun illər Ağa Musa Nağıyevin etdiklərinin kölgədə qalması ilə bağlı olaraq, gördüyü ictimai işlərini işıqlandırdıqca, keçdiyi həyat yolunun cığırları məni məcbur etdi ki, təşkilatın adını dəyişim.
2009-cu ildən etibarən təşkilat - Ağa Musa Nağıyev adına "Milli Dəyərlərin Qorunması" (MDQ) İctimai Birliy kimi fəaliyyət göstərir.
Oğlu İsmayılın xatirəsinə həsr etdiyi "İsmailiyyə" binasında keçirilən tədbirlərdə əsasənAğa Musa Nağıyevin tikdirdiyi binaların məkanının araşdırılması ilə yanaşı ictimai fəaliyyətinin və həyat səhifələrinin oxunması nəzərdə tutulur.
"MDQ" İB ümumi maraqlar əsasında birləşmiş, könüllülük, üzvlərinin hüquq bərabərliyi prinsipləri əsasında yaranan, fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan qeyri hökumət təşkilatıdır.
Təşkilatın fəaliyyətinin əsas məqsədi – xalqımızın milli mənəvi dəyərlərinin, adət və ənənələrinin öyrənilməsi və xeyriyyəçilik ənənələrini dirçəlişini həyata keçirməkdir.

Məqsədimiz əski Bakı milyonçularının həyat və yaradıcılığını öyrənməklə bərabər xeyirxah əməllərini təbliğ etmək, xatirələrini əbədiləşdirməkdir.
Təşkilatın hər bir üzvü milli mənəvi dəyərlərimizi, adət - ənənələrimizi öyrənməklə bərabər bu yönümdə təbliğatı gücləndirmək, xeyriyyəçilik ənənələrini aşılayaraq inkişaf etdirməyi qarçısına məqsəd qoyur.
Təşkilatın ən əsas prınsiplərindən biri neft sənayesinin tarixini, inkişaf perspektivlərini öyrənib, onu təbliğ etməkdir.
Gələcəkdə gənc nəslin təhsil problemlərilə məşğul olmaq, müasir biliklərə, müxtəlif dillərə yiyələnməsinə yardımçı olmaq da təşkilatın əsas şərtlərindən biridir.
Yaradıcı şəxslərin aşkar edilməsi, fəaliyyətlərinə həsr edilmiş tədbirlərin həyata keçirilməsi əsas məqsədlərdən biri olacaq.
Şəhid ailələrinin, qaçqın və məcburi köçkünlərin problərini hər zaman nəzərdə saxlamaq da təşkilatın iş planında öz yerini tutur.
Qadın hüquqlarını müdafiə etməklə bərabər onların cəmiyyətdə ictimai fəallığının həyata keçirilməsi məqsədilə müxtəlif sosioloji sorğular keçirmək, monitorinqlərin təşkili əsas planlardan biridir.
Təşkilatın məqsəd və vəzifə madddəsinin yerinə yetirilməsində bu gün keçirilən hər hansı bir tədbir çox əhəmiyyətlidir.

## “Divan”a divan tutuldu

Yaradıcı insanların fəaliyyətini işıqlandırmaq məqsədilə tutulub bu sahədə C.Cabbarlı kitabxanasında keçirilən ilk tədbir şairə-publisist Gülarə Munisin yaradıcılığına həsr olundu.
Onunla neçə illərdir ki, bizim dostluğumuz davam edir. Sual edəndə ki, qardaşın kimdir? Cavabı bu olur ki, bilmirəm, yol getməmişəm.
Demək olar ki, bu illərdə biz yolda çox olmuşuq. Ailədə və cəmiyyətdə tutduğu mövqeindən xəbərliyəm. Elə bu səbəbdəndir ki, Təşkilatın birinci tədbirini onun yaradıcılığına həsr etməyə qərar verdim.

Buzovna qəsəbəsində dünyaya göz açan Gülarə xanım 12-13 yaşlarından seir yazarkən, bu hissləri yaşamaq ona çətinlik yaradırdı. Görünür uşaq və şeir – bunun məğzini duymaq ona qəribə gəlirdi. Çox güman ki, dövrün sıxıntısı, rejim, istedadının aşkara çıxmasına mane olurdu. Sonradan Gülarə xanımın yaradıcılıq xüsusiyyətlərini aşkarlaşdıqca fəaliyyəti üzə çıxdı.

Məktəb illərində yaşıdlarından fərqli olaraq, yuxarı siniflərdə hərbi dərslərdə göstərdiyi fədakarlığa görə balaca Gülarə general-mayor Akim Abbasov tərəfindən”Fəxri Fərman”la təltif edilib.
Gülarə Munis yalnız 1988-ci ildə -35 yaşında dövri mətbuata publisist yazıları və şeirləri ilə oxucuların görüşünə gəlir.
Ömrünün xəzana qovuşan məqamlarında özündən sonra nə isə qoyub getmək fikri onu heç vaxt rahat buraxmırdı. Yazdıqları doğma dilində olduğuna sevinən şairə şeirlərində yad sözlər işlətməməsi ilə təsəlli tapır. O, deyir: “Yad sözə meyl etsəm söz gülüm solar, bu doğma dilimə xəyanət olar”.
Beləcə onun şeir kitablarının sayı artır. Amma indi onu düşündürən başqa arzu idi: “Sərildi qəlbimə arzu toxumu, ürəyim qanıyla suvardı tumu” - deyən Gülarə Munisin, Divan başlamaq arzusu qəlbinə hakim kəsilmişdi..
Klassik ədəbiyyatın incisi sayılan qəzəl yazıb, “Divan” adlandırdığı kitabı ədəbi aləmdə nəzərə çarpan bir hadisə kimi qarşılandı.
Gülarə Munis uşaq ədəbiyyatına da müraciət edib. İllərlə nənə və babalarımızdan danışdıqları nağılların sonunda eşitdiyimiz – “göydən üç alma düşdü” – deyimi, onun nağıllarında “göydən şar, daraq, noğul, bənövşə gəlir yerə” kimi əks olunur.
Kiçik Musanın (o, Ağa Musa Nağıyevi nəzərdə tutur) zəhməti hesabına milyonçuya çevrildikdən sonra xalqı və doğma vətəni üçün nələr etdiyini düşündürəcək “Ayağı qabarlı oğlan”ın nağılı - uşaqların marağına səbəb oldu.
Başqa nağıllarında da o, uşaqlara vətəni, doğma torpağı sevdirməyə çalışır.
Müəllifin “Bənövşə yağışı” mənsur şeirlər kitabının redaktoru Əlirza Xələfli yazır:
“Yanıqlı adam dodaqlarını bulağa söykəyəndə ayrılmaq bilmədiyi kimi gözlərim ayrılmırdı “Bənövşə yağışı”ndan”. O, Munisi klassik ədəbiyyatın çox işlənən obrazı adlandırır. Munis söz güllərinin arasında özünə doğma olanları elə incəliklə dərib dəstə bağlayır ki, çəməndəkini əzməsin. Çünki hələ bu çəmənə o, çox qayıdacaq.
Gülarə Munis şeirlərində poeziyanın süd rəngli çaları var.
Hətta onun bütün poetik nəsri də sanki ağappaq rəngə bürünüb. Onu tanıyanlar danışığında, səsində və sözündə də bir ağlıq, təmizlik hiss edir.
Onun ağ rəngdə görünən yolu Tanrı odasına, öz odasına doğru yönəlir. Ruhundan, mənəviyyatından keçib onu çağıran bu səsə doğru gedir.

Gülarə Munis ilahi sehr və hikmətlə sahibləndiyi əruzun qayda – qanunlarını qoruyaraq, qəzəlin müqəddəsliyinə təzim edərək, Füzuli sevgisinin yolu ilə gedəcəyinə inanır.

**P.S.** Tədbirin təşkilatçısı olaraq mən və eləcə də Gülarə Munis "Milli dəyərlərimizə olan diqqət, qayğıya və ədəbi mühit ilə sıx əlaqəyə görə - "Şairə Məhsəti Gəncəvi" ictimai birliyin sədri Hacıxanım Fəridə Ləmanın Fəxri Diplomu ilə;
"Kitab evi" ictimai birliyin sədri Hacı xanım Salatın Əhmədlinin "Vətən naminə" Diplomu ilə təltif edildik.

**Nurəngiz xanım "gün" ün aydın!**
(çox illər dostluq əlaqələrimizə həsr edirəm)

Azərbaycan hələ XIX əsrdən qadın şairələri ilə fəxr edib. Nurəngiz Gün bu günümüzün, müasir Azərbaycan poeziyasının dəyərli nümayəndəsidir.

Bunu dərk etmək üçün onun yaradıcılığı ilə tanışlıq yetər.
Ağa Musa Nağıyev adına "Milli Dəyərlərin Qorunması" təşkilatının yaradıcısı olaraq, ilk tədbiri şairə, publisist, yazıçı, şeirlərini yazarkən bəstəkara çevrilən, kövrək qəlbli Nurəngiz Günə həsr etdiyimdən bu gün də qürur duyuram.
Onun mənа daşıyan gözlərindən nələr oxumadım...
Ağa Musanın vaxtilə oğlu İsmayılın xatirəsinə tikdirdiyi "İsmailiyyə" - ( indiki AMEA) binasında Nurəngiz Günün yaradıcılığına həsr olunmuş tədbir böyük ajiotaj yaratdı.

Nurəngiz Gün əsli nəcabəti olan bir nəslin ocağında dünyaya göz açıb.
Ana babası ziyalı, dövrünün məşhur həkimi, görkəmli dramaturq Hüseyn Cavidin yaxın doctu Mirzə Ələkbər Əfəndi Hacızadə 1937-ci ildə "pantürkist" damğasının qurbanı olub. Nurəngiz Gün 1960-1974-cü illərdə Azərbaycan Dövlət Televiziya Komitəsində diktor kimi əmək

fəaliyyətinə balayıb. Onun gözəlliyi, səsinin məlahəti, sözləri düzgün tələffüs etməsi hər zaman tamaşaçı marağına səbəb olub .

1979-1974-cü illərdə Dövlət İncəsənət Universitetində "Səhnə danışığı" kafedrasında fəaliyyət göstərməsi onun müəllimlik istedadını aşkar edir.

Nurəngiz Gün ədəbiyyata ilk qədəmlərini 1981-ci ildə "Tanrı povesti" ilə qoyub. Artıq 30 ilə yaxındır ki, o, "Ağ qanadlar", "Salamat ol", "Ağca yol",
"Qar roman" poemaları, "Ədəbi - əsrarəngiz" silsilə sonetləri, yüzlərlə şeiri, sayı hesaba gəlməyən povest və hekayələri, publisist yazıları ilə oxucuların qarşısında daima hesabat verir.

Onun yaradıcılığı haqda Türkiyənin mətbuatında yazılar dərc olunub.
Şeirləri Azərbaycan oxucuları tərəfindən olduğu kimi, Estoniya, Özbəkistan, İran, İraq oxucuları tərəfindən də sevilir. Bunun nəticəsidir ki, Nurənciz Günün yaradıcılığı "Humay" mükafatına layiq görülüb.

Nurəngiz Gün hər zaman deyir: - Şöhrətdən qaçanam. Şeirlərim oxunursa – bu mənim səsimdir. Yaxşıya yaxşı toxunarsa, bəsimdir. Nurəngiz Gün getdiyi bu ömür qatarında enişli – yoxuşlu, kollu – koslu yollarda daima təmizlik, düzlük, saflıq, məhəbbət axtarışındadır.

Onun "Xocalı simfoniyası" poeması dünyaya Azərbaycandan bir mesaj oldu.
Poemanı oxuduqca insan ürək ağrısı ilə bir hiss keçirir.
Müəllif "Xocalı simfoniyası" ilə bütün dünyaya Xocalı soyqırımını tanıtmağa çalışıb və buna nail olub. Üç dildə səslənən poemanın ekran üzü görməsi buna bariz nümunədir.

Nurəngiz Günün başqalarından fərqli olaraq, özünəməxsus iç dünyası var.
O məni: "Yek Ağa Musamızın bir danəsi" adlandırır. Sevgili Dilarəm deyir! Axı biz uşaqlıqdan dostuq. Bu qırılmaz dostluq tellərini babalarımızın və atalarımızın eyni taleləri möhkəmlətmişdir. Soyadının sürgünü olan, kapitalist damğası altında əzilən, amma sarsılmayan Nağıyevlərə XXI əsrdə yeni nəfəs verdiyimi hər zaman dəstəkləyənlərdən birincisidir Nurəngiz Gün.

Nurəngiz xanımın içində qeyri-adi bir istedad var. O, qeyri-adi ifadə tərzinə, təfəkkür biçiminə görə fərqlidir. O, bir işıq daşıyıcısıdır. O,"Nur"dur.
Mən onu hər zaman 60-cı illərdəki kimi görürəm.

...Dilimizin şirin sözüdür – filankəsin gözü nəlbəki boydadır. Elə bu gözlər minlərlə tamaşaçını və o cümlədən məni də valeh etmişdi 1960-cı illərdə. Yeganə kanal olan Azərbaycan Dövlət televiziyası ilə verilişin başlamasını hər birimiz səbirsizliklə gözləyirdik. Budur, ağ - qara rəngli televizor ekranında saat 18 – də poqramı aparacaq diktor, gözəllər gözəli, ala gözlü, badamı qaşları olan, ilahidən gələn və özünəməxsus bir səs hər gün :

“Salam. Verilişlərimizə başlayırıq” - deyəndə - evlərdə hamı susacaq. Susacaqlar ona görə ki, onun həzin səsini və dediyi kəlmələri qavraya bilsinlər.

Amma çaşanlar da olurdu. Gah səsinə fikir verib sözləri eşitməyən, gah da səsinə qulaq asıb, gözəlliyini izləyə bilməyən.

Beləcə çox – çox illər cəsarətlə sözünü deyə bilən bir mələkdən, Allah - Təala heç nəyi əsirgəməmişdi. Əsrarəngiz və aydın səsi də ilahi ona pay vermişdi. Onu tanımayanlara, yerişindən, duruşundan bixəbər olanlara mən qıcıq verirdim ki, bəli, mən onu yaxından tanıyıram.

Sözü gedən bu xanım sonradan qəlb oxuyan şairəyə çevrildi. Sevimlimiz oldu. Elimizin, obamızın, hər birimizin məhəbbətinə çevrildi.

Artıq ana olan Nurəngiz Quliyeva ikiyə bölünürdü. Övlad böyüdüb, tərbiyə etmək, ailənin xidmətində durmaqla yanaşı indi Nurəngiz Günü ilham pərisi rahat buraxmırdı. Elə bu hisslər illərlə içində saxladığı istedadın, ədəbi və bədii düşüncələrin gerçəkləşməsinə səbəb oldu.

Bu gün geniş yaradıcılıq təfəkkürünə malik olan qadın obrazı deyəndə Nurəngiz Gün dayanır qarşımızda. Bir xanıməfəndi!

Daxili aləminə qapanıb gözəl əsərlər yaradan bir azəri xanımı. Nurəngiz Gün qısa bir zaman çərçivəsində xüsusi ifadə tərzi və yaşıdlarından fərqli olan təfəkkürünə görə ədəbiyyat aləmində öz yerini tuta bildi. Əsərlərinin birində Nurəngiz xanım oxucularına belə bir mesaj göndərib:

“... ruhunuza aramsız bir nəğmə oxuyuram. Bu nəğmənin öz ahəngi, öz vüsatı var. Mənim susqun, naçar balalarım! Mənalı və duyğulu bir müraciət!

İndi məqamıdır, soruram – Səni oxumamaq, Səni sevməmək, Səni duymamaq olarmı – bizlərin Fatiməsi, Zoluşkası, Kozettası?

Sevgidən, istəkdən, dəbdən yazan Nurəngiz Gündən Qarabağ savaşı yan keçmədi. “Xocalı simfoniyasi” nı yazmaqla millətinin, məmləkətinin başına gətirilən dəhşətlərin, analoqu olmayan soyqırımın, bir ananın timsalında bütün dünyaya, gerçəkliyi görməyə bir çağırış

oldu. Bu Nurəngiz xanımın Xocalı soyqırımına ananın dilindən səslənən bir ağıdır. O, bu əsəri ilə xalqımızın məruz qaldığı soyqırımı bütün dünyaya çatdırdı. Sanki Xocalı ağısı ilə yaralanmış qəlbindən axıb gələn göz yaşları içərisində Xocalısına laylay çalır.

Nurəngiz xanım haqqını tələb edə biləcək bir işıq daşıyıcısı olsa da, zaman- zaman başının üstünü qara buludlar alsa da, onları dağıda bilib. Çünki o Nurdan yaranıb! Özü dediyi kimi obrazlarında hər zaman özünü görür. Axı o, həyat məktəbi keçib.

Nurlu xanım bu gün də obrazları ilə birgədir. Onu başa düşüb, qəbul edənlərin hər biri özünü xoşbəxt saya bilər.

Günümüzün Nuru, Çırağı! Nəğmə kimi oxunub, yaddaqalan yazdıqların, səadətə həsrət ürəyinə, titrək dodaqlarının, yorğun ayaqlarının şərəfinə oxunur!

Uşaqlığımıza qayıdıb, keçmişləri varaqlayıb, sənə mesaj göndərirəm: Görəcəyin işlər, kağız üzərinə səpəcəyin toxumlar hələ çoxdur, ata və babalarımızın ruhunu şad edib,onları yaşatmaq durur qarşımızda. Axı onlar inanırdılar ki, Gün gələcək, Nur doğacaq, həyat canlanacaq!

Gözünün ağı- qarası olan övladın Jalə - baharın, yeganə nəvən Müjgan - yazın, payızın- qışın isə qoy sənin olsun !... Çünki qış aydınlıqdır, ümiddir. Uğurlar olsun!

Soyadının sürgünü olan, kapitalist damğası altında əzilən, amma sarsılmayan, XXI əsrdə Nağıyevlərə yeni nəfəs verən bəndəniz
Hacıxanım Dilarə Ağamusa!
"Azad Azərbaycan" qəzeti
26.09.2010 il

**P.S.** Nurəngiz Gün yaradıcılığına həsr etdiyim tədbir "İsmailiyyə" binasında möhtəşəm bir ahənglə keçirildi. Təşkilatın adından Nurəngiz xanıma "Ünvan" verildi.

## *"İncəsənətdə keçən ömür"*

(Çox hörmətli Nailə xanıma həsr edilib)

Miniatyur kitab muzeyində Nailə Rəhimbəylinin "İncəsənətdə keçən ömür" adlı miniatyur kitabının təqdimatı keçirilirdi.

Zərifə xanım Salahovanın rəhbərlik etdiyi bu muzeydə o günü gözəl abu hava hiss olunurdu.
Kitab - Azərbaycan teatr mədəniyyətində silinməz iz qoymuş ictimai xadim Şəmsi Bədəlbəylinin yaşadığı ömür yoluna həsr edilmişdir.
Müəllif Nailə Rəhimbəyli nitq söyləyərkən, bir anlığa düşündüm ki, bu qadın istedaddır.
Dəvətlilər içərisində müxtəlif səfirliyin nümayəndələri olduğundan, Zərifə xanım müəllifdən qısaca da olsa, öncə söylədiyi nitqini rus dilində iştirakçılara çatdırmasını xahiş edəndə, hamı kimi mən də nəfəsimi dərmədən ona qulaq asırdım. Düşünürdüm ki, əyər belə etməsəm, hansı kəlməni isə eşitmərəm.
Nailə xanımın Şəmsi Bədəlbəyli haqda hər iki dildə söylədiyi fikri elə bil əzbərdən oxuyurdu. Şəmsi Bədəlbəyli haqda bildiklərimin çox az olduğunu başa düşdüm bu tədbirdə. Görkəmli Şəmsi Bədəlbəyli şəxsiyyətinin böyüklüyünü, incəsənət vurğunu olan xadimin əksini gördüm.
Nailə xanımın kitabda və eləcə də çıxışında bu böyük insanın yaradıcılıq fəaliyyətinə elmi qiymət verdiyinin şahidi oldum.
Opera və operetta janrında bir çox səhnə əsərlırinin yeni səhnə həyatını Şəmsi Bədəldəylinin tamaşalarında görmək orta nəslin nümayəndələrinə nəsib olub. Deməli, düşünmək olar ki, üzümüzə “Bədəlbəyli” xoşbəxtliyi sıçrayıb. Çünki onun yaradıcılığında hər iki janr yer tutur. O, fəaliyyəti ilə milli incəsənətimizə xidmət edib.
Şəmsi Bədəlbəylinin rejissorluq fəaliyyətinə gəldikdə, haqqında demək olar ki, iş prosesini onun kimi bilən ikinci rejissor olmayıb və yoxdur.
Nailə xanım bu kiçik kitabında böyük ürəklə Ş.Bədəlbəylinin aktyorluq bacarığını da üzə çıxara bilib. Bu çox da asan iş deyildi. Surətlərin xarakterik cəhətləri, yeni əql, alicənablıq, istedad – bütün bunların ifaçının xarakterinə məxsusluğunu göstərmək bacarığı məhz Nailə xanıma məxsusdur.
Şəmsi Bədəlbəylinin böyük alimlik məktəbini keçdiyini göstərən Nailə xanım, cəmiyyətin gücünü müasirliklə - dövrün qabaqcıl ideyaları və ən yaxşı nəaliyyətləri ilə bağlaya bilməsi - əkdiyi ağacın bəhrəsidir desəm, yanılmaram...
Professor, Teatr Cəmiyyəti İdarə heyətininn sədri, “Dostluq” teatrının yaradıcısı olmaqla, Ş. Bədəlbəylinin Bakını o dövrün ən böyük teatrlar sırasına salmasındakı rolundan danışan Nailə xanım, geniş nitqi ilə bu gün də Şəmsi Bədəlbəylini yüksək kürsüyə qaldıra bildi.

Bədəlbəyli yaradıcılıq diapazonunu geniş tamaşaçı kütləsini əhatə etməklə bərabər, yüksək təşkilatçılıq qabiliyyəti ilə bağlaya bilməsi Nailə - xanımın savadlı, işini sevən, əməyə qiymət verə bilən və ən nəhayət gözəl tədqiqatçı xüsusiyyətinə malik olmasından irəli gəlir.
Hamıya məlumdur ki, teatr sənətində aparıcı yer aktyora verilir. Amma Nailə xanım tamaşanın xüsusiyyətindən asılı olan müxtəlif məsələlərin həllində rejissor imkanlarını göstərməklə Bədəlbəyli bu sahədə də yüksəkliyini göstərməyə nail olub.
Müəllif kitabında Şəmsi Bədəlbəylini – Azərbaycanda müasir Musiqili Komediya Teatrının dirçəlişi və mərhələli inkişafı ilə bağlı olan şəxsiyyət kimi daha aydın göstərib.
Nə böyük qələbə, nə böyük qiymət!
Nailə xanım bu kitabı ərsəyə gətirməklə Şəmsi Bədəlbəylinin mədəniyyətimizdə buraxdığı silinməz izlərini dərinləşdirməklə bərabər, onun musiqili rejissor, ictimai xadim kimi də hazırladığı tamaşaların təkrar edilməzliyini göstərməyə nail olub.
Belə bir şəxsiyyət haqqında fundamental əsər yaratmaqla, Bədəlbəyli ölməzliyinə abidə qoyulub. Kitab Azərbaycan musiqili teatr sənətinin zəngin irsinin öyrənilməsi ilə bərabər, onu saysız-hesabsız oxucu kütləsinə çatacağına bir vasitədir.
"İncəsənətdə keçən ömür" kitabını vərəqlədikcə, Musiqili teatrının banisi olan Şəmsi Bədəlbəylinin simasında - Azərbaycanın milli var-dövlətinin estetik binövrəsini qoyulduğunun şahidi oluruq.
Sevinirəm ki, bütün bunlar röya deyil, həqiqətdir. Özü də Nailə xanımın şəxsiyyətində gördüyüm həqiqət. Bu cürə maraqlı, savadlı natiqlərə çox ehtiyacımız var.
Bu ehtiyacı bizdən əsirgəməyən, yaradıb- yazan müəllif, Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Dosent Nailə Rəhimbəyli ilə öyünməyə haqqımız var!

## Səhnə arxası həyat

(Gülarə Munisin yaradıcılığına həsr edirəm)

Tərcümeyi halını, kitablarını, "Divanını" oxuyub, yazdım...
Gülarə xanım təvəzökarlıq edib deyir ki, adilərin ən adisiyəm. Sadəyəm.

Bəli, Gülarə xanım sadədizr, amma adi deyil. Çünki o,"Divanı" ilə özü də hiss etmədən Heyran xanımı yenidən yaşadıb.
Öz sözü ilə desək, bu yersiz tərif deyil.
Əzizlənmədən qaçsa da, ömür – gün yoldaşının və qədirbilən iki övladına naz etməyi qəbahət hesab etmir.
Yersiz tərifi sevmir. Amma mənim tərifimə hər zaman ehtiyac duyduğunu bilirəm.
Əzilməyinə yol vermir. Ona görə ki, mübariz qadın heç vaxt əzilə bilməz.
Sakit vaxtlarını yaz yağışına bənzədir, əsəbi anlarını təlatümlü dənizə.
O, bilmir ki, özü bir təlatümdur, çünki "Divan" yazmaqla firtına yaradıb.
Allah onu qoruyur. Ürəyinə dəyənlərə toxunmur!
Deyir ki, ona acıyanda xoşu gəlmir. Axı o, "Bənövşə yağışı" kimi qüdrətlidir.
Mənimlə də məsləhətləri olub. Düz deyirlər ki, məsləhətli don gen olar.
Düşünürəm ki, bu səbəbdir onun geniş don geyməyinə.
Əgər özünə ümidi olmasa, sabah açılmaz. Hər sabahın xeyir olsun!
Mehriban, gülərüz Gülarə xanım!
Allahın yolunu tutduğuna görə, çalışsalar da, onu əqidəsindən döndərmək qeyri mümkündür. Çünki o duyğular onun qanındadır.
Heç kimi ürəyinə yaxın buraxmır. Bəs qızın Elnarən - ürəyin deyilmi?

O kərəm sahibinə şamü səhər şükr etdim,
Məni yoxdan yaradıb yer üzünün sultanı
Munisin kimsəsi yoxdur ki, qolundan tutsun,
Qaldırıb əllərini səsləyir o Sübhanı.

"Divan" sənin arzunun zirvəsi – ürəyin deyilmi? Mənsur şeirlərinin mövzusunu həyatdan götürdüyünü vurğulayır.
Gör nə qədər xoşbəxtsən ki, müşahidəçilik istedadın da var. Müşahidələrini sətirlərə düzmək özü bir müdriklikdir.
Adətən qələm əhli payız fəslini sevir. Payızda nə isti olur, nə də soyuq.
Düşünmək üçün vaxt kimi hava da köməyə gəlir. Fikirlər cəmləşən fəsil.
Bu da bir şair zövqüdür. Bu Gülarə xanıma xas olan xüsusiyyətdir.
Dənizlə danışmağı sevir. Ona görə dənizi görmək istəyir. Ləpə adlı qıvrım telləri sahilin alnına töküləndə, dənizi izləməyi sevir. Görmək istəyir dənizi. Gecələr ayla pıçıldaşanda, səhərlər Günəşlə öpüşəndə o, görmək istəyir dənizi. Çox şairanə, çox şahanə!
Gülarə xanım gözüaçıqlığından olduğundan ağlının bəhrələndiyini təsdiqləyir, nəfsinin korluğundan isə razı deyil.

Mən isə əlavə edərdim ki, yaddaş xəyanətindən Allah qorusun onu!
Qeyd edir ki, yazdıqlarında hərə ruhuna yaxın olanı tapır. Ruhunu ovunduran, qəlbinə həmdəm hər kəs özünü tapır.
Gülarə xanım, bil və agah ol ki,"Musasevər" olduğun gündən mənim qəlbimdə məhəbbətinin işığını yandırdın!
Bilirsən ki, mən "Ağa Musa" aşiqiyəm!
Bizi birləşdirən: ailəyə sevgi, övlada məhəbbət, tarixə hörmət, insana qiymət vermək bacarığımız oldu.
Fərəcin - atamın yubileyində mənə həsr etdiyi misralar hər zaman qulağımdadır:

Əllərini ver mənə...Uzat mənə əllərini,
Uzat, tuta bilim soyuq, zərif əllərini.
Ver mənə əllərini isidim.....
Əllərindən üzülən əllərim tək qalıb....
Yetim qalan əllərim bir – birinə sığınıb,
Ver mənə əllərini! Ver!

"İsmailiyyə" böyüklüyündə sarayda tək Gülarə xanım əllərimin soyuqluğunu hiss etdi. Mən də hər zaman duyğularımla baş-başa qalarkən bu sətirləri təkrar-təkrar oxuyub, uşaqlığıma qayıdıram.
Gülarə xanım özü də hiss etmədən belə hadisələrin şahidinə çevrilir. Axı o, dənizi çox sevir! Çünki dəniz şəffaflıqdır, duruluqdur, təmizlikdir.
Düşüncələrinin hər zaman şəffaf olmasını, övlada, ailəyə, insanlara, təbiətə, ələxüsus - dənizə, səmaya qəlbində olan məhəbbətinin heç vaxt tükənməməsini arzulayıram !
Məqalə "Səs" qəzetində
cap edilib. May-2010 il

## "D ü n y a, m ə n i t a n ı d ı n m ı"

(Həcc yoldaşım Azadə xanıma arzularım)

Təşkilatçılığı ilə keçirilən tədbirlərdə görmüşdüm Azadə xanımı. İzləyirdim onun etdiklərini. Qeyri-adi bir şey tapa bilmirdim bu qadında. Adi insan, ictimai qadın. 2006-cı ildə Müqəddəs Həcc ziyarətində o da mənim kimi zəvvar idi. Hərdən həkim özünü çatdıra bilməyən xəstəyə onun göstərdiyi münasibətindən yardımdan həkim olduğunu bildim. Hərəmi təvab edəndə mənə göstərdiyi köməyi bizi çox yaxınlaşdırdı. Müjdəhidədə şeytana atmaq üçün daş yığan zaman bir qadını ölümdən qurtarması Azadə xanımı gözümdə bir daha ucaltdı. Bundan sonrakı görüşlərimizdə nəinki isnişdik, hətta biri-birimiz üçün darıxmağa başladıq.

Onun jurnalistliyinə, şairliyinə, analığına, təşkilatçılığına, eləcə də tədbirlərində yaratdığı əhvalı-ruhiyyəyə ancaq yaxşı mənada qibtə etmək olar. Belə "qibtə" edənlərdən biriyəm.

Allah-Təala bizə bir yerdə Məşhəd və Qum ziyarətlərini də nəsib etdi. "Qardaşın kimdir?" sualına mənim cavabım hazırdır. Çünki mən bir deyil, üç ziyarətdə olmuşam Azadə xanımla.

"Qafqaz Media" İctimai Birliyinin Sədri, 20 kitabın müəllifi Azadə xanımTalehin "Dünya, məni tanıdınmı" - kitabının təqdimatına dəvətli idim.

Azadə xanım haqqında məlumatlı olsam da, kitabı bir də gözdən keçirdim. Xəyallar məni 2006-cı ildə Həcc ziyarətinə apardı. Hələ o zaman onun cəldliyinə, cürətinə, bacarığına və çalışqan olduğuna nəzər yetirmişdim.

Ürəyimə yaman yatmışdı Azadə xanım. Onu da deyim ki, hər adam ilə yol getmək mümkün deyil desəm, yanılmaram. Burada da bəxtim gətirdi. Mədəniyyəti, davranışı və təmiz ürəyinə görə sevdim onu. Və bizim dostluğumuzu Həcc ziyarəti möhkəmləndirdi.

Onun tərcümeyi - halına baş vurduqca, özümü dəryada hiss etdim.

Bu insan, sən demə artıq çox illərdir ki ad gününü qeyd etməkdən imtina edib. Səbəb?

Məni də düşündürdü – amma bu gün təqvimə qara rəqəmlərlə qeyd olunan 26 fevral – bu sualı cavablandırır.

Yazıçılar Birliyinin "Natəvan klubunda" keçiriləcək tədbirə əli boş getmədim. Azadə xanımın yaradıcılığına baş vurub, sözlərdən çələng bağladım. Çünki gül aparmağa cürət etmədim. Deyəsən pis alınmadı:

- Səni dünya tanıyır!

Həkim – şair – jurnalist - hər zaman "qaynar qazanda" qaynayan Azadə Taleh!

O, kardioloq olaraq, insan ürəyinin tədqiqatçısıdır!

Fədakar və xeyriyyəçi olmaqla bərabər, nəcib bir insan!
Artıq çox illərdir ki, Azərbaycanın dövlətçiliyi uğrundakı fəaliyyəti ictimaiyyət tərəfindən bilənliklə qarşılanır.
Yüksək intelektual səviyyəyə malik olan Hacıxanımdır!
Böyüklüyünün mahiyyəti: kimsəsiz valideyn himayəsindən məhrum olmuş uşaqlar və övlad himayəsindən mərhum olmuş valideynlərə hər zaman olan qayğısı əvəzsizdir.
"Dünya, məni tanıdınmı" kitabı ilə dünyanın dərdi – sərinə şərik olub, poeziyadan oxuculara çələng bağışlayıb.
Bütün bunların şahidi olaraq, Azərbaycanın rifahı naminə onun daha artıq xeyir gətirəcəyinə inanıram.
Hacıxanım Azadəyə yaradıcılıq uğurları arzulamaqla, Xocali faciəsindən sonra üstündən xətt çəkdiyi "güllələnmiş ad günü"nü qaytarılmış torpaqlarda, dünyaya yenidən göz açmış kimi, bayram etməyini arzulayıram!
İnşallah Xocalıda görüşənədək!

## Sevgi dolu dünyan var sənin

Xədicə Murad əvvəllər ədəbiyyatçı olmaq fikrində olmasa da, ədəbiyyata uşaq vaxtından meyilli olub. Sədi Şirazinin rübailərindən bəhrələnib, onlardan birini söylədiyi gün atası onu bu yolun yolçusu olacağını qət etmişdi. Ürəyində üsyan etsə də, başqa seçimi olmadı Xədicə xanımın. Çünki bu arzu artıq atasının vəsiyyətinə çevrilmişdi.
Bayatılar isə artıq ayaq açıb yeriməyə başlamışdı. Beləcə öz həyat yolunu, sevgisini, istəyini, ağrı və acılarını bayatıları ilə sərdi səhifələrə Xədicə xanım.
Mən də onu sevənlərdən olub, bayatılarının sehrinə daldım.
....Onu mənə bağlayan nə ildir, nə də ay.
Yalnız bir neçə görüş və böyük ürəyi.
Vuruldum onun uca boyuna, gözəl qamətinə, kül rəngli saçlarına, bir də nurlu simasına.
Aidə Şirinə yubiley gecəsi təşkil etmişdi Rəşid Behbudov adına Mahnı teatrında.

Aidə Şirin haqqında danışarkən o qədər həyacan keçirirdi ki, sanki sözləri sapa düzüb, yadda qalsın deyə hər bir iştirakçının boynuna salmağa çalışırdı.
Fikrim səhnədə olsa da, gözlərim onu izləyirdi.
Tədbir gözəl axarı ilə gedirdi. Mən yalnız onu izləyirdim.
Əgər desəm ki, bir saatın ərzində Xədicə xanım yeddi dəfə yerini dəyişdi, yalan olmaz.
Narahat idi çox. Tədbirə gecikmiş qonaqlarını sevgi ilə qarşılayıb, hər dəfə birinə yerini verirdi.
Gəncədən gələn bir qonağına ön sırada yer qalmamışdı.
Qonaq inciyib, qayıtmaq istəyirdi. Ona yerini verib, onu razı salıncayadək, nələr çəkdiyinin şahidi oldum.
Çünki onu izləyirdim ondan xəbərsiz.
Beləcə hələ yazdıqlarından bixəbər ola-ola onun iç dünyasına daxil oldum.
Respublikanın müxtəlif rayonlarından təşrif gətirən qonağına yer verdi, qonaqlar razı qalsalar da o, yenə narahat idi.
Əlbəttə ki, bu sevgidən irəli gəlir.
Xədicə xanımın xeyriyyəçilik etdiyi tələbələrindən birinin yazdığı kitabın təqdimatını Yazıçılar Birliyində keçirirdi.
O günü bir mənəvi övlad qazandığını vurğuladı.
Hansı sevgilərlə bu tədbiri keçirdiyinin də şahidi oldum.
Zalda oturan tələbələrini göstərib, dedi:
"Bunlar mənim övladlarımdır, bu il təhsillərini başa vuracaqlar.
Onlardan necə ayrılacağımı təsəvvürümə gətirə bilmirəm."
Gözləri yaşardı, mən gördüm, çünki mən onu izləyirdim.
Yaxınlarda səhəttim bir qədər pisləşmişdi dedi. Tələbələrinin göndərdikləri mesajların ona dərmandan artıq kömək olduğunu xüsusi vurğuladı Xədicə xanım.
Onların cavabı: "Xədicə müəllimə, biz sizsiz ölərik" – sözləri hər insan üçün deyilə bilməz. Bu ancaq ona layiq mesajdır. Əlbəttə ki, insan qədrini bilən Xədicə Murada yaraşandır.
Mən yenə onu izləyirdim, ondan xəbərsiz.
Həyacanını, sevincini, dəyərli sözlərdən baş gicəllənməni, bütün bunları gizlətməyə çalışsa da, mən bunları duyurdum.
Artıq qəlbimdə onun xüsusi yeri olduğuna görə. Xanım qız!
Bu da onun iç dünyasıdır!
"Milli dəyərlərin qorunması" İctimai Birliyinin Prezidenti olaraq, ictimai fəaliyyətində yüksək mədəni keyfiyyətlərini nəzərə alaraq, neft

milyonçusu “Ağa Musa Nağıyev” Diplomunu ona təqdim edərkən, Ağa Musa böyüklüyünü, layiq görüldüyü sənədin dəyərini dərk edib, təşəkkürünü bildirdi. Adətən iş bununla bitir.
Amma onun sonradan telefonda söylədikləri: “ Dilarə xanım, məni bu təltifə layiq bilmənizlə zirvələrə qaldırıb, qanadlandırdız. Bu mənim üçün ən dəyərli və istiqamətverici sənəd olacaq. Çünki bunu sizin əlinizdən almışam.”
Deyirlər ki, böyüyün məsləhətinə qulaq asan, heç vaxt uduzmaz.
Xədicə xanımın bütün keyfiyyətləri bunu təsdiqləyir.
İndi mən deyirəm:
Sağ olsun səni dünyaya bəxş edən ana! Xəmirin halalıqla yoğurulub.
Budur əsas. Hər şey hələ qabaqdadır, uğurlar olsun!
Düşünürəm ki, hər işin öz axarıyla gedəcək.
Unutma ki, adın Xanım Xədicədir!

Dekabr 2009 il.

## Nizami Muradoğlu - yubileyin mübarək

Ordubadın Əylisli kəndində dünyaya göz açan Nizami sonuncu və gecikmiş övlad olduğundan, o biri uşaqlarla yaş fərqinin çoxluğuna görə tək böyüyüb ailədə. Görünür bu cəhətdən ata-anasına bağışlaya bildiyi sevincli anlar üçün Allahına şükr edir. Şeir yazmağa kiçik yaşlarından meyilli olub. Hələ az yaşlarından böyüyənədək heç yerdə eşitmədiyi sözlərə və məsəllərə görə hər zaman anasına minnətdar olduğunu söyləyən Nizaminin valideyin sevgisi bir aləmdir.
“Qələmə sədaqətli ola bilməsəm də, qələmim mənə vəfasızlıq etməyib”, deyən Nizami Muradoğlu gözəl şeirləri ilə bu gün könül oxşayır, sevilir.

Nizami Muradoğlunun 55 yaşı tamam olurdu. Tədbir “Divani Hikmət” şeir ocağında keçirilirdi. Belə yerə əli boş getmək adətimiz deyil. Düşündüm ki, vaxt azdır, ona nə hədiyyə edim ki, həm yararlı olsun, həm də xoşagələn. Yazdıqları ilə az da olsa, tanış idim. Çünki tanışlığımız qısa müddətli idi. Amma tədbir zamanı bəlli oldu ki, Nizami Muradoğlunun ailəsi ilə çoxdan tanışam. Sadəcə Nizami mənim üçün yeni səhifə idi. Bu səhifəni vərəqləyib, tədbirə getdim.

Təbrikimi qələmə belə aldım:
Yubileyin mübarək! Əzizim Nizami!

Ailənin sayca 10-cu övladı, sonbeşiyi olduğundan, ata və ana nəvazişini az hiss etmisən.

Savaddan bixəbər olan valideynlərindən, ələlxüsus anandan eşitdiyin "atalar sözü" ədədibiyyata, folklorumuza maraq oyatdı səndə. Ananın söylədiyi - atalar sözü oldu amalın:

Qar yağıb dizə kimi,
Burdan Təbrizə kimi,
Qız, sənə nişan gələr,
Bu il Novruza kimi.

Dövrün ən böyük həyat məktəbi – ictimai fəaliyyətin oldu. Naxçıvan şəhər Komsomol Komitəsinin II, Ordubad rayon Komitəsinin birinci katibi oldun. Bunlar sənini pedoqoji fəaliyyətinin - aldığın ali savadın nəticəsi idi.
Müstəqillik, bütövlük, azadlıq – oldu amalın! Vəzifələrdə çalışmağın buna bariz nümunədir.

Sən xalq hərəkatının ilk başlanğıcından öndə olmağı özünə borc bildin!

Həyatda ən böyük sevincini nəvələrində tapdığını təsdiqləyirsən yazdıqlarında. Yəqin ki, ananın söylədiyi "...Dövlətdə -dəvə, övladda - nəvə" atalar sözü yadındadır. Görünür nəvələr sənə hər problemi unudub, bu məsum körpələrin sevincinə qatılmağına kömək edir.

Nə böyük -səadət, nə böyük – xoşbəxtlik!

Deyirsən ki, sədaqətli olmasam da, qələmim vəfasızlıq etmir mənə. Həmin qələmin ilə mənə - Ağa Musa Nağıyevin nəvəsi olaraq göndərdiyin ismarıc: "... bu yolda apardığım mübarizənin sevinclərinə qoşulmağımı " arzulayaraq, yazdıqların – sədaqətindən irəli gəlmirmi?

Sədaqətlisən, gözəl ailə başçısısan, vəfalı qardaş, səmimi dost, ən əsası misilsiz babasan. Bax, bu ad sənə çox yaraşır.

Ağa Musa!
*Məzarı didərgin, ruhu didərgin,*
*Addan başqa varı, yoxu didərgin.*
*Yığdığı dövlətin çoxu didərgin,*
*Dərdi ağır, neft kralı Ağa Musa.*

*Sənə simic deyir, səndən xəbərsiz,*
*İncidir ruhunu gendən, xəbərsiz.*
*Biz bir yol gedirik öndən xəbərsiz.*
*Kaş biləsən, neft kralı Ağa Musa.*

*Axirət istərdin Kərbəlada sən,*
*Kərbəla zülmünü gördün burda sən.*
*Düz dörd dəfə şəhid oldun yurdda sən*
*Səhid kişi, neft kralı Ağa Musa.*

*Binalar tikdirdin, bitgisi çatmır,*
*Yüzə çatmaq üçün ikisi çatmır.*
*Nəvən Dilarənin yetkisi çatmır,*
*Gəl, hardasan neft kralı Ağa Musa?!*

**Baba Vəziroğlu – bayramın mübarək!**
(Şairin Filarmoniyada keçirilən yaradıcılıq gününə həsr edirəm)

Yazdıqlarından, yaratdıqlarından söz açsam, çox vaxt aparar. Yazsam, vərəq çatmaz.
Bu cəhətdən 100 nəğmən mənim olsun! Baba Vəziroğlu!
Keçdiyin yaradıcılıq yolunun cığırlarına gör nə qədər nəğmələr səpələnib?
Nəğmələrin də anaya, ataya, dosta, yada, arzulara qiymət verir.
Bu gün gündəmdədir! Populyardır! Amma bununla öyünmür.
Qürurludur. Qürur yaraşır ona. Çünki o, Vəziroğludur!
Şeirlərində deyir:

Salam ver mehriban
Həm dosta, həm yada.
İnsan bir xoş sözə
Möhtac dünyada.

Ananın sevgisinin güclü olduğunu izah etməkdə çətinlik çəkdiyini söyləyir. Halal olsun, nər oğul! İbrətamiz oğul!
Sevgidən borc ola bilməz. Sevgiyə can atmaq lazımdır, deyən Baba Vəziroğlu - heç düşünmür ki, ondan bir dənədir.
Çünki gündüzün işığında axtarsan da, onun valideyinləri -Ərkinaz kimi ana, nə də Vəzir kişi kimi bir ata tapmaq olmaz.

Hayıf ki, "qaraqılçaq buğda" kimi, onların da kökü yavaş-yavaş kəsilir. Yuxularına girən – elə bil yol gözləyən, xiffət çəkən ağacı - sanki yaşadığı şəhərə - Bakı səmtini göstərən Vəzir kişiyə oxşadır.
Onun halal süd içdiyinin nəticəsidir bu. Hələ çox yuxular görəcək Baba Vəziroğlu. Çünki yuxular çin olur.
Onun yol göstəriciləri olan ata və anası hər zaman yolunu işıqlandıran çırağıdır deyən şairin valideyin sevgisinin tükənməzliyidir.
Qazandığını xərcləyəndə heç heyifslənmir. Amma itirdiklərini ömrü boyu yaddan çıxara bilmir. Acısını zaman-zaman unuda bilmir.
Ötüb –keçən illəri nağıla bənzədən şair, acı-ağrıları, çətinlikləri unutmaqda çətinlik çəkir.
Həqiqətən onun nəğmələri tarix kitablarının soyuq vərəqlərindən fərqli olaraq günün, ilin isti nəfəsidir. Çünki bunlar Baba Vəziroğlunun yazdığı nəğmələrdir!
Düşünürəm ki, şeiri yazarkən, ürəyi onu artıq nəğməyə çevirir.
Nəğmələrində özün özünki kimidir –Baba Vəziroğlu!
Çan sağlığından əlavə hörmətli şairimə, heç vaxt oxucu və dinləyici axtarışında olmamağını arzulayıram.
Bəlkə də hər birimizin gördüyüdür onun qələmə aldıqları?
Fərq birdir –o ürək ondadır ancaq!

Səni alan dünya,
Sənsiz qalan dünya.
Mənim üçün yalan,
yalan dünya.

23 iyun 2010-cu il.

## Y A Ş A M A Ğ A   A B İ D Ə

Şəhid olmuş həyat yoldaşı –Nazim Cəbrayılov
haqqında yazıb, ruhuna bağışladığım bu xatirəni
hörmət əlaməti olaraq, Rəhilə xanıma ithaf edirəm.

Kitabı oxuyub, təqdimatında iştirak etdikdə böyük həyacan hissləri keçirdim ki, mənim bu qeydlərim və ürəkdən gələn sözlərim görəsən yerini tapacaq?

Rəhillə xanım ilə tanışlığımız 5-6 il olsa da, Nazimin və Rəhilə xanımın böyüklüyündən, mərdliyindən bixəbər idim. Çox heyf.
Adətən mərd qadınlara hər zaman böyük hörmətim və ehtiyacım olub.

Rəhilə xanım! Nazimin mərd ruhu qarşısında, sənin mərdliyin, şücaətin qarşısında baş əyirəm!

Rəhilə xanım şəhid olmuş həyat yoldaşına həsr etdiyi "Ölməzliyə abidə" kitabı ilə onu ürəklərdə yaşatdı. O, bu kitabı ilə özü də bilmədən Nazimə ikinci ömür verdi.
Kitabı oxuduqca Nazimsiz keçirdiyi yollara baxıb, bir anlığa düşünürsən: "Bu qadın deyil, kişidir! Əhsən sənə, Rəhilə xanım!"

Məzarı bütövlükdə Vətən torpağı olan, qəbirüstü abidəsi olmayan, Qarabağ müharibəsində erməni işğalçılarına qarşı qəhrəmanlıqla vuruşaraq, şəhid olmuş Nazim Cəbrayılovun 60 illik yubileyinə ərmağan etdiyi "Ölməzliyə abidə" kitabı ilə ona abidə qurdu Rəhilə xanım.
Müəllifi olduğu bu kitab ilə həyat yoldaşının simasında vətən şəhidlərinin nigaran ruhlarına sözdən ölümsüzlük abidəsi ucaltmağa nail olub desəm, yanılmaram.

Qarabağ çox ailələrə qəm-kədər gətirdi. Onlardan biri də Əlifoğlu İbrahimin oğlu Nazimin cavan, gün görməmiş ailəsi oldu.

Bu yoxluq atası ilə bir tarixdə dünyaya göz açan qızı Fidanın ad gününü təqvimdən ömürlük sildi. 1994-cü il martın 2-də onların son doğum gününü qeyd edəcəkləri heç kimin ağlına da gəlməzdi.

Böyük sevniclə qarşıladığı ad gününü Fidan qızı, 1995-ci il ildən etibarən anım günü kimi qeyd edir. Vaxt var idi bu günü birlikdə toy - bayram edirdilər.
Meydanda tək qaldı xanım Rəhilə!
Nazimi unutmağa qoymadı, sətirlərdə yaşatdı, dərd çəkə bilən ürəyində yaşatdı.
Yaşasaydı, 60 yaşı olacaqdı. Kitabı ilə ona abidə yaratdı Rəhilə xanım.

Yazdıqlarının belə qarşılanacağını bəlkə də düşünmürdü.
Yalnız bir fikir onu narahat edirdi:
Nazimi necə yaşatsın ki, unudulmasın!
Ürəyini boşaldaraq kağız üzərinə səpdiyi toxumlar özünü tutdu.

Rəhilə xanım Nazimin olmayan məzarı üstə abidə qoydu "Ölməzliyə abidə"!
On dörd illik ailə həyatının məktəbi onun üçün ömürlük bir elmi mövzuya çevrildi.

Müdrik kəlamlarda deyildiyi kimi ən gözəl nemət ağıl və sözdür!
Hər iki kəlmənin dərslərini öyrətdi ona Nazim bu qısa zamanda. Döyüşə gedərkən bəlkə də qayıtmayacağını dərk etmişdi.
Ona görə onu bu fəlakəti görəcəyinə hazırlamışdı.
Kitabı hazırlayarkən Nazimsevərləri, həmkarlarını, onunla həmsöhbət olduqlarını arayıb tapan Rəhilə xanım, topladığı xatirələri, faktları toxuma çevirib əkdi.
Becərməsinə böyük əmək sərf etdi, Rəhilə xanım!

Nazim ön cəbhənin, Rəhilə xanım isə arxa cəbhənin əsgəri oldu!
Həyatının çiçəklənən vaxtında yarsız qaldı. Boynuna çox ağır yük düşdü.
İndi o, həm ana, həm də ata idi! Həm tərbiyəçi, həm də yol göstərən.
Bir sözlə, zərif qadın çiyinləri bir anda kobudlaşdı. Dərdi bir, yükü isə çox oldu.

Qarabağ müharibəsində erməni işğalçılarına qarşı qəhrəmanlıqla vuruşaraq şəhid olmuş həyat yoldaşı Nazim haqqında yazdığı "Ölməzliyə abidə" kitabı ilə Vətən şəhidlərinə ölümsüzlüyünə abidə ucaltdı – hörmətli Rəhilə xanım!

Məzarı olmayan bir insan! Nə böyük fəlakət!

Düşmənə qarşı barışmazlığı Nazimə dostları arasında hörmət qazandırdı. Müstəqil Azərbaycanın dövlət mənafeyini müqəddəs tutan Nazimin qəhrəmanlığı nəticəsində komandiri olduğu taqımın əsgərləri mühasirədən xilas ola bildi.

Azərbaycan Dövlət İqtisad Universitetində bir filoloq kimi əcnəbilərə ana dilinin incəliklərini – zənginliyini öyrətməyə çalışan pedaqoq Nazim, elmi iş üzərində çalışmağa da vaxt tapırdı.

1993 - cü ildə Nazim vəzifəyə arxa çevirib, silah götürüb, Vətəni qorumaq üçün döyüşə atıldı. 44 yaşında dünyanın dərdinə qatılıb, qocaldı.

"Cəbrayılovçular öldülər, səngəri tərk etmədilər, çünki arxalarında Vətən idi!!!"

Bu şüar idi onu fədakarlığa çağıran!

Bunun müqabilində ölümün zirvəsi Nazimə mənəvi ölümsüzlük bəxş etdi. Vaxt ötdükcə Rəhilə xanım Nazimlə bağlı xatirələrini varaqlayıb, otaqda asdığı portretini Nazimin özü sanıb, onunla yaşadı bu illəri.

İndi ona həsr etdiyi bu kitabla sanki hesabat verərək, deyirdi: "Sevdiyin oğlun Orxanın adını təxəllüs götürdüm. Çünki onun qanı -qanından, canı -canındandır; Hayıf ki, övladlarımızın ali təhsil alıb,Vətənə sadiq övlad olmalarını görmək sənə nəsib olmadı."

Rəhilə xanım, sənə bəxtəvər dedilər! Bəxtəvər deyən dillərə amin! Bu çox çətinliklə əldə edilmiş bəxtəvərlik idi. Saçlarının ağardığını görənlər, ürəyini görə bilmədilər. Şam kimi yansan da əridiyini görən olmadı. Çünki Nazimsiz yaşadığın müddətdə ürəyin qan ağlasa da, üzün gülüb, övladlarının naminə. Gecələr sızlayıb, səhər onları yola salanda nəvazişini əsirgəməzdin.

Qüdrətli xanım! Vəfalı həyat yoldaşı!

Axı belə etməsəydin, Nazimin ruhu incik düşərdi.

Uşaqlara acıqlananda, Nazim inciyib, deyərdi: " Axı onlar balacadırlar, qırma ürəklərini, Rəhilə "- elə bil öləcəyini duyurdu.

Rəhilə xanımın vərəq üzərinə düzdüyü xatirələri oxuduqca, onun simasında Koroğlunun - Nigarını, Nəbinin - Həcərini, Xanqızı Natəvanı gördüm.

Ürəyim fərəh hissi ilə döyünsə də, qısqanclığım bunları üstələdi.

Bu qadının qəhrəmanlığına, dözümlüyünə, mərdliyinə olan bir qısanclıq idi.

Nazimin şəklinə baxıb deyirsən: -Nəvən Hüseyn hərbi paltardakı şəklini görəndə "Azərbaycan, Azərbaycan" deyir. Deyəsən sənin yolunun davamçısı olacaq. Çünki o, başa düşür ki, əsgər – elə Azərbaycan deməkdir!

Rəhilə xanım! Uca tut başını. Axı Sənin inamın var! Səndə əzm var! Nazimin qəhrəmanlığı bir igidlik dastanıdır. Nazim ölməyib. O, ən uca bir yerdədir. Daima sizləri görür, izləyir. Arxada qalmış ağır – çətin günlərini sən duymadan o, səninlə olub. Axı Sən Nazimin Rəhiləsi olmusan!

Nər kişinin yadigarlarını – üç övladı - ailə başçısız böyütməkdə gücünü göstərməklə, azəri qadınlarına nümunə olub, Cəfər Cabbarlının yeni qadın obrazlarını yaratdı Rəhilə xanım!

Ömürlük əksi Qala divarında həkk olmuş Nazim, sən nə bəxtəvərsən!
Təzə tarixi – köhnə tarixə qovuşdurdu Nazimin əksi.
1949-doğum, 1994-ölüm, bunları ayıran yalnız təkrar olan rəqəmlər arasındakı 45 il fərq.
Lənət sənə, müharibə!

Rəhilə xanım onun yoxluğuna inanmasa da, elə hey deyirdi:
"Mənim narahat Nazimim, rahat yat, olmayan məzarında".
Çünki onun var qüvvəsini sərf edib, Nazimin arzularının reallaşmasına çalışacağına çoxlarında inam var idi.
Hələ körpə ikən: "Ay mənim Fidanım, həkim qızım, xəstələnəndə məni sən müalicə edəcəksən" - deyərdi Nazim.
Rəhilə xanımın əməyi sayəsində belə də oldu. İnanıram ki, Fidan həkimlik diplomunu alanda, Nazim cənnət quşu olub, bunları görüb, sizinlə birgə sevinirdi.
Onun sənə - "Sağ ol, mənim qeyrətli yarım" –dediyini eşitməsən də, hissiyatının səni aldatmadığına inanırdın.

Hələ bu harasıdır?

Atanın yoxluğundan sonra, uşaqlar aralarında mübahisə edirdilər ki, Nazimin adını kim yaşadacaq?
Atanın adını oğul yaşadar, deyirdi Orxan.

Jalə qızın adını yaşatdı! Axı Orxan hələ kiçik idi.
Jalə təhsil müddətində fərqlənərək – elm yollarında mətanətlə irəliləyib, hörmət qazanmaqla da səni yaşatdı.

Bu da bir qələbə! Ata sevgisinin böyüklüyü.
Oğlun Orxan isə ataya olan sevgisini – onun işlədiyi İqtisad Universitetinə daxil olmaqla bir daha təsdiqlədi. Ata ömrünü təhsildə yaşatdı!

Amma Nazim bilir ki, bütün bu gerçəklərin ardında ana Rəhilə durur.
Rəhilə xanım əlbəttə ki, bu "sağ ol" ları eşitmirdi.

Çox çətin oldu bunları əldə etmək, Rəhilə xanım! Bunu duyanlar az olmadı. Çoxlarının gözü bu ailədə idi. Görən necə olacaq, öhdəsindən gələcəkmi bu cılız qadın. Ağır yükü daşıya biləcəkmi?

Bu ailəni və ələxsus Nazimi istəyənlər verdikləri suala özləri də cavab tapırdı: Başqa cürə ola da bilməzdi. Görün o kimin yoldaşı olub. Bu sədalar hərdən ona çatanda, elə bil yeni qüvvə verirdi.
Sağ ol, Rəhilə xanım!

Bəxtiyar Vahabzadə çox gözəl deyib:

Öləndə torpağa qarışmağım da,
Torpağa qovuşub yaşamağımdır!

Məqalə "Səs" qəzetində
çap olub. May 201.

## G ü l a r ə M u n i s i n g i z l i a l ə m i

(Qələbə gününə həsr olunur )

Gülarə xanımın müvəffəqiyyətlərini özümünki kimi qəbul edirəm. Onun ədəbi aləminin izləyicisiyəm. Sevinəndə ondan artıq sevindiyimi desəm, yanılmaram.

Yazdığı kitablar ilə tanışam.

2010-cu ildə çapdan çıxmış "İtkin" kitabının təqdimatı Qələbə gününə - mayın 9-na təyin edilmişdi.

Çoxdandır ki, itkin əmisi İsabala Mahmudovun sorağında idi. Kitabın ərsəyə gəlməsi ilə o, əmisi ilə bərabər, ata nənəsi – Xədicənin də narahat ruhuna bir rahatlıq gətirdi.

.... Uzun illər İsabalanın yadigarı kimi qoruyub saxladığı tut ağacının bar gətirdiyini görəndə – bu bahar da gəlmədi, deyib, köksünü ötürən Xədicə ana, 1985-ci ildən ruhən oğluna qovuşaraq, ümüdlərinin son nöqtəsini vurdu. O ildən ağac daha bar gətirmədi.

Anadan olduğu, uşaqlıq illərini keçirdiyi, əlində qələm tutub, nəhayət kitab bağlayan və bu balaca kəndin böyüklüyünü təsdiq edə bilən Gülarə xanımın ürəyi oldu "İtkin"in işıq üzü görməsi.

Bu kitabı ilə o, Buzovnanın azərbaycanlıya xas olan adət-ənənələrini, kəndin mühitinə xas olan təmizliyi-saflığı, ataya, əmiyə, nənəyə olan sevgisini, müəllimə və ağsaqqallara olan hörmət - ehtiramını göstərərək, bütövlükdə ədəbiyyatımızın qarşısında baş əydi...

Gülarə xanım ilə bağlı bir əhvalat düşür yadıma:

Filarmoniyada Əli Poladın tərcüməsi ilə işıq üzü görmüş "Ömər Xəyyam" kitabının təqdimatı idi. Tədbirin yüksək səviyyədə keçəcəyinə çox inamlı idim.

Əlimdə olan iki dəvətnamədən birini kimə verəcəyimi düşünərkən, artıq seçimim Gülarə xanımın üzərində dayanmışdı. Sevindi.

Buzovnadan quş kimi uçub, özünü Filarmoniyaya yetirdi.

Tədbirin gözəlliyini daha da dolğunlaşdıran aparıcısı Millət Vəkili Rəfail Hüseynov veriliş boyu Xəyyamdan oxuduğu qəzəllərin varlığına baş vururdu.

Aparıcılıq qabiliyyəti hər zaman auditoriyanı heyrətləndirən ədəbiyyatşünas, alim Rəfail Hüseynov, Ömər Xəyyamın qəzəllərindən sanki çələng bağlayırdı.

Birdən elə bil yuxudan ayıldım, qulaqlarımdakı səs məni diksindirdi. Səhnədə hələ növbəti qəzəl səslənməmişdən öncə Gülarə xanımın söylədiyi Xəyyam qəzəllərini bir-birinin ardınca eşidirdim.

Bir an ancaq onu dinlədim və bu tədbirin sonunadək belə davam etdi.
Gülarə Munis o günü mənim gözümdə bir daha ucaldı.

Düşündüm: "Nizami, Füzuli qəzəllərinin aşiqi, sən demə Xəyyam məcnunudur. Bu böyüklükdə dərya necə yerləşir bu vücudda?" sualıma cavab tapdım!

Axı Munis qəzəl aşiqidir! Çünki onun qələmi ilə XXI əsrdə "Divan" yazılıb.

Sonda çox çalışdıq ki, bir kitab əldə edək. Amma Xəyyam aşiqləri çox olduğundan bu mümkün deyildi.

Hansı yol ilə kitabı əldə etdiyimin şahidi olan Gülarə xanımın gözlərini görəndə, özüm də hiss etmədən xəzinəni ona uzatdım.
Gülarə xanım çəkinsə də, çox cəld tərpənib, kitabı əlimdən aldı.

Atdığım bu addımdan peşiman olsam da, özümə kitab tapacağıma ümüdümü üzməyirdim..
Amma Gülarə xanımın o günkü sevincini heç bir ləl - cəvahiratla əvəz etməyin mümkünsüzlüyünü başa düşdüm. Gülarə xanım mənim hərəkətimin nə qədər qiymətli olduğunu söyləyərkən gözlərindəki parıltını görəndə - elə bil mənə dünyanı bəxş etdilər.
Axı bu o Gülarədir ki, uşaq ikən dərsdən qalmamaq üçün, yırtılmış ayaqqabılarının əvəzinə anasının böyük çəkmələrini geymişdi.
Bu əhvalatı o, hər dəfə danışanda həm utanır, həm də fəxr edir. Bəlkə də o vaxt ədəbiyyat dərsini buraxmadığı üçün, bu gün minnətdarlıq hissi olaraq, Gülarə xanım müəllimi qarşısında diz çökür.
Bəli, bu o Gülarədir ki, M.Ə.Sabiri, S.Ə.Şirvanini oxuyaraq, sirli – sehirli bir aləmə düşür.
Sədi Şirazinin "Gülüstan"nını, "Büsat"ını oxuyaraq, dünyanı dərk edə bilən Gülarə xanımın masaüstü kitablarının sayını mənim də üç kitabımın artırmasına sevinirəm. Bunlar:
Babam Ağa Musa Nağıyevə həsr etdiyim "Xalq üçün ömrünü şam kimi əridən..." kitabı, eləcə də ona hədiyyə etdiyim "Ömər Xəyyam" və "Həzrət Əli" kitabları.

Sözə don geydirə bilən Gülarə xanım, söz incilərini yığıb, sapa düzə bilir. Qısa zamanda çox yazdıqlarını az bilib, özünü hələ bu varlığın astanasında hiss edir.
İçəri daxil olmaq istəsə də, qorxu ona üstün gəlir.
Gülarə xanım xatirələrində yazır - mütaliəni mənə anam sevdirib.

Gülarə xanım, düşünürəm ki, belə olmasaydı ikinci sinifdən kitabxanaya üz tutmazdın və bu gün Buzovna qəsəbəsinin kitabxanalarında yazdığın kitabları uşaqlar oxumazdı.

Məktəbdə ədəbiyyatı ona sevdirən Məmmədbağır müəlliminə təşəkkür edən Gülarə xanım müəlliminin xeyir-duası ilə kitablarının sevilib- oxunmasına inanır.

Özünün söylədiyi kimi böyük dəryanın sahilə atdığı balaca bir balığa oxşayırdı. Ona dərya lazım idi, sahildən dəryaya həsrətlə baxırdı. Yaxşı ki, bu güclü həvəs tufana çevrilib onu ədəbiyyat adlı dəryaya atdı.

Gülarə xanımın atasının adı Musa olub. Mu – su deməkdir, sa- isə sudan xilas olmaq . Ədəbiyyat adlı dəryada Musa hər zaman qorusun onu!

Musa Peyqəmbərimiz olub, mənim babamın da adı Musa olub.

İndi seçim Gülarə xanımındır.

Məqalə “Səs”qəzetində
çap olunub.May 2010 il

## Gülçöhrə müəllimə

İradə xanımın rəhbərlik etdiyi Nəsimi rayonundakı “Qərənfil” uşaq bağçasında tərbiyə alan yüzlərlə uşaq, hər il olduğu kimi məktəb pillələrinə qədəm qoyacaqlar. Gözəlliyi, yaşıllığı, təmizliyi kimi, qeyri-adi rejimi ilə də başqa bağçalardan fərqli olduğuna görə nəvəm Riadın ora getməsinə razılıq verdim. Uzun müddət bu bağçanın başqalarından fərqli olmasında İradə xanımın sərf etdiyi qüvvə danılmazdır.

Bağçanın tərbiyəçisi Gülçöhrə müəlliməyə hər dəfə baxanda onun sirrli bir aləmi olduğunu duyurdum.

Əsli Dağıstandandır. Tale belə gətirir ki, atası Nağı kişi Bakıda oxuyub, işləyir və bu şəhərdə ailə qurur. 1948-ci ildə bu ailədə balaca Gülçöhrə dünyaya göz açır.

O zaman Nağı kişinin ağlına da gəlməzdi ki, sonradan bu qızcığaz ana olmaq arzusunu özlüyündə boğacaq və tərbiyəçi kimi neçə-neçə uşaqların böyüməsində var qüvvəsini əsirgəməyib, onları özünə övlad biləcək. Əlində qələm tutub, ilk olaraq ana-ata sözünü yazmağı onlara

öyrədib, beləcə hər il onlarla uşağa əlvida bağça, söylədib məktəbə göndərəcək.
Balaca Gülçöhrə hamı kimi ali savad almaq arzusunda idi. Atası qızına hər zaman deyərdi: -"Mənim balam çox ağıllıdır, oxuyub savad alıb, xalqına layiqli bir övlad kimi xidmət edəcək". Gülçöhrə uşaqlıqdan qeyri adiliyi ilə fərqlənər, yaşıdları eşikdə oynayanda onlara qoşulmazdı. Ümdə arzusu həkim olmaq olsa da, onda oxuduğu nağılı söyləmək və yaxud, hər hansı bir əhvalatı nağıla bənzətmək xüsusiyyəti var idi. Bəlkə də bu xüsusiyyətinin nəticəsi idi 16 yaşlı Gülçöhrəni Pedaqoji Texnikumuna gətirən. Təhsil aldığı texnikumu "Fərqlənmə Diplomu" ilə bitirən Gülçöhrə: "Elə tərbiyəçi də həkim kimi insanın xidmətində olmaqdır" - deyib, bu peşənin sahibi olmağı qərar verir.
Vəsiqə aldığı iş yeri "Qərənfil" uşaq bağçası oldu. İşinin ilk anlarından sevdiyi uşaqlara ömürlük bağlandı Gülşöhrə müəllimə. İndi uşaqlar onu müəllimə deyib çağıranda, o bundan qürur duyur.
Bütün bu illər boyu ağlayan uşaqlarla ağladı, gülən ilə güldü Gölşöhrə müəllimə. Artıq 1968-ci ildən burada işləyən Gülçöhrə müəllimə, bir igid ömrü yaşayır.
Bir gün güzgüdə özünə baxıb, saçlarına düşən ağ dənləri görəndə dəhşətə gəldi. Səhərə qədər yata bilmədi. Yoxsa qocalıram – sualı səhərədək düşündürdü onu.
İşə gələndə yeni gəlmiş bir qızın səsi onu bu fikirdən ayıltdı. Onun ətəyindən tutmuş bu qızçığaz: "Mamam dedi ki, evə cələnədək Dülçörə məlimə sənə analıq edəcək. Hə, məlimə, mamam olaysan"- deyəndə, düşüncələrdən ayılıb, tələsik bu vaxtadək tərbiyəsində olduğu uşaqları özlüyndə saymağa başladı. Çaşdı. Sayını itirdi. Axı 42 il – bir igidin ömrüdür. Gülçöhrə köksünü ötürüb, uşaqdan soruşdu –adın nədir?
Cavabdan narazı qalıb, dedi, mənim yox, sənin adın nədir? Yenə həmin cavabı eşitdi – Dülçörə, məlimə basa düsmədin? Sən də Dülçörə, mən də. Sən böyük, mən kiçik. Mən də böyüyəndə sənin kimi məlimə olacam. Xosum cəlir məlimədən.
O günü Gülçöhrə müəllimə üçün bir imtahan oldu.
Bir anda hər şey dəyişdi. Saçlarının ağarmasını da unutdu. Unutdu xəstəliyini, içində gizlətdiyi ağrılarını.
İndi Gülçöhrə müəllimə üçün iki istirahət günü uşaqlardan ayrı olmaq çox çətin görünür. Elə bil iki gün – iki ili əvəz edir.
Onunla söhbət edərkən deyir ki, elə bilirəm ki, uşaqlara alışdığım çox az vaxtdır, bir də görürəm ki, ayrılıq məqamı gəlib. Uşaqların böyüməsinə keçən 4-5 il onun üçün bir anı əvəz edir.

“May ayı ən sevmədiyim aydır” – deyir, Gülçöhrə müəllimə. Məni uşaqlarımdan ayrı salan ay olduğuna görə. Hər il olduğu kimi bu il də yüzlərlə uşaq bağça həyatına, uşaqlığın sonuna əlvida deyib, məktəb pillərinə qədəm qoyacaq. Sevinirəm ki, onların təlim-tərbiyə almalarında, böyüyüb, boya – başa çatmalarında mənim də kiçik əməyim olub. Onlar məktəb həyatına atılır. Bu çox yaxşıdır. Əlbəttə hər şey yavaş –yavaş yerini tutacaq. Bircə mən onlardan ayrı düşəcəyəm.
Axı Gülçöhrə müəllimə bütün bu illəri onları qaranquş tək qanadlarının altına alıb, nəvazişi ilə isitməyə çalışıb. “Ağlama mənim balam, anan indicə gələcək. Bax, gördün gəldi”- deyərkən, bu sözləri hər dəfə təkrarlayan Gülçöhrəni xəyallar başqa səmtə aparırdı. Ona uşaqlıqda belə söz deyən müəlliməsi olmayıb, bu xoşbəxtlik ona nəsib olmayıb. Axı o zamandan onu nə az, nə də çox, düz 42 il ayırır.
“Uşaqları çox sevirəm, hər gün sonuncu uşağı evə yola salarkən, elə bil qəlbimdə boşluq yaranır. Səhər işə gələndə nədənsə boşluğu hiss etmirəm” – deyir Gülçöhrə müəllimə.
Bir anlığa hiss etdim ki, o yuxunun nə olduğunu bilmir. Çünki hər səhər Gülçöhrə müəllimə bağçaya ən birincin gəlir və yeni əhval ruhiyyə gətirir. Onun icat etdiyi yeni məşğuliyyət formaları bunu sübut edir.
Bütün bunların öhdəsindən uzun illərdir ki, Gülçöhrə xanım gələ bilir.
Bunu müdüriyyət, valideyinlər və Gülçöhrə xanımın həmkarları təsdiqləyir.
Gülçöhrə xanımın bu xüsusiyyətləri və pedoqoji fəaliyyəti qeyd olunaraq, Təjsil Nazirliyi tərəfindən “Qabaqcıl maarif əlaçısı” və bir sıra “Fəxri Fərman”-la təltif edilib.
Düşünürəm ki, onun üçün ən böyük təltif valideyinlərin təşəkkürüdür.
Axı onlar Gülçöhrə xanıma çox inanır, uşaqlarını ona ümüd edirlər.
Uşaqları sevməyi bu xanımdan, ömrünü onlara qurban verən xanımdan, Gülçöhrə xanımdan dünən də, bu gün də, sabah da öyrənmək lazımdır.
O, bir örnəkdir, dərslikdir, ensiklopediyadır.
Nə yaxşı ki, siz varsız Gülçöhrə xanım!

**Ramiz Zülfüqar oğlu**

(İşlədiyim kollektivdə seçilənlər silsiləsindən)

Gəlin təqvimdə 60 il əvvələ nəzər salaq.

Azərbaycanın cənnət guşələrindən biri olan Lənkəran şəhərində 1939-cu Ticarət texnikumunu bitirir. Əsgəri xidmətdə olarkən: "mütləq ali savada yiyələnəcəyəm" –deyən Ramiz, niyyətinə çatır.
O, əmək fəaliyətinə başlamaqla, ali məktəbə daxil olub, təhsilini davam edir.
Bufetçi vəzifəsində işləyərkən, bunu özünə ayıb bilmir. Əksinə, işgüzarlığı və bacarığı sayəsində ətrafdakıları heyrətə salır.
"Şərq" restoranında əvvəlcə inzibatçı, sonradan isə direktor vəzifəsində işləyərkən, hamı bu gəncin belə artmasına "maşallah" deyirdi.
1980-cı illərdə bacarıqlı və savadlı ticarət işçilərinə böyük ehtiyac duyulurdu.
Ramizdə olan bu xüsusiyyətlər, eləcə də müsbət xasiyyətnamə onu Respublikanın Ticarət Nazirliyinin nəzdində olan Yol Restoranları Ticarət İstehsalat Birliyinə gətirib çıxarır.
Elə buradan bizim əməkdaşlığımız başlayır. Mən kadrlar şöbəsinin rəisi vəzifəsində çalışdığımdan, onun ticarət sistemində atdığı hər addımı gördüyümdən, belə bir yazını çap etməyə qərar verdim.
Qısa müddətdə onun xasiyyətnaməsində: "savadlı, mədəni, çalışqan kadr olaraq, fəal işçi kimi özünü göstərə bilmişdir" -sözləri onun işində yeni cığırların açılmasına səbəb olunur.
Bacarığı sayəsində Ramiz Zülfüqar oğlu Birliyin direktor müavini, daha sonra direktor vəzifəsinə təyin olur.
Artıq o cavan kadrların yetişməsində, onların arasında tərbiyəvi işlərin aparılmasında xüsusi fərqlənir.
Başçılıq etdiyi təşkilatda mal dövriyyəsi planlarının faizi durmadan artır. Əvvəlki illərdən fərqli olaraq indi plan artıqlaması ilə yerinə yetirilirdi.
Bütün bu uğurlar Ramiz Zülfüqar oğlunu şöhrətə çatdırır.
Ramiz Zülfüqar oğlu kollektivə isinişdikcə, kollektivin də ona hörməti artırdı.
İşin bütün incəliklərini öyrəndikcə, o, bu səpgidə iş üsulunu dəyişdirmək yolarını arayır. Sərnişinlərin müasir tələblərinin həyata keçirilməsi, sərgilərin təşkili, " Yol boyu sərnişinlərə əla keyfiyyətli xidmət üsulu", obyektlərin təmiri və texniki avadanlıqlarla təmin olunması – bütün bunlar Ramiz Zülfüqar oğlunu çox narahat edirdi.
Artıq Ramiz Zülfüqar oğlu – Birliyin aparatına - Baş direktor müavini vəzifəsinə təyin edilir.
Ramiz Zülfüqar oğlu iş planlarının genşlənməsi ilə əlaqədər Birliyin bütövlükdə mal-dövriyyə planlarının yerinə yetirilməsinə böyük diqqət yönəldir.

Bir anda işçilərin təlim-tərbiyəsi, yeni növlü uniforma, xörəklərin çeşidləri və keyfiyyətinin yaxşılaşması, ərzaqla təminat - bütün bunlar indi onu lap çox düşündürürdü.
1997-ci ildə islahatların aparıldığı bir dövrdə yaranmış "Açıq Tipli Səhmdar Cəmiyyətinin" sədr müavini təyin olunan Ramiz Zülfüqar oğlu, indi işini tutduğu vəzifəsinə uyğun olaraq davam edir.
Daima öz üzərində işləmək, yeniliklər axtarmaq, bildiyini başqalarına öyrətmək – bunlar onun şüarına çevrilir.
Dövlət xadimlərinin qatarla ezamiyyəti zamanı, eləcə də komsomolçu gənclərin Moskvaya-festivala, Xalq Qəhrəmanlarının Qara dəniz sahilinə - kapitalist ölkələrinə səyahəti zamanı, Amur vilayətinə daimi köçkünlərin yola salınmasında, bir sözlə "Lider qatarları"nın yola hazırlanmasında ictimai iaşə xidmətinin yüksək səviyyədə təşkilatçısı olmuşdur Ramiz Zülfüqar oğlu.
Bütün by səyahətlər zamanı sərnişinlərə nümunəvi və yüksək mədəni xidmətin göstərilməsində iştirakına, vəzifəsindən sui- istifadə etməməsinə və işçilərin əməyinə düzgün qiymət verməsinə, işçi qrupunun yola salınmasında çəkdiyi zəhmətə və təşkilatçılıq xüsusiyyətinə görə Ramiz Zülfüqar oğlu Ticarət Nazirliyi tərəfindən dəfələrlə "Fəxri Fərman" la təltif edilmişdir.
Ramiz Zülfüqar oğlunun yubileyi – 60 ili, əmək fəaliyyətinin 40 ili münasibətilə olan təbriklər zamanı bütün bu təltiflər bir daha əksini tapmışdır.
Təvəzökarlığı, mədəniyyəti, səbri, savadı nəticəsində qazandığı hörmət yubiley mərasimində bir də anıldı.
Ramiz Zülfüqar oğlunun Ticarət sistemində qoyduğu izlər silinməzdir.
Həyat yoldaşı Məsmə xanımın mehribanlığı, sağlam ailə, Ramiz Zülfüqar oğluna böyük dayaq olub hər zaman.
Bircə danəsi - qızı Sevda dünyaya övlad gətirməklə Ramiz Zülfüqar oğlunu qocaltmağa çalışmasa da – baba etdi. Kiçik Abbasın həyata gəlişinin sevincini kollektivdə biz də yaşadıq.
Əlbəttə kollektiv onu sevdiyindən, saçlarına düşən ağ dənlərin ona xüsusi yaraşıq verdiyini söyləyirdi.
Adətən deyirlər ki, oğul arxadır. Kollektiv öz qərarında bildirir ki, ləyaqətli qız beş oğula bərabərdir. Vəfalı həyat yoldaşı Məsmə xanım və Sevdalı qızı - Ramiz Zülfüqar oğlunun bütün arzularını doğrulda bilib.
Bütün bunları nəzərə alaraq kollektiv belə bir əmrə imza atıb:
"Ramiz Zülfüqar oğlu, sükanı hər zaman belə saxlamalı, hünəri varsa yetmişi, səksəni də belə qarşılamalıdır. Ailədə ciddiliyi və məhəbbəti

heç vaxt əskik olmasın. Nəvədən nəticə payı götürməyi arzulayıb, sevinclərinin heç vaxt tükənməyəcəyinə ümüdlüyik. Bu gündən etibarən 100 yaş yaşayacağı haqda öhdəçilik qəbul etməlidir. İrəlidə qeyd olunan uğurlarının daha da çiçəklənib, şaxələnəcəyinə inanaraq, Məsmənin – Sevdası, Sevdanın – Abbası ona dayaq olub, hər zaman Ramiz Zülfüqar oğlunu sevindirməlidir. Əmrin icrası ailə üzvlərinə həvalə olunur"!
İyul 1999- il.

## Rəfiqə xanımın "həyat hekayəsi"

Rəfiqə xanım ilə qohumluqdan əlavə bir yerdə işləmişəm. Sözün əsl mənasında "yol getmişəm". Onun sevinclərinə şərik olub, kədərini birgə yaşamışam. Onun dili ilə övladlarına deyirəm:

Şirin şəkər sevdam, sevdalı röyam,
Məhəbbət dastanım siz olacaqsız.
Fikrimdə dolaşan dumanlı xülyam,
Sevgili cananım siz olacaqsız!

Bəli, dünyam mənim, dünyam mənim! Çox kədərləndirib, az sevindirib zaman Rəfiqə xanımı. Düşünürəm ki, buna səbəb alın yazın:- "Zəhmətkeş olmalısan, ailənə dayaq olmalısan, özünü unutmalısan" olub.
El içində və qohumlar arasında böyük hörmət qazanan atası Mürəsl kişi, ailədə üç oğuldan sonra Rəfiqənin dünyaya gəlişinə çox sevinirdi.
Bu ərkəsöyünlük Rəfiqəyə 18 yaşınadək nəsib oldu.
Qardaşı Əliheydərə qurban verdi həyatını. Haqq -ədalət deyilənə görə hər zaman qalib gəlir. Lakin bu ailə haqqa çatanadək Mürsəl kişi dünyasını dəyişdi.
Elə Rəfiqə xanımın əzablı günləri də o gündən başlandı.
Tibb sahəsində işləməsi ilə ailə saxlamaq mümkün olmadığından o, sözün əsl mənasında "iynə ilə gor qazmağa" başladı. Əlavə olaraq kətan üzərindəipək saplarla çəki çəkməklə məşqul olub, ailədə dörd nəfərə və qürbətdə olan qardaşına köməklik edir. Gözünün nurunu bu yolda qoydu – desəm, yanılmaram.
Sifarişçilər çoxaldıqca, Rəfiqə xanım ağ kətan üzərində naxışlar salmaqla, gözünün nurunu itirirdi. Dəyirman öz bildiyini etdiyi kimi beləcə bu xanım özü də hiss etmədən, gəncliyini ilbəil xırdalayırdı.

İndi o,  yalnız bir amal uğrunda çalışırdı: anaya qulluq etmək, qardaşa diqqəti əsirgəməmək, iki kiçik bacılara atasızlığı hiss etdirməmək.
İllər keçdikcə saçlarının ağardığını hiss etməyən Rəfiqə xanım rəfiqələrindən və arzularından vaz keçirdi.
Beləcə o, arzularının söndüyünü hiss etmirdi. Ən ümdə arzusu təhsilini davam edib, həkim olmaq idi. Növbəti qurbanlarından biri də bu idi.
Bütün bunları yada salmaq, keçmişi xatirələrə çevirmək, o demək deyildi ki, Rəfiqə xanım heyifslənirdi. Əksinə o bundan qürur duyurdu ki, ailəsinin tarixinə çevrilir.
Hərdən düşünürdü ki, o da rəfiqələri kimi  həyat yaşaya bilərdi.
Nə üçün fələk məhz onunla bu oyunu oynayır?
Arzuları çiçəklənmədən, söndü.
Yeganə arzusu  - qardaşını azadlıqda görmək idi. Rəfiqə xanımın anası Vətən müharibəsində həlak olmuş iki oğlunun qarasını dəyişməyirdi ki, Əliheydərim gəlsin, onda qara rəng ilə vidalaşacağam – deyirdi Hökümə xanım.
Uzun müddət evdən ayrı düşən Əliheydəri dərmanı tapılmayan xəstəlik ailəsindən  tamamilə  ayırdı.
Rəfiqə xanımın dərdlərinin üstünə bir qardaş dərdi də gəldi.
Yaşının üstünə yaş gəlməsini hiss etməyən Rəfiqə xanımı gəncliyini itirməsi artıq  narahat etmirdi.
İndi onu düşündürən: anasının və iki bacısının taleyi idi.
Mürsəl kişi ilə Fərəc Nağıyevin  dostlyq əlaqələrinin möhkəmlənməsinə onların qohumluq əlaqələrinin çox təsiri olmuşdu.
Bu ailənin ağsaqqalı, onlara mənəvi dirək olan atam Fərəcin ailədə ən çox hörmət bəslədiyi Rəfiqə xanım idi. O, atamın hər bir məsləhətinə qulaq asar və ona müvafiq hərəkət edərdi. Ailədə ona xalaoğlu deyib, çağırardılar. Yayda bu ailə  bizim bağda istirahət edər, gəzintilərə birgə gedərdik. Atamın məsləhətlərini qəbul edən Rəfiqə xanımın varlığında yaşamaq həvəsi oyanırdı. Elə bunların təsiri idi ki, gecikmiş olsa da, Rəfiqə xanım ailə qurmaq qərarına gəldi.
Həyat çox mürəkkəbdir. Onun elə enişlikləri var ki, elə bil quyudan çəkdiyin su əvəzinə boşluq yaranır. Bu boşluğu doldurmaq həvəsi oyandı qəlbində Rəfiqə xanımın.
Anasının və idealı olan Fərəc xalaoğlunun məsləhəti ilə o, ailə qurdu.
Gözəl və mehriban həyat yoldaşı Əliağa kişi, yaşca ondan böyük olduğunu hiss etdirməməyə çalışır, onun nazını çəkir, keçmişdə qalan çətin günlərin acısını unutdurmağa çalışırdı.

Allah-Təala onlara bir oğul və bir qız bəxş etdi. Rəfiqə xanım iki övladını çəkdiyi əzab-əziyyətlərin bəhrəsi kimi qəbul etdi.
Onun ikinci həyatı – sevdiyi işi və kollektivi oldu. Heç vaxt işçilərin isti münasibətini, məsləhətlərini unutmayır. Bunları unutmaq – insanlıqdan kənardır –deyir Rəfiqə xanım.
Ana olmağa hazırlaşan Rəfiqənin mütləq oğlu olacağına inandıranlar da onun iş yoldaşları oldu. Qət edilmişdi ki, oğlan olacaq və bir ağızdan ona Elçin adı da verilmişdi.
Onun bu anını əvvəlcədən duyub, sevinənlər sırasında atam və mən də var idim. Gülçinin də dünyaya gəlişi və adı hamının ürəyindən idi.
Elə bil bu insanların ağzı fal idi – UZİ idi.
Rəfiğə xanım övladlarına baxıb deyir: "Nə yaxşı ki, siz varsız. Nə yaxşı ki, məni hər zaman yaxşı insanlar əhatə edib".
İndi Rəfiqə xanım sevinir və düşünür: Atalar: "Yetimin bəxti olmaz" – deyiblər? O, bu suala belə cavab verir: - Bəxt insanın öz əlindədir. "Sadəcə" çətin günləri yaşamağı bacarmaq lazımdır. Onun hədiyyəsi olacaq, mütləq. Bir də ki, əhatəndə yaxşı insanlar olsun.
Allah-Təala Rəfiqə xanıma iki gözəl balanı acı günlərinin hədiyyəsi olaraq vermişdir. Bunun üçün hər zaman şükr edir Allaha.
Hər dəfə ilahiyə təşəkkürünü bildirib, onu həyatda yaşatdığına görə minnətdarlığını bildirir. Həyatda qalibiyyətini də onunla bağlayır.
İndi onun arzusu isə övladalrı ilə bağlıdır.
Mən bu ailənin izləyicisi, canlı şahidi olmuşam.
Rəfiqə xanım keçdiyi həyat yolunu vərəqlədikcə, keçmişlər kino lenti kimi gözümün qarşısında canlanır.
Çətin günlərin geridə qalmasına sevinib, Rəfiqə xanıma bundan sonra daha xoş günlər görməyi arzulayıb, övladlarına səadət dolu günlər, təmiz vicdanlı olub, ata-ana məhəbbətini hər zaman yüksək tutmasını diləyirəm.
Allah deyib ki, valideyininə kor baxan övlad, çörək tapmaz.
Bu sözlər nə Rəfiqə xanıma, nə də onun övladlarına ünvanlanmır.
Çünki o vicdanlı olub, vicdanlı da övlad böyüdüb.
Diləyim birdir: Rəfiqə xanım bu "həyat hekayəsini" oxuyanda inansın ki, Fərəc xalaoğlunun qızı – Dilarə də qədirbilən, insanı sevən və ona qiymət verə biləndir.

May 2005il.

## Hörmət və məhəbbət bəslədiklərimə ünvanladıqlarım

### “Vətən daşı” Rövşən Mustafayev

### Xeyirxah insan; Zəka sahibi; Nurlu sima; Ölüm marşı; Vaxtsız vida...

Vətəni üçün çox işlər görən, can yandıran, işsizləri işilə təmin edən, aclara çörək verən Böyük inasan - Rövşən Mustafayev 20 fevral 2009-cu ildə 48 yaşında dünyaya əlvida dedi.

Onun haqq dünyasına qovuşması Azərbaycan xalqı üçün böyük itki oldu desəm, yanılmaram. Bu gözəl insan əməllərilə hər zaman qəlblərdə yaşayacaq.

Çoxları kimi mən də çox heyifslənirəm Rövşən müəllimin yoxluğuna.

Tanışlığımız belə başladı : “Bizim babalarımız dost olublar- dedi. Babamın Ağa Musa Nağıyev haqqında danışdıqlarından yadında qalanları atamdan eşitmişəm. Sonradan tarixdə haqqında yazılanlara rast gəldim”.

Azərbaycan elminin görkəmli nümayəndəsi, ictimai xadim, vətənpərvər insan – Rövşən Mustafayev sağ olsaydı, bu il yarım əsirlik yubileyi tamam olacaqdı... Yubileyin mübarək!

Amma çox hayıf ki, onun vaxtsız “ölüm marşı” çalındı.

Yaradıcılığını izləyərkən, sözün əsl mənasında insanı dəhşət bürüyür.

24 yaşlı Rövşən Mustafayev özünü ədəbi-bədii yaradıcılıqda sınayıb, hekayələr toplusu yaradıb. 27 yaşında namizədlik dissertasiyasını müdafiə edib, şeir toplusunu oxucularına təqdim edib. 30 yaşlı Rövşən Mustafayev ”Çeşmə” və “Günaydın” mədəniyyət cəmiyyətlərinin yaradıcısı olub, təsis etdiyi Azərbaycan Dövlət Quruculuğu İnstitutunun diplomatiik korpuslara ünvanlanmış “Dirçəliş-XXI əsr” jurnalının nəşrinə başlayır.

Artıq o, institutun direktoruolmaqla bərabər, jurnalın da baş redaktor vəzifəsini icra edir.

Politologiya sahəsində apardığı tədqiqatlara görə 36 yaşlı Rövşən Mustafayev ilk dəfə olaraq yeni -“siyasi elmlər” ixtisası üzrə doktorluq dissertasiyasını müdafiə edib, ilk siyasi elmlər doktoru-alimlik dərəcəsinə layiq görülür.

Rövşən Mustafayev ümummilli lider Heydər Əliyevin ictimai vəkili olur - 1998-ci ildə 38 yaşında.
1999-cu ildə yaradılmış AMEA-nın İnsan Hüquqları İnstitutu tərəfindən "İrəli"gənclik hərəkatı R. Mustafayevin "Страсти по вертуали" elmi politoloji kitabı - "İlin tədqiqatı" nomenasiyası üzrə ən yaxşı əsər kimi qiymətləndirilir.
47 yaşlı R. Mustafayev professor adına, "Ölüm marşı" kitabına görə Beynəlxalq Avrasiya Mətbuat Fondunun sertifikatına layiq görülür.
Bütün bu uğurlar Rövşən Mustafayevin 24 illik yaradıcılıq illəri ərzində baş verdi. Bu qısa, lakin çox mənalı ömür zamanında.
Əsrlərin qovuşma nöqtəsində - insan hüquqlarının qorunmasında dayanan bir vətən daşı oldu – Rövşən Mustafayev.
Rövşən Mustafayev erməni şovinizminin mahiyyətini əsərlərində ifşa edirdi. İlk dəfə məhz o, ermənilərin millət yox, etnokorporasiya olduğunu əsərlərində göstərir.
Kim deyə bilərdi ki, Sovet imperiyasının viranəlikləri içərisindən Heydər Əliyev dühası yüksələcək və bu burulğanda boğulan Azərbaycana əmin – amanlıq gətirəcək?
R.Mustafayev forumlarda "azərbaycanlılıq ideyası"nı irəli sürən olub.
O, yaşadığı zamanın axırlarında yazdığı "Ölüm marşı" kitabında ermənilərin yəhudi xalqına yönəltdiyi cinayəti açıq göstərə bilir.
Dövrümüzün canlı ensiklopediyası sayılan Rövşən Mustafayev böyük zəka, məntiq və təfəkkür sahibi olub.
Onun ömrü zamanda ölçülmür. O, şərəfli insan olaraq, yaddaşlarda unudulmayacaq abidəsini yarada bildi.
Qürur duyduğumuz insan haqqında keçmişdə danışmaq çətinlik törətdiyi qədər, yaşatdığı abidəni görmək bir o qədər şərəflidir.
Azərbaycanın həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq məharəti ancaq Rövşən Mustafayevə xas olan bir xüsusiyyətdir.
Allaha inama gəldikdə, müsəlmandan qeyri-kimsə deyiləm, bütün türk məkanını özümə doğma yurd sayıram, deyən Rövşən Mustafayev, ən başlıcası özünü Azərbaycan Respublikasının vətəndaşı və ən nəhayət, qeyri kimsə saymadı.

5.10.2010il.

**Bircə sən yoxsan, əzizim**

(Həyat yoldaşımın vəfatının 1-ci ildönümünə həsr edirəm)

Hərdən həyat mənə yuxu kimi gəlir.
Varlığına inanmaya – inanmaya, yoxluğuna da inanmıram.
Çox ağırdır mənim üçün sənsiz. Bu il avqust ayının 13-də bizdən ayrılmağının bir ili tamam olacaq .
Şəkillərin ilə danışıb, sənə demədiklərimi yavaşdan deyir, həzin-həzin sızlayıram sənin üçün Muxtar. 36 il ömür sürdük bir yerdə.
İtirdiklərimiz oldusa da, qazandıqlarımız Samirimiz və Könülümüz oldu.
Düşünməzdim ki, yoxluğun bu qədər ağır olacaq mənim üçün.
Bir payız axşamında yağış yağanda ürəyim sızladı sənin üçün. Gördüm tək qalmısan yağışın altında. Həzin baxışlarınla elə bil məndən imdad gözləyirdin. Bir an evimizin soyuduğunu hiss etdim. Səni soyuq məzarda gördüm. İşığı yandırdım. Xəyal imiş...
Muxtar çox tez soldun, saraldın payız yarpağı tək. Söndün parlayan ulduz kimi. Çox az çəkdi qəfil xəstəliyin. Üzünə baxa bilmirdim.
Ölüm kölgəsi üzündə olsa da, öləcəyinə heç inanmırdım.
Qısa vaxt imkan vermədi ki, dadına çataq, dərdinə əlac edək.
Elə hey yalvarırdın ki, qoymayın məni ölməyə.
Eşitmişdim ki, göz pis şeydir. Amma inanmırdım. İndi isə deyirəm: qorunun gözdən. Bu həqiqətdir. Allah da gözdən bixəbərdir.
Biz ki, biri-birimizi istəyib, evlənmişdik.
Evliliyimizə qədər zaman bizi neçə-neçə sınaqlardan çıxardı.
Məni məcbur etsələr də, mən səndən imtina etmədim.
Düz üç il Dekabristlərin həyat yoldaşları kimi sənin uğrunda valideyinlərimlə mübarizə apardım. Nəticədə hər ikimiz qalib gəldik.
Başqa cür ola da bilməzdi.
Çünki bizi XX əsrin Leyli və Məcnunu adlandırırdılar.
Bəs indi necə oldu ki, həyatla vaxtsız vidalaşdın? Yoxsa mübarizə etməyə gücün tükənmişdi?
Bu ikinci zərbə idi həyat sənə vururdu.
Məzlum baxışlarınla elə bil deyirdin, qoyma məni ölməyə, yaşamaq istəyirəm.
Muxtar, indi ki meydanda tək deyildin. Sənin Fərhadların artmışdı – Övladların Samir və Könül, gəlinin Gülnarə kimi qalan var idi.
Artıq sağalmaz xəstəliyə tutulduğunu bilib, 1998-ci ilin mart ayından ağı deyirdik sənin üçün, səndən xəbərsiz.
Ağıllı və savadlı olduğundan bütün bunlardan xəbərdar idin. Amma...

Geriyə yol olmadığını bilirdik. Ailən və bacıların xısın-xısın gizlicə ağlayıb, ağı deyirdilər sənin üçün.
Hec cürə bizdən ayrılacağını təsəvvür edə bilmirdin.
Biz isə sağalmayacağını bilsək də, səndən ayrılacağımızı heç cür təsəvvür etmirdik.
İstəmirdik olanlara inanaq.
Çox çətin idi hamı üçün. Mənim üçün indi daha çətindir. Çünki sən yoxsan yanımda. Səninlə fəxr edirdim. Öyünürdüm ki, yaraşıqda tək idin, tayın - bərabərin yox idi. Gözəllikdə ərəb oğlanlarına oxşadırdım səni. Samirə indi də deyirəm ki, atan səndən daha yaraşıqlı idi.
Bəlkə də bu sənə olan istəyimdən irəli gəlirdi. Axı düzünə qalsa, Samirimiz sənin əksindir.
Vəzifən ilə fəxr edirdim. İndi də deyirəm ki, mənim həyat yoldaşım "Neftçi" futbol komandasının məşqçilərindən olub.
Futbolu, sənətini o qədər sevirdin ki, anan deyərdi, əgər mənim ölüm xəbərimi oğlum eşitsə belə, işini sona çatdıracağına əminəm.
Dərs dediyin, futbolun sirlərini məşq zamanı sevə-sevə öyrətdiklərin, bu gün artıq müəllim olan tələbələrin adını hörmətlə çəkirlər.
Qürurunu hər şeydən üstün tuturdun. Əyilməzdin.
Allah -Təaladan bir az ömür istəyirdin ki, nəvələrinin məktəbə getməyini görəsən. Qismət olmadı. Düz deyirlər ki, qismət ilahidəndir.
Zalım əzrayıl başının üstünü xəstəliyinin ilk günündən kəsdirmişdi, öləcəyini gününə və saatına qədər bilirdin. Amma mənə ürək - dirək verirdin. Halın pisləşən kimi mənə deyirdin: qorxma, bir gün yaranan, bir gün öləcək.
Ürəyim qan ağlasa da, üzüm gülürdü ki, sən həyəcanlanmayasan.
Televizorda muğam oxuyurdular. Ürəyimdən qara qanlar axırdı, gizli-gizli baxanda, sənin ağladığını gördüm. Bir an mənə elə gəldi ki, sənin üçün ağı deyirlər. Bu səhnəni təsvir edə bilmirəm.
Hər dəfə yadıma düşəndə, günahsız, məzlum sifətin gəlir gözümün önünə.
Sifətdən dəyişsən də, yenə səni əvvəlki kimi görürdüm.
Dəyişmirdin mənim gözümdə. Çünki mən belə istəyirdim.
Muxtar, sən mənim gözümdə hər zaman əvvəlki yaraşıqda qalacaqsan.
Unutdum kiçik xoşa gəlməyən cəhətlərini.
Yadındadır, Rauf qardaşım nişan üzüyümü barmağımdan çıxaranda, ehtiyat etsəm də, qaçacağam, dedim. Sənin həkimin oldum o zaman.
Amma indi düçar olduğun xəstəlikdən səni xilas etməkdə çətinlik çəkirəm.

Göz ən böyük silahdır. Qorxun gözdən!
Xoşbəxt günlərimizdə mən də sənsiz qazanın qapağını açmazdım.
Ailənin bütün ağırlığı üzərimə düşdüyündən, hərdən inciyirdim səndən.
Mən haradan biləydim ki, həyat belə qısa ola bilər.
Arzuların çox idi.
Toylarda, şənliklərdə rəqs etməyin bir dastan idi. Səni istəyənlər bu gün də unutmayıb bunu.
Sənin yoxluğunu bu gün də hiss edirik.
Cümə axşamlarının birində oğlumuz Samir qəbrin üstündən qayıdarkən kədərini mənimlə bölüşərək, dedi:
-Ay ana, qəbir üstündən qayıdarkən mənə belə gəlir ki, papa yalqız qalır, onu atırıq. Torpaq ayağımı yandırırdı, gör atam orada bu istidə nələr çəkir.
Yox, ay bala dedim, atan xəstəlikdən canını qurtarıb, indi rahatdır, deyib, onu sakitləşdirdim. Amma...

Sən cənnətliksən, Muxtar! Elə hey düşünürəm ki, nə olub sənin günahın?
Özüm də cavabını tapıram - ancaq günahsızlığın! Tıxsız balıq idin.
Belə deyəndə zarafat edib, deyirdin, mən asetrinayam, bahalıyam.
Hərə bir cür ömür yaşayır. Sənin ömür payın daxili aləmin idi.
Bu bir sirr idi və sirr olaraq da qaldı.Ürəyini heç vaxt açmırdın heç kimə. Heç elə bir ürək varmı fikirsiz, dərdsiz olsun?
Dünyanı dəyişməmişdən bir az öncə məni çox istədiyini- qudamız Tamilla xanıma demişdin.0
Üç ay çəkən xəstəliyin müddətində övladların və mən harayına çatdıq, amma..
Nə yaxşı ki, bu qısa zaman içərisində övladlarının səni nə qədər istədiklərinin bir daha şahidi oldun...
Sənin 60 yaşını qeyd etməyimizdən çox az vaxt keçmişdi ki, xəstələndin. O vaxtı övladlarının və mənim sürprizlərim səni şoka salmışdı. Nə yaxşı ki, bunu etdik. Sanki səni yola salırdıq.
Elə bil sənin "səfərə" hazırlaşdığını duymuşduq. Hamının necə sevindiyi bu gün də yadımdadır. Ən əsası Samirin və Könülün sevinci yerə-göyə sığmırdı.
Sən nə isə demək istəyirdin. Duymuşdum, amma soruşanda deyirdin: Hələ yox, deyəcəyəm.
Beləcə bir kəlmə də olsa demədin. İndi mən deyirəm demədiklərini:

Məni dağ bilirdin, dağ da oldum. Amma onu da bil ki, dərd əlindən dağ da əriyə bilər.
Oğul tərəfdən tam arxayın idin. Maşallah olsun, ocağımıza gözəl gəlin gəlib. Nəslimizin həkimi olub. Oğlunun ailəsinin möhkəmliyi – sənin təsəllin idi. Könül qızından nigaran qalmayacağına inanıram. Çünki artıq ali məktəb tələbəsidir. Mən isə Fərhadın-Şirini, Məcnunun-Leylisi, Kərəmin –Əslisi olmasam da, Dilarəyəm.
Sən mənə güvənib, balalarımızı mənə ümüd etdin.
Biz, sənin kiçik ailən, böyük ürəklə hər zaman səni yumruq boyda ürəyimizdə yaşadacağıq. Səni deyib, yad edəcəyik.
Deyəcəyik ki, Muxtar, dünyadan nakam gedənlərdən biri oldu.
Yaxşı cəhətlərini, yumorlu sözlərini yada salıb səni anacağıq.
Hər zaman düşünəcəyik ki, sən var idin, varsan və həmişə bizimləsən.
Belə bir deyim var ki, yad ağlar-yalan ağlar, anam-bacım düz ağlar.
Mən buna əlavə edərdim ki, ailənin göz yaşı heç vaxt qurumaz.
Muxtar, bil ki, alışıb yanan mən olmuşam. Gül kimi solan da mən olmuşam.

13 avqust 1999 il

## Mən anamın ilkiyəm...

(Rauf qardaşıma həsr edirəm)

Qardaşımın söylədiyi bu sözlər hələ də qulaqlarımdan getmir:
"Mən anamın ilkiyəm, ağzı qara tülküyəm."
Əsgəri xidmətdə olarkən yazdığı bütün məktublarının əvvəlini də belə başlayırdı.
1930-cu ilin soyuq bir qışında Nağıyevlər ailəsində böyük bir sevinc yaşandı.
Sonradan "Mən anamın ilkiyəm, ağzı qara tülküyəm"- deyəcək bir oğlan göz açdı dünyaya.
Çox bəxtəvər, qayğısız böyüdü, qanadlandı bu oğlan. Necə deyərlər, qılıncının dalı da kəsirdi, qabağı da. Rauf idi onun adı.
Sonradan Raufun arzularına çatmaması səbəbindən, anası Zəhra xanım həyatını ona həsr etdi, qurban verdi. Oğul yolunda şəhid etdi özünü.
Övladına olan böyük sevgisindən idi ki, Zəhra xanım deyərdi: Raufa söz deyən, hünərlidirsə, mənimlə danışsın.

Axı Rauf anasının gül balası idi. İcazə verməzdi ki, kimsə ona "gözün üstə, qaşın var"- desin.
Hərbi xidmətdə də o, ərkəsöyünlüyündən əl çəkmirdi. Hərbi hissə rəisinin başında anasının bişirib göndərdiyi paxlavaların qozlarını sındırırdı.
Geydiyi - bacısı Solmazın 6 aydan bir tikdirib göndərdiyi uzun boğaz cəkmələr (xrom sapoq), yediyi isə sifarişli bişmişlər və bir də şəkərbura-paxlava olub.
Beləcə, Raufun əsgərliyindən bir il keçdi. Bu bir il anası Zəhra xanım üçün neçə ili əvəz edib, soruşanlara deyirdi: onsuz hər günüm bir ilə bərabərdir.
1952-ci ildə aldığı qəfil güllə yarasından sonra xidmətdən vaxtından tez qayıtdı. Hər zaman sevinən, deyən - gülən Raufu indi ruh düşgünlüyü bürümüşdü.
Bir neçə il keçdi. Rauf evləndi. Gözəllər gözəli Solmaz adlı bir qız bəzədi onun həyatını.
O vaxt atam deyirdi ki, bir Solmazı (qızını) gəlin köçürdüm, bir Solmazı evimə gəlin gətirdim.
Xoşbəxt ailəyə sevinc gətirən övlad payıdır – deyirlər.
Dörd il bu həsrət ilə yaşadı Rauf.
Nəhayət Gülarə adlı bir qız gəldi dünyaya. Gəlişi ilə bu ailəyə işıq gətirdi.
İkinci övladı – Gülnarənin gəlişindən sonra Raufu yenidən ruh düşgünlüyü bürüdü. Buna səbəb ikinci qızın gəlişi deyildi, xeyir.
Ailəmizin istəkli gəlini – Solmazın xəstəliyə düçar olması idi.
İndi onun xəstəliyi Raufu yemək-içməkdən, şənlənməkdən uzaqlaşdırırdı.
Həyat yoldaşının xəstəliyi Raufu dəyən güllə yarasından da çox sarsıtmışdı.
Nələr çəkdi Rauf, bir də Zəhra ana? Bunu onlar və bir də Allah bildi.
İllər keçdikcə, Rauf müalicə yollarını araşdırdıqca, Solmaz yavaş-yavaş gözəlliyini itirirdi.
Rauf isə daxilən dəyişirdi. Uşaqlarına olan diqqətini artırdıqca, narahatçılığı da artırdı.
İndi ailədə Rauf həm ər idi- həm ata. Həm ailə başçısı idi- həm də ana.
İllər ötür, aparılan müalicələr bəhrəsini vermirdi. Ailənin problemləri artdıqca, Rauf daha da sarsılırdı. Beləcə ailənin bütün ağırlığı bəxtəvər doğulub, bəxtsizliyə uğrayan Raufun çiyinlərinə düşdü.

Qardaş əzabı yadıma düşdükcə bir an düşünürəm: - bu çiyinlər nə qədər yük daşımaq qabiliyyətinə malik ola bilər? Amma o dözdü bu ağırlığa. Qızlarına analıq etdi. Bundan əyilmədi. Bütün bu yolu anası ilə birgə addımladı.
Oğlunun ağır həyat yükünü görüb, mənim bədbəxt balam deyirdi - anan.
Amma bu ağır yükü Rauf daşıdı.
Deyirlər ki, "Yad ağlar, yalan ağlar. Anam, bacım düz ağlar."
Ailənin xidmətində durmaq vəzifəsini artıq bir vəzifə kimi qəbul edirdi.
Ona qüvvə verən göydəki Allah, yerdə isə anası oldu.
Bu iki qüvvə ona kömək oldu, ruh verdi, yaşatdı.
Həyatda həm qazanan oldu, həm də xərcləyən.
İl boyu topladığı pulu Solmazın müalicəsinə xərcləyib, ona əlac etmək məqsədilə dünyanı gəzdirdi. Belə xüsusiyyət hər kişiyə xas olmur. Bu ancaq belə kişiyə -nər kişiyə xas olan xüsusiyyətdir.
Çox çətin oldu Raufun ömür yolu. Sevinci – həyatını işıqlandıran qızları oldu. Çoxları deyir ki, kişinin oğlu olmalıdır. Amma Raufa Allah Təala oğul əvəzi - beş qızıl- qız verdi. Qızlarının üstündə qartal oldu.
Həyatı boyu Allah -Təala onu sınağa çəkdi.
Qızı Gülnarənin – istəkli qızının ailə həyatının dağılması ona böyük dərd oldu. Təsəllini onda tapdı ki, belə bir səviyyəsiz ailə ilə münasibətini pozdu. Lap atalar misalında deyildiyi kimi- "verdikləri ovsanayə düşdü".
İki körpə ilə Gülnarənin qayıdışı onun problemlərini artırsa da, dözümlü oldu. Axı övladı ona pənah gətirmişdi.
Anamız dünyasını dəyişərkən, Gülnarənin taleyini Raufa bərk-bərk tapşırdı.
Rauf ömrü boyu xırda detallara böyük qiymət verən olub.
Amma ona rast gələnlər etdiyin böyük yaxşılıqları xırdalayıb. Lap anam demişkən, əlinin duzu olmayıb.
Pulunun dostu çox olub. Həmişə "ac hərifləri" yedizdirməkdən ləzzət alırdı.
Həyatı çox enişli-yoxuşlu olub. Beş qızını oğul kimi böyütdü.
Tənqidi sevməzdi. Mənim kimi tərif aşiqi olub. Amma özünə qarşı tələbkar idi.
Övladlarının tərbiyəsinə neçə-neçə ailələr qibtə edə bilər.
Qardaş, bacı, dost üçün yanıb, övlad və nəvə üçün ürəyini verib.

Həyat yoldaşını və beş qızını SSRİ-nin şəhərlərindən tutmuş, Azərbaycanın bütün rayonlarınadək gəzdirdi. Bu hər ataya xas olan xüsusiyyət deyildi.
Ata-ana ocağında vəziyyəti pisləşəndə:- nə yaxşı ki, anamın evində ölürəm, Dilarə, uşaqlarımı sənə tapşırıram-dediyi indi də qulaqlarımdadır.
Onda mənim cavabım : Rauf uşaqlarının üstündə özün qartal ol, nəfəsin onlarsız olmasın -oldu.
Ondan sonra xeyli yaşadı. İnfarkta, cərrahi əməliyyatlara sinə gərdi. Amma neçə illər ona imkan verməyən astma xəstəliyindən yaxa qurtara bilmədi.
Bütün bunlara qalib gəlməsi, etdiyi yaxşılıqların nəticəsi idi.
Çünki "Əla ailə başçısı" olub Rauf.

19 yanvar1996 il

## Elə bil yuxudur onun yoxluğu

(Qardaşım Raufun vəfatının il dönümünə həsr edirəm)

Fərəcin xoşbəxt ailəsində üç qardaş, iki bacı olmuşuq.
Hamı bizə həsəd aparardı.
Ailənin ilk övladı Rauf gəldi dünyaya, gəlişi ilə sevinc gətirdi Nağıyevlər ailəsinə.
Kaş olmayaydı sonradan əzaba çevriləcək o sevincli günlər.
O vaxt heç düşünməzdik ki, iki bacı – üç qardaşı dəfn edəcək.
Rauf həmişə deyirdi: Dilarə, sənə ümidəm, məndən sonra uşaqlarımı diqqətsiz qoyma.
Yadıma düşəndə ki, 70 yaşının üçdə bir hissəsini həyat yoldaşının xəstəliyi ilə mübarizədə olub, ürəyim qan ağlayır.
Tez-tez yadıma düşür.
Ona oğul əvəzi qulluq edən Samir balam deyir ki, dayday hər gün nənə üçün çörək gətirərdi. Nənə isə ona hər gün :" həmişə çörəkli olasan, bala" deyərdi.
Bu sözlərin arxasında onun etdiyindən çox, ürəyi dayanırdı.
Hər birimiz ayrı-ayrılıqda Raufu anamıza çox qısqanmışıq.
Görünür bunun nəticəsi oldu biri-birimizi çox gec başa düşməyimiz.

Ömrünün çox hissəsini ana bəxtəvəri olmağı ilə bərabər,"bədbəxt" damğası onu daha çox bəzədi. 31 yaşında xoşbəxt həyatına son qoyuldu. Solmazın xəstəliyi üzdü onu, möhkəmliyini itirdi.
Həyatından bir parçanı yazıb, ona oxuyanda, sevindi ki, etdikləri hədər getməyib, bunlara qiymət verən var.
Kaş bu gün o sevincli günlər olaydı. Heç yaddan çıxa bilərmi ailəsi üçün, bizim üçün etdikləri.
Yadımdadır, mən xəstəxanada yatanda Samiri gündə üç dəfə yanıma gətirirdi ki, uşaq süddən ayrılmasın.
Ana qulluğunda olmağı, sözün əsl mənasında onun barmağını hansı səmtə uzatdığını izləyib, ora yönəldiyini unutmaq olarmı?
Armavirə gedərkən yolda anam ilə "savaşdığı" yadıma düşəndə gülməkdən uğunuram. Arxada uşaqlara çay süzəndə termos stəkana dəyərkən, səsin maşından gəldiyini düşünüb,dayandı.
Arxada arxayın –arxayın çay içənləri görəndə,səsin hardan gəldiyini duyub hirsləndiyi, sonradan isə gülməkdən uğunduğunu yadımıza salırıq.
Yolda eşşək görüb qəşş edən Könülün xahişi ilə o boyda yolu geri dönüb, onu ulağın üstünə mindirəndə, qəhrəmanlıq etdiyini düşünməyirdi. Bəli, bu qəhrəmanlıq idi. Çünki heç kəs yayın istisində o boyda yolu geri qayıtmazdı.
Bunu ancaq Rauf edə bilərdi. Çünki o, Rauf idi.
Yadımdadır," ana-balanın davaları" sonradan məzəli bir səhnəyə çevrilirdi.
Bütün bunlar yada düşür, amma o yoxdur.
Onsuz bunları yada salır, üzümüz gülsə də, ürəyimiz qan ağlayır.
Çətindir onsuz . Sənsizliyinə alışa bilmirik. Elə bil əfsanədir, bir il bundan əvvəl bizimlə idi Rauf.
Xəstəlikdən yaxa qurtara bilməyəcəyini başa düşsə də, arxasını yerə vurmayırdı. Əyilmirdi xəstəliyin qarşısında.
Allah gərək qıymayaydı ona, çünki onun həyat imtahanları saysız olub. Gündə 3-4 dəfə sözün əsl mənasında dünyasını dəyişib, yenidən həyata qayıdırdı.
Bir dəfə xəstəliyi kəskinləşəndə, bacımız Solmaz onun vəziyyətini görüb, böyük stres keçirmişdi.
Xəstəliyi ilə əlaqədar çəkdiyi əzabları hiss etməsək də, yanırdıq halına.
Hərdən düşünürdüm ki, insan neçə dəfə ölüb dirilə bilər?
Ölməyə haqqı yox idi. Çünki onun vəzifələri tam icra olunmamışdı.
Üç yeniyetmə qızı- Samirə, Nigar və Zəhra hələ subay idi.

Baxmayaraq ki, əvvəllər deyirdi: - ata yurdu oğula qalmalıdır.
Amma ata yurduna gələndə sevinirdi ki, ocağın işığını mən yandırıram.
Qapıların üzünə açılmasını dünya bilirdi.
Bir gün telefon ilə məndən anam bişirən xəngəldən istədi. Xəngəlin 25 dəqiqəyə hazır olmasından və dadından razı qaldığını və sevincini Bakının hamısına olmasa da, yarısına çatdırdı. Sifarişlərini yerinə yetirdikdə özümü rahat hiss edirdim. Anam kimi operativ olmağımdan hər yanda danışırdı.
Artıq bir-birimizi daha çox arayıb axtarırdıq. Allah -Təala bunu bizə çox gördü.
Raufdan sonra bu xörəyi menyudan çıxardım, çünki sifarişçi yox idi.
Yavaş – yavaş hər şey yerini tutursa da, o çatmır aramızda.
Bunu kiçik də hiss edir, böyük də.
Maddi durumu qane edici olmasa da, heç vaxt şikayət etməzdi.
Bəlkə də onun kimilər çoxdur, amma ailə üçün bu qədər can yandıranlar sırasında yek idi.
Dünyaya gəlişi bayram olduğu kimi, gedişi çoxlarında kədər doğurdu.
Bütün bunlar yadıma düşdükcə, sızlayıram onun üçün.
Ölüm yatağında ikən bizə ürək-dirək verirdi. Bir gün yaranan, bir gün öləcək –deyirdi. Atam da vaxtı ilə belə deyirdi.
Bəzi bəxtəvər kişilər kimi onun ağzı həyatda halva-halva deməklə şirin olmadı.
Cavan vaxtında hərdən oğulsuz olduğndan şikayətlənirdi.
Yataqda ikən hərdən deyirdi: Dilarə, sənə deyiləsi sözüm var. Amma əcəl aman vermədi.
Rauf, ürəyindəkiləri bilirdim. Sənin əvəzinə mən deyim: Sən beş qız deyil, beş qızıl qoyub gedirsən. Hər biri beş oğula bərabər qız.
Qeyrətdə Koroğlunun Nigarını, qəhrəmanlıqda Nəbinin Həcərini ötüb keçən Gülnarə qızını qoyub gedirsən.
Ailəsi pozulmuş Gülnarə qızına baxanda ürəyi qan ağlayırdı. Özünə yer tapa bilmirdi. Amma onun iki qızına -Cəmilə və Tahirəyə baxanda sevinib, deyirdi:
-Allah bunları qorusun. Təki salamatçılıq olsun.
Nənə Solmazın bu iki nəvəni böyütməsi bir əfsanəyə çevrildi. Axı o qaynanası Zəhra xanımdan dərs almışdı.
Hər ikinizin yerinə deyirəm –bərəkəllah ustadınıza.
1996-cı ildə Solmazın dünyasını dəyişəndə, dünya ona darlıq etdi.
Amma birliyimiz və beş qızı yaşatdı onu. Üzülürdü onsuz, amma dözürdü. Bu çətin də olsa, o yaşamalı idi. Hələ görüləsi işlər çox idi.

Üzürdü onu ailənin problemləri. İndi Solmazsız günləri çox ağır keçirdi. Qızları onu nə qədər əzizləyib, qulluğunda dayansalar da, onun yerini verən olmadı. Üç il yaşadı Solmazsız..
Xəstəliyinə heç cürə tabe olmaq istəmirdi. Gülnarə qızının ona qulluq etməsini özünə əskiklik sayırdı. Sürünə - sürünə də olsa, özü-özünü idarə etməyə çalışırdı.
Artıq xəstəliyi ona üstün gələndə, Gülnarənin qulluq etməsindən imtina etmədi. İndi onun dediyi ilə oturub dururdu Rauf. Ondan kömək gözləyirdi. Onun məsləhətləri indi onun üçün qanuna çevrilmişdi.
Uşaq kimi Gülnarənin işdən qayıtmasını gözləyirdi. O da onu bir övladı kimi əzizləyirdi. Xəstəliyinin şiddətlənməsini bacılarından gizlədən Gülnarə bu yükü balaca vücudunda necə gizlədə bilirdi? Sən demə həyat onu sınaqlardan keçirərkən, bu qüvvəni də vermişdi. Bu gün üçün hazırlamışdı.
Yuxusuz keçirdiyi günləri, atasının ağrılarını özününki bilib: ”hər şeyi qurban verərəm, təki ata nəfəsi üstümüzdən əskik olmasın” – deyirdi.
Axı Rauf ailə fədaisi olub. Həyatda oynadığı rollarının sayını hesablamaq olsaydı...
Bütün bu xüsusiyyətləri bir sənət əsərinə çevrilib, onu istəyənlərin qəlbində həmişəlik həkk olub.
Hər ata üçün övlad bu qədər yanmaz. Onun tərbiyəsi ilə böyümüş qızları bu gün onun yoxluğunu ürək ağrısı ilə anır.
O, bundan artığına layiqdir. Çünki o Rauf olaraq – yeganə oldu və yeganə olaraq qalacaq.
Övladlarına baxıb dərdini, ağrılarını unudurdu. Boya - başa çatdırdıqlarıyla fəxr edirdi.
19 yanvar 1998-ci il idi. Raufun ad gününü qeyd edirdik. Solmaz bacımızın xəstələndiyini, vəziyyətinin xoşuma gəlmədiyini deməyimlə Raufun evdən çıxmağı bir oldu. Özünü ona yetirib, onun ayaq barmaqlarını bir-bir öpərək (bunu uşaqlıqda edərdi), Solmaz, ölmə deyib yalvardığını, qızı Zəhra bizə danışanda, düşündüm ki, Rauf, bu cahana sığmaz.
Yoxluğuna inanmayan qonşuları bu gün də onu axtarır. Hamı bir ağızdan deyir: -Rauf kişidən bir dənə idi.
Övladları onu qiyməti bəlli olmayan ləl – cavahirat adlandırır.
Gülnarə qızı etdiklərini az bilib, deyir: -mən nə etmişəm ki, sadəcə övladlıq borcumu yerinə yetirmişəm.
İnanıram ki, əzrayılın əlindən almaq üçün atasını şüşə qaba salmağa da hazır idi o. Təki nəfəsi gələydi.

Əzab-əziyyətli həyata dözdü. Ondakı dözümə hamı qibtə edirdi.
Mənim əzabkeş qardaşım.
Onun yoxluğuna dözmək çətin olsa da, Samirə, Zəhra və Nigarın başqa yolu yox idi.
Özündən sonra yaratdığı qayda-qanunu qoruyub saxlayan Gülnarə bununla atasını yaşatmağa çalışır. Rauf, yaratdığın şərait və vaxtı ilə ailədə qoyduğun təməl daşını qızların çiyinlərində saxlayıb, qeyrətini qoruyurlar.
Hamı Rauf haqqında nə isə deyəndə, elə bil qəhrəman haqqında danışır. Əlbəttə o qəhrəmandır. Ailənin, ümumilikdə Nağıyevlər sülaləsinin qəhrəmanı oldu. Nəslimizin Milli qəhrəmanı.
Oğlum Samir onun qulluğunda duranda xəcalət çəkirdi.
Gəlinim Gülnarə də ona övlad olmaqla, həm də xüsusi həkimi oldu.
O , Rauf dayı deyib, müraciət edəndə də, tanışlıq verəndə də deyirdi ki, dayımdır.
Bu onun üçün dünya idi.
Beləcə yaşatdıq onu bacardığımız qədər. Öz sözlərilə desəm: “70 il yaşadın. Həyatın əzabını çəksən də, ləzzətini də gördün. Kişi kimi ömrünü başa vurdun”.
Öləcəyi saatı, hətta dəqiqəni də bilirdi. Bizdən gizlədirdi.
Rauf, sən hər zaman bizim ürəyimizdəsən. Bu belə də olacaq.
Çünki qoyduğun ləpirlər silinməzdir.
Həyatla vidalaşarkən, bizdə olan birliyi görüb, sevinirdi. Həsrət dolu gözlərini qızı Gülnarəyə dikmişdi. Vaxtı ilə üstündə ən çox əzab çəkdiyi qızı atasının həyatdan doymayan gözlərini qapadı.
Babası Ağa Musa və atası Fərəc də 70 yaş yaşadı.
1998-ci il iyulun 23-də babası Ağa Musanın “əmanət” qəbrini daimiləşdirərkən, onun nəşini Rauf qəbrə qoyarkən, heç ağlımıza da gəlməzdi ki, bir il sonra, həmin günü onun cənazəsi torpağa tapşırılacaq.
Bu da bir tarix. Bu da bir tale!
İndi darıxırıq onun üçün, zarafatları üçün. Axtarırıq onu.
Raufun yoxluğunu bilə-bilə axtarırıq onu.
Adlarını çəkdiyim insanların, eləcə də onu sevənlərin hər birinin qəlbində yaşayır Rauf bu gün də, sabah da yaşayacaq.
Daima axtarışda idi. Yeniliklər ardınca gedib hər zaman.
Yorğan-döşək xəstəsi olacağını heç vaxt təsəvvür etməzdik.
Həmişə hökmlü olub. Amma Gülnarə qızına indi bir uşaq kimi qulaq asırdı. Özü də hiss etmədən yavaş-yavaş yerinə onu hazırladı.
Axı onun alın yazısı da “zəhmətkeş” olub.

Amma çəkdiyi əzab-əziyyət hədər getmədi. O, yaşadı, yaşantısı ilə bir dastan yaratdı. İndi onu keçmiş halda yad edirik.
Rauf, sənin ömür kitabını vərəqləyərəq belə qənaətə gəldim ki, həyat sənə qarşı çox vəfasız olub. Xoşbəxtliyi səndən əsirgəyib. Bəlkə də səni sınağa çəkməklə bərkə-boşa öyrədib. Tale yazında o qədər cızıqlar var idi ki, hətta ürəyinə də iz salmışdı. Çox narahat insan idin. Qiymətini sağ ikən almışdın, dadına çatdığın qohumlarından, qonşularından. Səndən dərs alan qızların bu gün adını layiqincə yaşadır.
Bircə sən çatmırsan, yerin görünür hər zaman.

23 iyun - 1999 il

## Qısa ömrün 27 ili

(Minayə xanımın mərhum qardaşına həsr edirəm)

Dəyanət kişinin ailəsində ilk övlad – Adilin dünyaya gəlişi toy bayrama çevrilmişdi. Belə ki...
1957 –ci ilin sərt qış günü idi. Dəyanət kişi hərdən həyat yoldaşı Maxanıma gizli –gizli nəzər salıb, baxışları ilə sanki ondan soruşurdu, nə oldu ay arvad, sağımızdakı, solumuzdakı "Fatmanisələr" getdilər də, yüklərini yerə qoydular da. Hətta yaxınlığımızdakı keçəl Nəcəfqulunun oğlu da oldu. Mənim isə nigarançılıqdan daha dözümüm qalmadı. Allah eləməmiş birdən vurdu, qız oldu. Nə edərəm onda? Biyabırçılıq olar mənim üçün.
Axır iki ay idi ki, bu düşüncələr onu rahat buraxmayırdı. Bütün irəlidəkiləri isə o özlüyündə düşünürdü. Ürəyi ilə danışırdı. Amma çox istədiyi Maxanımına heç nə demirdi. Axı o əsl kişilrdən olub.
Yeri gəlmişkən Maxanım adının mənası –mənim xanımım deməkdir.
13 yaşından ata-anadan yetim qalıb, bacı-qardaş dərdi çəkib, onların ac qalmamaları üçün kişi hərəkətlərini həyata keçirən kiçik Dəyanət çox böyük işlər görürdü. Elə yaşca özündən çox kiçik olan gələcək həyat yoldaşını da qaçırmasına kasıbçılıq səbəb olmuşdu.
Amma Maxanım sonradan yağ-bal içində üzərkən, deyirdi ki, mən bilirdim kimə könül verirdim.
Xoşbəxt həyat sürən Dəyanət kişinin indi ehtiyac duyacağı bir şey qalmamaışdı. Yeganə nigarançılığı övladının qız və yaxud oğlan olacağı idi.

Elə bu məqamda Maxanım utana-utana dedi: ay kişi, deyəsən...
Beləcə 1957 ci ilin yanvar ayında Allah Təala Dəyanət kişinin ailəsinə oğul payı göndərdi. Hamı deyirdi Dəyanət kişinin elədikləridir, qabağına çıxır.
Kasıb-kusuba çox əl tuturdu. Axı özünün əli çətinliklə çörəyə çatmışdı. Odur ki, 9 övladının doqquzuna da deyirdi, ehtiyacı olanın əlini kəsməyin, Allah da sizə kömək olar.
Belə bir kişinin oğlu Adil də məhz belə ailədən olduğuna görə idi ki, sağ əlinin verdiyindən –solu xəbərsiz olurdu. Allah da elə bil həqiqətən bunu görür və dövləti onu başından tökürdü.
Maşının iki-iki qapıda durması bəlkə yıxdı Adili? Axı onun nə yaşı var idi? Cəmi cümlətanı 45. Ömrünün bahar illərini yaşayan Adilin günahı nə idi?
Mən çoxlarından sorğu - sual etdim onun haqqında. Fikirləşdim, bəlkə kim isə nə isə deyər. Amma düşündüklərim boşa çıxdı.
Hamı elə bil bir ağızdan deyirdi: - belə oğul həyata çox az gəlir!
Dəyanət kişi Adili həkim, o biri oğlunu isə hakim görmək niyyətində idi. Adil isə incəsənətə meyilli oldu. Qarmonda çaldığı mahnılar dillər əzbəri oldu. Əsgəri xidmətini könüllü olaraq Sibirdə - Çita şəhərində keçirdi.
Hərdən bacısı Minayə xanım ilə söhbət edərkən fikrə dalıb, deyir ki, görünür elə bu əsgərlik onun ölümünə səbəb oldu. Günki Sibirin şaxtasından sonra onun böyrəkləri demək olar ki, sıradan çıxmışdı. Əsgərlikdən qayıtdıqdan sonra səhətti pis də olsa, şikayət etmirdi. Deyib gülməyi ona elə bil güc verirdi. İfa etdiyi musiqi isə ruhunu oxşayırdı.
Minayə xanım deyirdi: hərdən hiss edirdim ki, hər hansı bir konsertin məşqlərinə var gücünü toplayaraq gedirdi. Amma konsertin baş tutmamasına razı olmayırdı.
Müalicələr nəticə verməsə də, ömrünün azacıq da olsa uzanmasına sevinirdik.
Atası kimi indi o da övladlarının naminə yaşamağı vacib bilirdi.
Amma atasından fərqli olaraq, Adil oğul övladının yolunu şox gözləməli oldu. Atası onun dünyaya gəlişini cəmi cümlətanı 9 ay gözləmişdisə, Adil oğlu Dəyanətin gəlişini 8-9 il gözləməli oldu.
Bircə arzusu var idi - atasının adı yerdə qalmasın. 6 qızdan sonra yaşadığı bu sevinc müəyyən qədər xəstəliyini ona unutdura bilsə də...
Atalar deyib ki, sən saydığını say, gör fələk nə sayır?
Xəstəlik isə öz işini görürdü.

O,  oğluna tez-tez deyirdi: mən Adil Dəyanətoğlu, sən Dəyanət Adiloğlu. Sən mənim atam, mən də sənin. Elə bil sözlərlə oğluna sonradan onun adını yaşatmağı vəsiyyət edirdi.
İndi oğlu deyir ki, kaş atam sağ olaydı, altı  oğlum olsaydı, altısına da onun adını verərdim.
Əbilov adına qədim mədəniyyət evi çox istedadlar aşkara çıxarıb.
Elə bunlardan biri də söz açdığım Adil Dəyanətoğlu olub. Gənc oğlan bu mədəniyyət evində musiqinin açılmayan qatlarına  baş vurmaqla, istedadlı bir ifaçıya çevrildi. Ata –anası onu bu yoldan daşındırmağa çox çalışsalar da, Adil dönməz oldu fikirlərindən.
Hələ uşaq ikən musiqi eşidərkən, hər işini kənara qoyan Adil,  bu sənətin ardınca getməyi artıq qərara almışdi.
Cavan oglanın  ilahidən ona hədiyyə verilmiş boy- buxunu, xarici görkəmi, üstəlik zövqlü kostyumu bütöv bir ansambl yaradırdı.
Mədəniyyət evi mənim evimin yaxınlığında yerləşdiyindən və atamın uzun müddət bu ocaqda işlədiyindən, yolum bura tez-tez düşürdü.
Hamının qəlbinə yol tapa bilən Adil mənim də hörmətimi qazanmışdı. Onunla təkcə musiqidən deyil, hər barədə danışmaq olurdu. Mən ona zarafatla prokuror deyirdim. Çox savadlı idi. Hərdən dərslərində də dinləyici kimi iştirak edirdim. Dərs zamanı tələbələri qarşısında musiqinin bütün sirlərini açmağa çalışırdı.
Zarafatı ilə ürəkləri oxşayırdı. Hər söhbətinin əvvəlində bir neçə atalar misalı çəkər, sonra məqsədə keçərdi. Hərdən ona zarafat ilə deyirdim ki, Adil sən deyəsən yaşını gizlədirsən, ya da ki, atan maya qoyub, yaşını azaldıb. Ağıllı danışıqları – yaşına görə deyildi. Hər dəfə onun tələsdiyini görürdüm. Amma bu gün də bilmirəm bunun səbəbini. Bəlkə o, dünyadan köçəcəyini hiss edib, bunu gizlətməyə çalışırdı özündən...
Adilin 45 yaşında, həyatının bahar çağında, sənətinin çiçəklənən vaxtında dünyadan köçməsi çoxlarına dərd oldu. Ən böyük dərd bacılarına paylandı.
Elə bil həyata hesabat verib köçdü. Sevilən sənətçi, gözəl ailə başçısı, sevimli ata, sabahını irəlidən düşünən insan.
Belə bir insanın həyatdan nakam getməsi heç bir çərçivəyə sığmır.
Hələ görülməmiş işlər, həyata keçməmiş planlar irəlidə idi.
Bu gün sənətçi dostları: Zöhrə Əliyeva, Zeynəb Dostəliyeva, Səbinə İlyasova bir ağızdan deyirlər: Adilin musiqisi ruhumuzu oxşayırdı. Onun geniş qəlbindən, əli açıqlığından söhbət salıb, insani keyfiyyətlərindən ağız dolusu danışarkən, susmaq bilməyirlər.
Müəllimi – təkrar olunmaz qarmon ustası Aftandil İsrafilovun -

“mən ondan çox ümüdlü idim. Axı niyə fələk məhz onunla belə rəftar etdi” deməsi hər bir insanı düşündürür.
Cünki hamını sevən və hamı tərəfindən sevilən belə bir oğul yaşamalı idi.
45 yaşında cənnət quşu olan Adil Dəyanətoğlu hər zaman ailəsində, sənətdə və onu sevənlərin ürəyində yaşayacaq.

İyun - 2010

## S e y r a n s ı z  g ü n l ə r i n

Gülnarə xanım ilə mənim aramda dostluq körpüsü salan gəlinim Gülnarə oldu.
Hələ məktəb illərindən başlanan bu dostluq, bu gün ailəvi mehribançılığa çevrilib. Ailəmə çox yaxın olan bu gözəl qadın, ata-ana qədrini bilən, dosta qiymət verən, yaxşı həyat yoldaşı olmaqla fərqli ana və dəyərli bibi - Gülnara xanımın 2000-ci ildə itkisinə ailəvi can yandırdıq. Onun itirdiyi 18 yaşlı qardaşı oğlu – Seyrana həsr etdiyi şeir düşüncələrini vərəqə köçürməyə məni vadar etdi.

Düşündüm, bəlkə bu sözlərlə ona dayaq olaram.....
Sevgi müxtəlifdir, istək cürbəcür,
Belə bir sevgiyə tapmıram cavab.
Qardaş balası şirindir, baldır,
Bibinin qəlbinin şah damarıdır!

Seyrana həsr etdiyi şerinə münasibətimi belə bildirdim: Seyran sənin cavan ürəyini vaxtsız qocaltdı, Gülnarəm mənim. Sən onu bibi kimi deyil, bir ana məhəbbətilə istəyib, əzizləyirdin. Övladlarının şənləndiyini görəndə, onlara baxmağı özünə günah sayırdın. Çünki, əlacsız Seyranını qarşında uzanmış görürdün.
Deyirlər ki, Allah insafsızın evini yıxar. Bəs sizlərə necə qıydı fələk?
Sən yaşından bu tərəfə etdiyin yaxşılıqların həm qiyabi, həm də əyani şahidi olmuşam. Deyirlər ki, yaxşılığı elə, at dəryaya. Bəs Xaliq sənin başına bu fəlakəti açmaqda necə qıydı? Bu ki, etdiklərinin sağolu deyildi.

1998-ci il 17 yanvar sənin təqvimində ikinci qara yanvar oldu.
Sənin həyəcanını görən Seyran –"bibi sənin üçün yaşayacağam"- deyirdi.
Onun xəstə görünüşü sənin üçün dərd olsa da, isti nəfəsi bəsin idi. Deyirdin ki, səhərlər onu otutacağında görəndə, elə bil dünyanı mənə bəxş edirlər. O, ölümü ilə sənə məlhəmi tapılmayan bir dərd verdi. Çoxları deyirdi ki, özünü ələ alasan. Hamı da bilirdi ki, ürəklə bacarmaq hər adamın işi deyil.
O günü and içmişdin ki, dünya Seyrandan sonra sənin üçün qara geyəcək. Həmin günü yuxuna gəldi. Səni qırmızı paltar geyməyə məcbur etdi. Buna görə hamı deyirdi ki, bu bibi ilə qardaş balasının məhəbbəti bir əfsanədir. Və bu gün də əfsanə olaraq qalır.
Bir gün yuxuda göz yaşlarınla islatdığığın yastığının soyuqluğunu hiss edib, oyananda, söz verdin ki, ağlayıb onun məzarını daha islatmayacaqsan. Gülnarə - çətindir sənin üçün, bunu hamı bilir. Başqa əlacın yox sənin. Deyirsən ki, qəlb ilə döyüşmək çox çətindir, bacarmıram.

Bu istək, bu sevgi – sonsuz, əbədi,
Fəqət sənin mənə verdiyin andlar.
Oldu gözlərimdən axan yağışlar
On səkkiz baharın-doqquzu əbəs...

Elə hey özünə sual verirsən niyə 9 yaşında ikən Seyran, "dostunun" qurbanı oldu? Haqlını müdafiə etmək sənəmi qalmışdı, Seyran? Uşaqlarla uşaq kimi atılıb-düşmək istədiyin bir vaxtda yataq xəstəsi oldun.
İndi onlar yaşayır, bircə sən yoxsan, mənim Seyranım – deyirsən.
"Yoxdur" sözü sənin üçün yabançıdır. Çünki onu qəlbində həmişəlik yaşadacağına söz vermisən. Onun hər gün bir buğda artdığını dəfələrlə söyləyəndə, səni tanımayanlar şübhə ilə baxırlar. Çünki sən onu görürsən. Belə olmasa hər səhər Seyranı salamlayıb, günəş qürub edəndə - axşamın xeyir -deməzdin.
Ağırdır sənin üçün qardaş balasını itirmək. Həkimlər onun yalnız 9 il yaşayacağını söyləsələr də, özü ilə bərabər sən də sağalacağına çox ümidli idin.
Buna görə Seyranın qollarını qolbağ əvəzinə sistemlərin bəzədiyinə dözürdün.
Bu sevgi, bu istək – sonsuz əbədi.

Bir gün, bir saat da olsa Seyranın ömrünü uzatmaqla özümüzü xoçbəxt sayırdıq deyən Gülnarə xanım, bir anda onu itirə biləcəklərindən də qorxurdu.
Seyran xəstəxanada yatarkən, Firuzə adlı bir qız ilə tanış olmuşdu.
Bibi, bir fürüzə qaşlı üzük al, yanıma gələndə bağışlayım ona demişdi. Qəlbimdən axan qara qanlar mənə rahatlıq vermədiyindən, onun xahişini yerinə yetirmədim. Bilmirəm düz etdim, yoxsa?.. Amma bu söhbət bu gün də yadımdan çıxmır, narahat hislər keçirirəm. Düşünürəm ki, bunu etsəydim, bəlkə Seyranın əksini indi bu üzükdə görərdim –deyir Gülnarə xanım.
Xaricə yola düşəndə ondan Politra gətirməyimi xahiş etmişdi Seyran. Şəkil çəkməyə həvəsli idi. Əlavə etdim ki, kurtka da alacağam sənə. Hamı bilir ki, xaricdə pul şatmır. Geriyə yola hazırlaşarkən birdən elə bil ilan çaldı məni. Politra almamşıdım. Pul da yoxdur.
Cehizlik özümə yataq örtüyü almışdım. İldırım sürətilə yataq dəstimi geri qaytarıb, Seyranın sifarişini yerinə yetirdim. O anda dünyanın xoşbəxti sayırdım özümü. Artıq Seyranın necə sevindiyini görürdüm. İndi dünyanı bağışlamağa hazıram Seyrana, o sevinci bir də görsəydim.
Mən Seyrana deyirdim: sən mənim brilyant qaşımsan. Bir dəfə ona dedim: səni belə bir qaşa çevirib, asacağam qulağımdan. O isə Fürüzə aşiqi olduğundan, Firuzədən xəbərsiz, işıqda yanan kəpənək kimi yanırdı onun eşqilə.
Çox şey qismətinə düşmədi ağıllı, yaşından qat-qat ağıllı Seyranın.
İndi sırqalarım ağırlıq edir qulaqlarımda sənsiz deyir Gülnarə bibi.
O günləri arzulayırsan. Yenə o bağ olaydı, yenə yanımda sən olaydın. Hayıf səndən Seyran –deyirsən.
Qisas almadız, şikayət etmədiz. Artıq Seyran şikəst olmuşdu. Həkim atası -həkimlərin məsləhəti ilə, sən isə məsləhət görülən hər bir türki-çarəyə əl atdız. Amma...
Çox üzdün özünü, amma davam gətirdin. Allah –Taala onu əlindən alıb sənə qüvvə verdi ki, dərdi çəkə biləsən.
9 il Seyranın şam kimi əriməsinə, indi də yoxluğuna dözməyi öyrəndin. Xəstəliyinin şiddətləndiyini görə-görə, sağalacağına inamın çox idi.
Xəyalən toy-büsat qururdun onun üçün. Xonça başının üstündə, Seyran isə yaraşıqlı qara kostyumda. Ağ köynəyinin axırıncı düyməsini bağlamır ki, bibim bağlayacaq, əhd edib. Köynəyini düymələmək istəyəndə yerə qoyduğun xonça dağılır, şirəyə batmış əllərinlə köynəyini batırmamağa çalışarkən, islanmış balışının soyuqluğundan yuxudan hövlanak ayıldın.

Görürsən, Seyran! Bibin sənə xəyalən toy da edir.Belə xəyallar çox olur. Vağzalı çalınır, anam ağlayır. Bir evdən qız gəlin köçür, bir evə qız gəlin gəlir. Qismət olmadı bu sənin bəxtinə. Hər dəfə düşünəndə ürəyi sızlayır Gülnarənin.

Toy büsat qururdum  xəyalən sənə
Xonçalar bəzəyib, düzürdüm sənə.
Vağzalı çalındı, bilmirəm nədən
Məzara gedən yolda səninçün.

Gülnarə bibi Seyranın toyunda necə süzəcəyini doqquz il idi ki, görürdü. Yuxuda yox, xəyalən. Görürdü həmin kostyumu, həmin köynəyi, həmin xonçanı- bu düşüncələr bu gün də üzür Gülnarə xanımı.

Xonçalar bəzəyib, düzürdüm sənə...
Mənim sənə olan məhəbbətimi görə-görə,
Necə qıydı fələk sənə?
Ürəyim düşmüş dara nə deyim,
Seyran həsrətilə indi nə edim?
Ağlına olmuşdum əzəldən heyran
Yaşından qat-qat ağıllı insan.
Unutmaram səni nə qədər sağam,
Gözümün nuru, işığı -Seyran!

Gülnarə xanım, mən sənin böyük ürəyinin hər zaman məhəbbətlə döyünməsini arzulayıb, səbr diləyirəm. Ölən canını qurtarır, qalan isə dərd çəkməyə məcbur olur. Bu həyatın aksiomasıdır.
Təsəllini bunda tap.

İyul  2000- il

## Rənanın vaxtsız ölümü bizi sarsıtdı

(Qudam Tamilla xanıma ithaf etmişəm)

1989-cu ilin fevral ayının 18-də Bədəlovlar ailəsinə ağır, heç vaxt yaddan çıxmayacaq, illərlə ürəklərdə iz buraxan bədbəxtlik, böyük itki üz verdi.

30 yaşlı qızları Rəna – ömrünün çiçəklənən bir çağında dünyaya əlvida dedi.

Qara saçlar deyirəm mən, ağarmasın vaxtsız heç vaxt,
Qəm karvanı bitməz nədən, düşünürəm hərdən-hərdən
Heç bir ana dərd əlindən saçlarını yolmayaydı kaş.

Rəna dünyasını dəyişərkən özündən sonra iki göyərçin balası qaldı. Komendant saatı idi. Şəhərdə böyük gərginlik hiss olunurdu. Gecə yarısı telefon zəngi Tamilla xanımı çox narahat etdi. Allah xeyir etsin deyib, dəstəyi əlinə alanda donub qaldı. Abbas kişi özünü ona yetirəndə qulaqlarına inanmaq istəməsə də, qızı Rənanın ölüm xəbərini eşitdi. Əhmədlidən Musabəyov qəsəbəsinə necə gəlib çatması nə atanın, nə də ananın yadında deyildi. Orası bəlli idi ki, yolboyu nigarançılıq, fikir onları üzürdü. Dəhşətli bir hadisə baş vermişdi.

Mənzil başına çatanda gördükləri: atanın-ananın gül balası Rəna elə bil yatmışdı. Amma həyatın qəddarlığı üzündən çəkilməmişdi.

Zərər çəkən Rənanın valideyinləri, bir də övladları oldu. Abbas kişi tez bir zamanda sağlamlığını itirdi. Dərd çəkən Tamilla xanım- ana isə məzarın üstə gələndə dərdini gizlədir, sevincini onunla bölüşürdü. Məzarını da evlərinin lap yaxınlığındakı qəbirstnlığa gətirdilər. Elə bil bununla Rənanı qorumaq istəyirdilər. Yeganə təsəllini bunda tapıdırlar. Əlbəttə Rəna onu istəyənlərin bu gün də qəlbindədir.

Fağır, mədəni, ağır təbiətli bir gəlin idi. Əvvəllər Tamilla xanımın yaxınlığında olanda da Rəna heç vaxt ona dərd verməz, poblemlərini ondan gizlədərdi.

Bəlkə bütün bunların nəticəsi idi ki, o,“sevirəm” kəlməsini dərk etmədən ailə qurdu? Bəs iki bala sevinc deyildimi?

İndi ata-ananın yuxuları ərşə çəkilib. Deyirlər ki, elə bil yaxşı yatırıq, amma nədənsə narahatıq. Çünki onların evi indi Rənanın məzarıdır. Orada əkilən qızılgüllər heç bir yerdə elə tutmayır. Bəlkə bu toxumlar onun ürəyindən su içir, axı o çox erkən dəyişdi dünyasını.

Zavallı Rəna! Yaşlı ata-ananın yükünü artırdın: məzarın üstə gələndə sənin dərdini, evdə iki dərdli balanın yükünü daşıyır indi onlar.

Axı onlar dünyanın bəxtəvərləri olub. Hamı onların xoşbəxtliyindən, məhəbbətindən, firavan həyat sürmələrindən danışırdı.

Göz dağı qoydu Rəna özündən sonra övladlarını. Düz deyirlər ki, uşaq anadan yetim qalır.

Aslan ürəyi yemiş valideynləri istəsələr də, istəməsələr də, səhər yenə açılırdı. Təkcə Rəna əsirgədi nəvazişini balalarından.
Anan hər söhbət zamanı deyirdi ki, Rəna dünyaya gəlişi ilə evimizə ruzu gətirdi. Bəs necə oldu Allah bu ruzunu Rənanın özünə-taleyinə vermədi?
İndi anan daha çox çalışır, qızının nazını çəkir. Amma nə fayda, bu ki, sadəcə nənə nəvazişidir, ananı əvəz etmir.
Sən ananın gül balası, qızılgül kimi, vaxtsız solan çiçək kimi soldun. Rəna sən incə məxluq olaraq illərlə qalacaqsan yaddaşlarda.
Məzarın üstə bir dərd ilə gələn Tamilla xanım, qayıdanda çələng dolu dərd aparır özü ilə.
Axı sən onun gündüz günəşi, axşam çırağı idin. İndi işıqlı səhər də ona qaranlıq görünür. Ancaq adınla yaşayır. Rənam mənim-deyir.
Neçə illərdir ki, səhər şəklinlə salamlaşıb, axşam xeyirə qarşı qızım, deyir.
Qara mərmər üzərindəki əksində elə bil məzlum baxışlarınla uşaqlarını xəbər alırsan.
Onu bil ki, anan aslan kim qoruyur balalarını – axı onlar sənin yeganə yadigalarındır, atan-anan üçün qoyub getdiyin nişanən.

18 fevral 1995 il

## İstəkli qardaşım Çingiz

(vəfatının ildönümünə həsr edirəm)

Bir insafa gələrsənmi,
Özün durub, gələrsənmi,
Göz yaşımı silərsənmi,
Sənin üçün darıxıram,
Sənin üçün darıxıram.

Mənim nakam, dünyadan doymayan qardaşım. İki ildir dünyanı dəyişmisən. Mənim üçün bu 10 ilə bərabərdir. Axı sən mənim payıma düşmüşdün? Uşaqlıqdan məni ən çox incidən də o olub, çox istəyəndə. Fərqimiz o idi ki, Allah ona başqa bir gözəllik vermişdi. Hündür boy, gözəl qamət, savad, kül rəngli saç, ağbənizlik, göy göz. Ona lap paxıllığım tuturdu, belə də gözəllik olar kişidə?

Sevmədiyi bir qız ilə başqalarının rəyi ilə evləndi. Nərgizdən bir Arzu qızı oldu. Tez bir zamanda boşandı. Amma hayıf, çox hayıf. Ağır təbiətli, mədəni, zəkalı və savadlı bir xanım idi Nərgiz.
Hər ikisi analarının qurbanı oldu. Şekspirin Hamleti kimi: Olum və ya ölüm – kəlmələrinin seçimində idilər.
Səhvini başa düşəndə, artıq gec idi. Nərgiz arxa çevirdiyi evə bir də gəlməzdi.
Toylarda sifariş etdiyin mahnı "Arzu qızım" idi. Yalnız təsəllini onda tapırdı Çingiz.
Mənim bədbəxt qardaşım. Vaxtsız, gül kimi solan qardaşım.
Dərdin gücündən ürəyi qan ağlasa da, deyib, gülürdü.
Yazdıqca keçmişləri yada salıb, sızlayıram Çingizim üçün. Məzarı üstünə gəlirəm ki, guya dərdimi yüngülləşdirəm, gücüm ancaq ağlamağa çatır. Ağlayıram onun hədər keçirdiyi həyatına.
Bu dəfə səhfi atamız etdi. Deyirlər ki, anasına bax, qızını al. Yalandır! Aldanmayın!
Heç vaxt düşünməzdim ki, bu misal tamamilə yersizdir. Çünki gözəl bir qadının, əsl-nəcabətli Ruxsara xanımın qızı onun tamamilə əksi oldu. Yeganə təsəllisi qızı Fərəh (atanın adına yaraşdırmışdı) oldu. Səd heyif ki, bu səadəti də uşağın anası ona çox bildi. Onda biz hamımız bir ağızdan dedik ki, uşaq istərsə, damarlarında bizim qan axırsa, özü bizi tapacaq.
Meylini Raufun və mənim uşaqlarıma saldı. Onların içərisində Könül qızım onun məhəbbətini hamıdan çox qazandı.
Qazanan olub Çingiz. Yeyib-içən idi. Hər gün o, işə gedəndə, məhlədəkilər və qonşular onun geyiminə tamaşa edərdi. Həftənin yeddi günü kostyum dəyişən anacq Çingiz ola bilərdi. Necə deyərlər: qılıncının dalı da kəsirdi, qabağı da. Məhlənin "ac hərifləri" isə onu işə yola salır, həm də qarşılayırdılar. Çünki onlar Çingizin hesabına yeyib-içirdilər. Aldığı iki ali və bir də orta ixtisas onu çörəksiz qoymadı. Səhərə qədər oxuduğu kitablar onu qane etmirdi. Kitabxanalardan boş qayıdan günü axşam yuxu bilirdi.
Xoşu gəlirdi kiməsə yaxşılıq edə. Amma bəxti-talehi əvvəldən düz gətirmədi. Məclislər yaraşığı idi, sözün əsl mənasında.

İndi sən mənim üçün, özün boyda olmusan,
İndi mən sənin üçün, özün boyda yanmısam
Yanmağınla ömrümdə ömrü boyu qalmışan.
Bəlkə azımız qalıb, çoxumuz ölüb bizim,

Dərddən ölərəm dedim, ölə bilmədim, qardaş.
Axı biz əkizdik, niyə belə ayrıldıq?

Yaş fərqimiz az olduğundan, uşaqlığımız əkizlər kimi keçib. Bir deyib, bir gülmüşük. Xəstələnəndə də eyni cürə. Bəs məndən necə ayrıldın?
Həyatının narahatçılığı tez bir zamanda öz işini gördü. 50 yaşında səni iflic edib, yatağa saldı. Ananla indi daha çox yanırdıq sənin üçün.
Bilməyərəkdən, ya da ki, xəstəliyinin nəticəsi idi bilmirəm, amma ananı incidirdi. Onun öləcəyini heç ağlına da gətirməzdi. Amma bunu hiss edəndə, anaya olan məhəbbətini mənə bildirdi. Axı bizim anamızdan - Zəhra xanımdan bir dənə olub. Gözəl qadın, qeyrətli, işgüzar, təmiz ürəkli, haraya çatan və...
Yoruldum deməzdi. Hamımızı istəyirdi. Amma Çingizi lap çox istəyirdi.
Anam dünyasını dəyişəndə, Çingizi mənə tapşırdı ölüm ayağında, elə bil körpə uşaq haqda söhbət gedirmiş kimi.
Bir il üç ay çəkdim cəfanı anamdan sonra. Xəstəliyini müalicə etdirsəm də, nəticəsi olmadı.
Düz deyirlər ki, sən saydığını say, gör fələk nə sayır. Xəstəliyinə xərclədiyim pulları Rauf qardaşımız görəndə, başını buladı. Onda mən dedim ki, bir saat da olsa Çingizin ömrünü uzada bilsəm, deməli dünyanın xoşbəxtiyəm. Ölüm onu artıq caynağına almışdı.
Dünyanı dəyişərkən çətinlik çəkdi. Onun cəmi 55 yaşı var idi. Həyatdan doymayan gözləri elə bil deyirdi: kömək edin, yaşamaq istəyirəm.
Əziyyət çəkdiyini görüb, hər iki əlinə qızlarının adına daş (qədim vaxtda belə ediblər) qoyub, adlarını çağırdım Arzunun və Fərəhin. Fərəh adını deyən kimi qolunu sinəsinə sıxıb, həyata əlvida dedi.
Çingiz sən behişt adamısan. Heç kəsə pisliyin dəyməzdi. Yaxşılığın saysız-hesabsız olub.

Doğma şəhərində izin görünür
Sən keçən yollardan keçə bilmirəm.
Yadıma düşəndə qəlbim döyünür
Heyləyim, özümə gələ bilmirəm.
Ay qardaş, şadlanıb, gülə bilmirəm
İndi ölümünə dözə bilmirəm.
Həmişə bir yerdə yaşayaydıq kaş
Sənsizəm, bu dərdə dözə bilmirəm.

19 sentyabr - 1994 il

**PS:** Yazını Çingiz qardaşımın vəfatının ildönümünə hazırlamışdım.
Bu gün işıq üzü gördüyünə görə yeni bir xəbəri, şok xəbəri- bildirmək qərarına gəldim. 2005-ci il martın 15-də Dövlət Dram Teatrında “Mesenat”- milyonçular haqqında tamaşanın premyerasına getmişdim bacım Solmaz ilə.
Fərəh - Çingizin qızı teatra mənə rast gələcəyi ümidi ilə gəlmişdi. Onun Çingiz kimi gülüşü və ona çox oxşarlığı məni cəlb etdi.
Və nələr oldu....
Təkcə onu deyə bilərəm ki, səhərədək ağladım və səhəri gözümlə açdım. Səbəbini bu günədək tapa bilmirəm. Bu sevincdən idi, yoxsa...
Fərəh iki oğul - Zaur və Orxanın anasıdır. Çox ağıllı və tərbiyəlidir. Qabiliyyətlidir. Lap bizim nəslə yaraşan bir xanım. Zaur –nəvə elə bil sözün əsl mənasında Çingizin (babasının) əksidir. Arzum odur ki, taleyi Çingiz babasına oxşamasın.
Axı mən irəlidə qeyd etmişdim ki, istəyən axtaracaq, tapacaq.
İndi Fərəh mənim ən istəkli qardaşım qızıdır. Çingizin məzarını birlikdə ziyarət edirik.

## Azərbaycanın Tacirləri

(Efsir Surxay oğlu Süleymanova ithaf edirəm)

2001-ci ildə redaktoru olduğum “Azərbaycanlı tacirlər” kataloqu nəşrə hazırlanarkən, payıma 15 ticarət işçisi haqqında fikir yazmaq düşmüşdü.
Ticarət Nazirliyində 23 il işlədiyimdən, tanıdıqlarım çox idi.
Lakin Efsir Surxayoğlu haqda məlumatlı deyildim. Ən çox üzərində işlədiyim və ən çox xoşima gələn yazı da bu oldu.
Ailəsi ilə görüşdüm. Çox xoşhal oldum. Üç oğul atası olan Efsir Surxay oğlunun tərcümeyi - halı maraqlı olduğundan, onun haqda bu kitabımda yazmağı vacib saydım.

Dünyada ilk peşə sayılan ticarət işçisi haqqında uzun illər yalnış təsəvvürümüz olub. Əsl ticarəti küçə alveri ilə qarışdırmışıq hər zaman. Amma çox vaxt ticarətə və ticarətçilərə əyri güzgüdə baxıb, unuduruq ki, həyatımız onlarsız heç vaxt keçinə bilməz.

Totalitar rejim hökm sürdüyü bir dövrdə, 1962-1998-ci illərdə - ticarətin ən çətin vaxtında Efsir Surxayoğlu bu sistemdə işləmiş, bu yolda dərin izlər buraxmışdır.
Ostrovskinin bir gözəl kəlamı var: ...çalış ki, həyatda keçdiyin yolda ayaq izlərini elə qoyasan ki, arxaya baxanda, keçirdiyin həyat tərzi üçün heyifslənməyəsən.
Bütövlükdə bu kəlam Efsir Surxayoğlunun 36 il ərzində ticarət aləmində etdiklərinə aiddir.
O dövrdə hər-hansı bir obyekt və ya məsuliyyətli vəzifəyə namizəd axtarılardısa, Efsir oranın əsgəri olub.
Adının mənası –"Şahın tacı" deməkdir. Bu ad elə bil onun vəzifədən – vəzifəyə keçməsinə, şahlıq etməsinə bir təkan verirdi.
O, erkən vaxtlarında başsız qalmış ailədə üç bacı və qardaşı boya - başa çatdırmaq üçün işləməyə başlayır. Ailəni ayağa qaldırır.
Sonradan Efsir dünyasını dəyişərkən, bacılarından biri aöı deyib, ağlayarkən, bu sözləri nahaqdan söyləməmişdi:
-"Evimiz yxıldı, tacımız qırıldı"...
Efsir Surxayoğlu 1939-cu il dekabrın 23-də Azərbaycan Respublikasının Sabirabad rayonunun Qalağayın kəndində dünyaya göz açıb, orada orta məktəbə gedib, ailə vəziyyətinin ağırlığını nəzərə alaraq, təhsilini fəhlə - gənclər məktəbində davam etmişdir.
1957-ci ildə daxil olduğu Azərbaycan Xalq Təsərrüfatı institutunu "İqtisadçı-Mühasib" ixtisası üzrə 1962-ci ildə bitirir.
Elə o vaxtdan gənc mütəxxəsis kimi əmək fəaliyyətinə mühasib vəzifəsindən başlayır.
Çox qısa bir vaxtda Efsir Surxayoğlunun - savad və bacarığını nəzərə alaraq, mağaza müdüri vəzifəsinə təyin edirlər.
Artıq 1975-ci ildə Efsir Surxayoğlu püxtələşmiş, professional bir ticarət işçisi kimi tanınır.
Efsir Surxayoğlu o vaxt dəbdə olan "Gənc komsomolçular" mağazasını təşkil edənlərdən birincisi olur. Daha sonra məhz bu mağazada alıcılara "xüsusi xidmət üsulu" həyata keçirilməsi də onun səyi nəticəsində həyata keçir.
37 yaşlı Efsir daima axtarışlar aparır, yeniliklər edirdi.
O, mağazanın daimi alıcıları ilə əlaqəyə girir, onların tələb və təkliflərini həyata keçirməkdə bacarığını əsirgəmirdi.
Alıcılara individual diqqət - onun işində əsas yeri tuturdu.
Bu insan vitrinlərin bəzədilməsində, dizaynerlikdə də şücaətini nümayiş etdirə bilir.

Azərbaycan Respublikasının Ticarət Nazirliyi tərəfindən - Efsir Surxay oğlunun bütün bu yenilikləri daima diqqət mərkəzində idi.
Onun rəhbərlik etdiyi kollektiv ilin bütün rüblərində sosializm yarışlarında qalib gəlirdi.
1978-ci ildə ilin yekunlarına görə kollektiv “Fəxri Vımpel” döş nişanına layiq görülmüşdi. Həmin ildə “Keçici qırmızı bayraq”ında bu kollektivə təqdim edilməsi - Efsir Surxayoğlunun nailiyyəti olub.
40 yaşlı Efsir Surxayoğlunun adı Bakı Təsərrüfat Malları Torqunun “Fəxri Kitabı” na düşür.
Onun iş prinsipi yerli mətbuatın da gözündən yayınmırdı. Haqqında yazılan məqalələrdə onun bacarığından, yeniliklər axtarışında olduğundan, ticarət sistemindəki dönüşlərindən bəhs edirdi.
Onun söylədiyi və sevdiyi bir şüar var idi: -ticarət- halallığı sevir.
Bu oldu onun amalı –istəyi.
Elə gənc yaşlarında onu yüksək vəzifəyə -Bakı Kurort Ticarəti Direktoru təyin edirlər.
Çox az keçmiş, onu daha yüksək vəzifəyə- Respublika Kurort Ticarət Torqunun direktoru təyin edirlər.
Bu nailiyyətlərlə yanaşı o, təhsilini də artırmaqda davam edirdi.
Belə ki, Ali partiya məktəbini bitirib, siyasi savada yiyələnir.
Kurort Torqun direktoru vəzifəsində ikən, əlavə öhdəlikləri üzərinə götürməyi də vacib sayırdı.
O, təsərrüfat işlərinin fəaliyyətinin yaxşılaşması üçün əlindən gələni əsirgəmirdi.
1994-cü ildə - bazar iqtisadiyyatına keçid dövründə nəğd pulun çatışmamasının qarşısını almaq, satışdan əldə olunan gəlirə nəzarət etmək üçün kiçik müəssisələrdə və eləcə də komersiya mağazalarında sayğac aparatlarının qoyulması, vergi sistemində müvafiq islahatların aparılması barədə mülahizələr irəli sürmək- Efsir Surxayoğlunun əsas problemlərinə çevrilmişdi.
Daha sonra o, Bakının Xətai rayonuna – ticarətdə ilk addımlarını atan bir əraziyə peşəkar bir mütəxxəsis kimi göndərilir.
Artıq ticarətdə püxtələşmiş Efsir Surxayoğlu burada da işi yoluna qoymaqla yanaşı işçilərin əməkhaqqını artırmağın da yollarını arayır.
1992-ci ildə, artıq 30 il ticarət sistemində külüng vuran Efsirə ağır zərbə dəyir. O, Bakı İcra Hakimiyyətinin Sərəncamına əsasən vəzifəsindən kənarlaşdırılır.

Qapılar döyən, haqq axtaran, etdiklərini bir-bir yada salan Efsir Surxay oğlu –ailəsi qədər əzizlədiyi işindən kənarlaşdırıldığının haqsızlıq olduğunu başa salsa da, onu başa düşən tapılmır.
Düz deyiblər ki, haqq nazilər, ancaq üzülməz.
Bu ümüdlə Efsir Surxayoğlu bu dəfə istəyinə düz 3 ayın tamamında nail oldu.
1993-cü ildə - Respublikada Demokratik hərəkatın genişləndiyi, qanunu dövlətçiliymizin bərqərar olduğu bir zamanda Efsir Surxayoğlu Süleymanov vəzifəsinə bərpa olunur.
Çünki vaxtı ilə o, Xam torpaqlarda işləməkdən də boyun qaçırmayıb. Onun sinəsini "Şərəfli Əməy"ə görə döş nişanı və "Ticarət əlaçısı" medalı bəzəyirdi.
Sevdiyi işindən vaxt tapa bilməyən Efsir Surxayoğlu, vaxtaşırı Səməd Vurğun poeziyasını mütaliə edirdi. Akademik Ziya Bunyatov ilə söhbəti isə bir tarixçi kimi tuturdu.
Bütün bunlarla yanaşı Efsir həzin musiqini çox sevirdi. Qədim alətlərdə ifa olunan musiqini dinləyəndə isə tam başqa Efsir olurdu.
Ədalətin sazı –özü dediyi kimi –onu məst edirdi.
Beləcə, ticarətçi Efsir –sirli bir aləm.
Belə bir insan - Efsir Surxayoğlu 1998-ci ildə sentyabrın 2-də əbədiyyətə qovuşdu.
Həyat yoldaşı Sədaqət xanım indi onu belə xatırlayır:
-"Efsirimin yoxluğunu xəyalıma belə gətirə bilmirəm. Varlığını duyuram. Elə budur məni yaşadan. Əgər onu ruhən yaşadıramsa, qəlbimdədirsə, deməli o, yaşayır".
Elə həmin ümid ilə də üç oğlu öz əməllərilə onu bu gün də həyatda yaşadır.
Şünki o atalıq borcunu layiqincə yerinə yetirib, hər üçünə ali savad verib. Aldıqları savad və tərbiyəyə görə onlar atalarına hər an sonsuz minnətdarlıqlarını bildirirlər.
İlki – Rövşən, Daxili qoşun hissələrində müşavir vəzifəsində, Elşən oğlu isə bank sistemində şöbə müdiri vəzifəsində çalışır.
Firuz oğlu – aldığı təhsillə kifayətlənməyib, xaricdə təhsilini davam edərək, artıq neçə illərdir ki, telekommunikasiya sahəsində aparıcı vəzifələrdə çalışır.
Efsir Surxayoğlunun həyat yoldaşı Sədaqət xanımın xatirələrində çox maraqlı epizoda rast gəldim:
Bir rus qadını üzümə baxıb, soruşdu – nədən belə xoşbəxtsən? Təəccübləndim ki, yad bir insan bunu haradan bilir? Sualıma belə cavab

verdi- üzündən oxudum xoşbəxtliyini. Onda dedim ki, məni xoşbəxt edən, üzümdəki o xoş və incə duyquları həkk edə bilən rəssam – mənim Efsirimdir.
Efsirin dostları da onun barəsində layiqincə danışıb, ruhunu hörmətlə yad etmələri və bu anda gözlərinin yaşla dolması – onun insani xüsusiyyətlərindən xəbər verir.
Hələ tələbəlik illərindən dostluğu davam edən, Əhəd Teyyuboğlu onun yaxşılıqlarından ağızdolusu danışıb, deyir:- tələbə vaxtı kasıbçılıq olduğundan bir çarpayılıq otağı ikimiz icarəyə götürmüşdük, hər birimiz 15 gün yerdə yatmaq şərtilə. Bel ağrımdan xəbər tutan Efsir, çarpayıdan birdəfəlik imtina etdi . Mən hər il onun doğum və vəfatı günü məzarı üstə gedib, əklil qoymaqla, təskinlik tapıram. Elə bil borcumu verirəm.
Efsir Surxayoğlu - Murtuz Ələsgərov və Ziya Bunyadov kimi ictimai xadimlar ilə bərk dostluq edərdi.
Efsir Surxayoğlu 1997-ci ildə ölümünə az qalmış, özünə bir dost da tapır. Tofiq Mustafaoğlu Abdullayev – hüquqşünas, təqaüddə olan orqan işçisi- söhbətində bildirdi ki, onu gec tapıb, tez itirdiyimə heyifslənirəm. Bağ qonşum olduğuna baxmayaraq, 15 ildə yaxınlığımız olmayıb. Elə bil öləcəyini hiss edib, mənə yaxınlaşdı. İşdən kənarlaşdırıldığı vaxtlar idi. Bağda qalırdı. Elə bil şəhərdən incik düsmüşdü. Qışı da birgə keçirdik. Ailələrimiz də dostlaşdı. Adətən orqan işçiləri ticarətçilərə “pulgir” kimi baxırlar. Amma Efsirin simasında mən ticarətdə təmiz insanlara çox rast gəldim. Bacarığına və qabiliyyətinə bələd olduğum bu insanın üzündə ilahilik gördüm. Istər qonşu, istərsə də yadlara əl tutmaq onun artıq qanına işləmişdi. Yadların da ehtiyacını, özününki kimi qəbul edib, kömək əlini uzadırdı.
Ad gününü qeyd etməyi sevməzdi. Amma mənim dil qabiliyyətimdən xoşu gəldiyindən, mütləq özünün və yaxud nəvəsi olarsa, onun şənliyini keçirməyi mənə həvalə edəcəyinə söz vermişdi.
Səhhəttinin pisləşdiyini hiss etsə də, sabaha ümidli idi Efsir Surxayoğlu. Xarici görkəmi və daxili aləmi mənə onu nazir gözündə görməyə məcbur edirdi –deyən Tofiq, bu itkiyə inanmaq istəmir.
Onun ölümünü faciə kimi qarşılayan bütün dostları bir ağızdan – böyük itkidir, dedilər. Çünki belə xasiyyətli, belə xüsusiyyətdə insanlar çox az tapılar.
Bunun sübutudur ki, o, işdən nahaq yerə kənarlaşdırılarkən, işə yenidən bərpa olunması üçün Ziya Bunyadov kimi bir alim çalışıb.
Efsir Surxayoğlu övladlarının ləyaqətli olmalarına nəzarət edib və buna nail olub. Çox tələbkar olub. Ailədə qayda tələb edən bir insan olub.

Həyatda yetmədiyi bir arzusu qaldı – nəvə görmədi. Bu da görünür onun alın yazısı idi.
Həyatda ləyaqətli bir ailəni misal gətirmək lazım olarsa, bu ailə bariz nümunədir, desəm yanılmaram.
İntizamlı olaraq, nəzakətə hər zaman tələbi olub. Dostlarının sayının artması ilə bərabər, onları itirməkdən qorxurdu. Təvəzökar idi.
Nərd oynamağı sevirdi. Təəccüblüdir ki, qoşa zər çox atırdı. Əgər nahaq hərəkət hiss edərdisə, çox nadir hallarda bunu müzakirə edərdi. Bu da kişi xüsusiyyətlərindən biri idi –qeybət sevməzdi.
Dəniz kənarında günəşi qarşılayıb, bir də qürub edəndə -yola salmağı xoşlayardı.
Səhvi üzə vuran olmayıb, amma yeri gələndə ünvanına çatdıran olub.
Bir sözlə - Efsir Surxayoğlunda kişiyə xas olan bütün müsbət xüsusiyyətlər cəmlənmişdi.
Deyirlər ki, zəhmət insanı incitməyir, ancaq zəhmətin itirilməsi – insanı incidə bilər. Sözünə çox dəqiq olub Efsir Surxayoğlu.
Ölüm iki cürə olur: cismən və mənən - onun əməllərini yaşadanlar ona nadanlıq edəndə.
Bu baxımdan demək olar ki, Efsir Surxayoğlu mənən sağdır. Onun əvəzedilməz əməlləri yad edildikcə - o yaşayır.
Böyük Loğman deyib: - "Bu gün keçdi, çalış sabah açılmamış bu gecəni xoş keçir həyatda".
Nə qədər ki, Efsir Surxayoğlunu tanıyanlar, ailəsi, sədaqətli xanımı və dostları var – yad ediləcək, qəlblərdə saldığı izlərdə həmişə yaşayacaq.
Çünki onun həyatda qoyduğu dərin izlər silinməzdir.
Onun üç cəngavər oğlu var.
Avqust 2001-ci il

**P.S.** Tanımadığım bu insanı çox bəyəndim. On il əvvəl Sədaqət xanımla, Efsir Surxayoğlunun dostları və oğlu Rövşən ilə olan görüşüm qəlbimdə bu ailəyə qarşı məhəbbət hisslərini oyatdı. Yazı çox olduğundan "Azərbaycan tacirləri" kataloqunda çox da geniş məlumat verilmədiyindən, qeydlərimi saxladım. Amma heç düşünməzdim ki, bu yazıya qayıdacağam. Bəlkə də bu mənim Ticarət Nazirliyində işləməyimdən və ticarət işçilərinin zərif cəhətlərini duyduğumdan irəli gəlirdi. Axı mən kadr işçisi olmuşam. İnsanlara qiymət verməyi bacarmışam.

## **Solmaz xanım hayıf ki yoxsan...**

(Ailəmizin birinci və axırıncı, ən istəkli gəlininə ithaf edirəm)

Sənsizlik dünyanın belini bükdü,
Yoxluğun gözlərin yaşını tökdü.
Sənsiz yer ağladı, göy nalə çəkdi,
Həyatda əvəzin olmadı, Solmaz!

Sənli günlərimiz indi xəyaldır,
Getdin, bu dünyada yerin boşaldı.
Səni vaxtsız əcəl bizlərdən aldı,
Bu dünya sənə də qalmadı Solmaz!
Ey dünya, bil sənə qalmadı Solmaz!

Nədən bu vəfasız, fani dünyada,
Yaxşılar həmişə tez gedir bada?
Rahat yat, düşəcək xatirən yada,
İzin ürəklərdə solmadı Solmaz!

Ölüm-dirim arasında üç gün apardığımız mübarizə nəticə vermədi. Solmazın ürəyi oktyabrın 16-da dayandı.
Onun üçün- "hayıf Solmazdan" deyənlərin sayı hesaba gəlmirdi.
Solmazın özü kimi analığı, nənələyi, gəlinliyi də gözəl idi.
Yadımdadır, 17 yaşlı gözəl Solmazın yaraşığına baxmağa qohumlardan əlavə qonşular da gəlirdi.
Haqqında danışanlar Fərəcin gözəl gəlini – deyirdilər.
Gözəlliyi ən başlıcası onun xoş xasiyyəti idi. Xöş xasiyyətli mələk.
İndi bu mələk üçün yer-göy ağlayırdı.
Sağ olaydı, beş qızının onun üçün necə yandıqlarını, nələr etdiklərini görəydi.
Gənclik illəri gözümün önünə gəldikcə, anasız böyüdüyünü yadıma salıb, sızlayıram Solmaz üçün. Körpəlikdən ana laylayı eşitmədi qulaqları. Qaynana-qaynata bəxtəvəri oldu.
İlahi bunu ona çox görüb, xəstəliklə mübarizəyə qovuşdurdu.
Tabe oldu. Yorğun idi. Beş övlad, dörd nəvə böyütdü. Təşəkkürlərinin sayı artdıqca, gizli xəstəlikləri də artırdı.
Ən əsası şəkər xəstəliyi belini qırdı. Beləcə həyat ilə vidalaşdı.
Yaxşı insanı itirmək nə qədər çətindirsə, onu itirmək daha ağır oldu.

Hər zaman bir insan kimi diqqəti, ana kimi mehribanlığı, nənə kimi narahatlığı, həyat yoldaşı kimi – yoldaşının əsgəri olduğu vaxtlar durur gözümüzün qarşısında. Sürprizlərini istədiklərindən heç vaxt əsirgəməzdi. Hər hadisənin tarixi başında cəmlənmişdi. Elə bil kalkulyator idi.
Yeganə diqqətsizliyi özünə qarşı oldu. Əgər keçən illəri qaytarmaq olsaydı, görərdi, yaşayardı.
Dəyişsən də dünyanı düşəcəksən sən yada,
Yaxşı əməllərinlə əbədisən dünyada!

16 oktyabr - 1997 il

## Məryəm xanım təsəvvürümdə belə qalıb

İyirmi il yaş fərqimizin olmasına baxmayaraq, bu münasibətlərimizdə hiss olunmurdu. Tale məni 19 yaşımda Məryəm xanım ilə rastlaşdırdı.
Bu günədək bu münasibətin baş tutmasından razıyam. O, mənim üçün valideyinlərimdən sonra bir həyat məktəbi oldu. Söhbəti gedən bu xanım, ilk Xalq artisti Ələsgər Ələkbərovun qardaşı – Mahmudun həyat yoldaşı olub. Bəxtəvərlik ona çox az müddət nəsib oldu. Görünür onun alın yazısı: "mübariz" olub. Həyatla necə mübarizə apardığı ən ağır illərin şahidinə çevrildim.
Ailəmizə gözəl insan kimi daxil olan Məryəm xanım, yüksək intelektə malik olub, ağlı, təvəzökarlığı, mədəniyyəti, savadı və tərbiyəsi ilə çoxlarına bu gün də nümunə ola bilərdi, yaşasaydı. Həyat onu nə qədər imtahana çəkirdisə, bir o qədər elə bil püxtələşirdi.
19-20 yaşlarımda öyrətdiyi evdarlığın sirrləri mənə sonradan həyatım boyu lazım olarkən, dediyim "sağ ol"ları, indi "Allah səni rəhmət etsin, Məryəm xanım", sözləri ilə əvəz edirəm.
Bir neçə il görüşmədik. Çox maraqlı bir səhnə baş verdi və biz yenidən görüşdük:
1993-94-cü illər idi. Qızım ilə keçmiş 1 may küçəsindən keçərkən, birdən pəncərəni göstərib dedim, bax sənə söhbət açdığım Məryəm xanım bu evdə yaşayırdı. Bilmirəm köçüb, ya yox. Qızımın təkidi ilə içəri girəndə mənim təəccübümə və çaşğınlığıma – onu oturacaqda bir ayağlı görməyim səbəb oldu. Məni tanımadı. Amma qızım Könülə baxaraq: "Ay Dilarə, bu ki, sənin əksindir" –deməsi, bir səhnə yaratdı.

Bu dəfə çox az müddət görüşdük və bir dəfəlik ayrıldıq...

Mən ona ilahi bir insan kimi baxırdım. İncə qəlbli bu qadında daxili tərbiyə və alicənablıq özünü hər zaman biruzə verirdi.

Desəm ki, bu qadın ensiklopediyadır – inanın. Ona verilən hər sualın nəinki cavabı, hətta həlli də hazır olurdu.

Necə deyərlər: bir üzü qız, bir üzü gəlin ikən dul qalmış Məryəm xanım, tezliklə həyatın çətinliklərinə qoşuldu.

Xanımlığına son qoyuldu – işləməyə başladı.

Tibb işçisi kimi fəaliyyətə başlayan Məryəm xanım, işçilərin bir gün işləyib, üç gün istirahət etdiyi halda, bunun əksinə olaraq, işdən baş açmayırdı. Üç övladının sarsılmaması naminə gecəsini gündüzünə qatırdı. Onların naminə həyatından keçməyə də hazır idi.

Məryəm xanımın canı və qanı bahasına iki oğlu və qızı Turan yaxşı savad alıb, ailə qurub, Məryəm xanımı nənə də etdilər.

Çox çətinliklə uşaqlarını boya başa çatdıran 60 yaşlı Məryəm xanımı həyat daha böyük bir imtahana çəkdi.

Musabəyov qəsəbəsində qaz buraxma nəticəsində baş verən partlayış, onun ilki olan Ələkbəri bir dəfəlik əlindən aldı. Məryəm xanım bu dəfə sözün əsl mənasında uçuruma yuvarlandı. O, Ələkbərin həsrətilə 10 il yaşadı.

İndi sinə dağı olan gəlini Sona xanım və üç nəvənin başsız qalması ömrünün retrosuna döndü. Məryəm xanımın bu dərdi çəkməyə gücü qalmasa da, var qüvvəsini toplayıb, onların dərdinə şərik oldu.

Elə bil bu ailəni izləyən pis gözlər getdikcə böyüyüb, çərçivəsindən çıxırdı.

Yenidən əzablı günlər, yenidən ruh düşgünlüyü bürüdü Məryəm xanımı.

Yaraları sağalmamış Məryəm xanımın şəkər xəstəliyinin şiddətlənməsi nəticəsində həkimlər ayağını kəsməli oldular.

Həyat ona çox qəddarlıq etdi. Amma o, həyatla mübarizədən əl çəkmədi.

Bütün bu dərdlərin nəticəsində Məryəm xanımı infarkt vurdu.

Buna səbəb Biri-birinə qarışan xəstəliklər deyil, bala dərdi oldu.

11 gün həyat ilə ölüm arasında apardığı mübarizəyə ölüm qalib gəldi.

Bala həsrətilə döyünən ürək dayandı. Övladlarının və nəvələrinin həsrətinə son nöqtəni qoydu beləcə Məryəm xanım. Əzablı ömrü bitdi.

70 ilin 35 ilini əzab-əziyyət içərisində keşirən Məryəm xanımın nağılı beləcə sona yetdi.

Nədənsə həyat birinə bütün nemətləri nəsib edir, o birisindən isə əsirgəyib, hətta kiçik xoşbəxtliyi belə çox görür ona.

Məryəm xanım kiçik bir işə böyük qiymət verən olub.

İki sual arasında qalmışdım : - əyər onunla ikinci görüşüm olmasaydı??

İyun 1995 il

## Nənə Məryəm

Qısa müddət keçdikdən sonra Turan xanımla görüşərkən, Məryəm xanımın ilk nəvəsi və ən istəklisi Rəna, nənəsi ilə bağlı elə hadisələri yad etdi ki, bunları qələmə almamağı qeyri - mümkün saydım.
Desəm ki, bütün nənələr və nəvələr yaxşıdır, yanılmaram. Çünki hər ikisinin öz şirinliyi var.
Görək Rəna nəvəsi onu necə xatırlayır?
Nənəmin dünyasını dəyişdiyi günü heç vaxt ununtmayacağam. O neçə - neçə qohumlara kömək edib, bildiyini heç kəsdən əsigəməyib.
Dərdli nənəmə problemlərin çoxluğu əzab verirdi. Onun bizə gəlişi toy-bayrama çevrilirdi. Gəlişi ilə evimizi işıqlandırırdı. Şirin tikəsini hamı ilə bölsə də, amma ən iri tikəni mənə verərdi. Mən nəvələrinin içərisində ən əzizi olduğumdan, ən çox mənim nazımı çəkdiyindən, onun yoxluğu mənə daha şox əzab verir. Sevgimin ona qarşı çox olmasına səbəb, onun mənə ana kimi yanaşması idi.
Bizə gələndə onu çox istədiyimdən bir iş görməyə icazə vermədiyimdən, məni “Jandarma” adlandırırdı. İmkanım olsaydı şüşə qab kimi onu əzizləyib, pambıq arasıda saxlardım. Bizim nəslimizin idealı idi nənəm.
Qatarla Truskoveskiyə istirahətə yola düşürdük. Hər ikimiz xiyar yeməyi sevirdik. Dayanacaqların birində aldığımız bir vedrə xiyar o biri dayanacağacan qurtarmışdı. Gülməkdən uğunduq. Ona gülmək çox yaraşırdı. Sevgimi ona çatdıra bilmirdim. Ondan məsləhət alanlar, eləcə də biz başsız qalmışıq indi.
Evimizin dirəyi idi. Yaşının çox olmasına baxmayaraq, irəli sürdüyü fikirlər çox müasir idi. Son nöqtəni yerində qoyurdu hər zaman.
Acı anlarımızın şirin dəqiqələri olub nənəm. Onunla keçirdiyim saniyələr saata bərabər idi.
Torpaq bizi ayırdı. Nankor övlad kimi həyat da hərdən nankorluq edir.
Ölümündən sonra cavan nəvəsi Kamil – Ələkbərin oğlu faciəli olaraq, dünyasını dəyişdi.
Yeni ili “şən” qarşılamağı qərara aldıq ki, hər şey geridə qalsın. Bacarmadıq. Onsuz bacarmadıq.

Ayağı kəsiləndə nələr çəkdik, bir Allah bilir.
O mənim rəfiqəm idi. Sirrimiz bir idi. Ona oxşamağa çalışırdım. İmtahan qabağı xeyir-duanı anamdan deyil, ondan alırdım. Ali məktəbə qəbul olduğuma o qədər sevinirdi ki, çünki onun idealı idim.
Ölüm yatağında da mənim taleyim onu düşündürürdü. Ona "nənufa" deyib, müraciət edirdim.
Onunla həmsöhbət olmaq, fikir bölüşdürmək mənə rahatlıq gətirirdi.
Ayağını kəsəcəkdilər, onun xəbəri yox idi. Bu məqamda məni rəfiqəmin toyuna getməyə məcbur etdi.
Təzə don geydim, dedilər ki, mənə çox yaraşır. Mən isə özümü narahat hiss edirdim bu geyimdə, çünki nənəmi səhər nəticəsi bəlli olmayan əməliyyat gözləyirdi. Toydan birbaşa xəstəxanaya gedəndə, donu əynimdə görcək: - "ay aman, nəvəm lap saray şahzadələrinə oxşayır bu geyimdə"- deyəndə, dünaynı mənə bəxş etdi ilə bil.
Nənəmin o günki sevinci hər zaman gözümün qarşısındadır.
Onu bilirdim ki, mən onun, o isə mənim ilahəm idi.
O mənim üçün hələ də tapmaca olaraq, bir sirr olaraq qalır.

Çağırıram, çatmır əlim,
Uzadıram, yetmir əlim,
Sənin üçün əsir qəlbim,
Bilsən necə darıxmışam,
Sənin üçün darıxmışam!

Şam işığında yazını onlara oxuyanda, işəqlar yandı, mətbəxdə elə bil nə isə yerə düşdü. Deyirlər ki, ruhlar hər zaman bizimlədir...

1996 il.

Ömrün səhifələri kitabının arxa hissəsi (ŞƏKİLİM)
Dilarə Ağamusa Nağıyeva Fərəc qızı Azərbaycan Respublikasının Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, A.M.Nağıyevə həsr etdiyi kitabların müəllifi, onun adını daşıdığı "Milli Dəyərlərin Qorunması" İB sədri, A.M.Nağıyevin ictimai fəaliyyətinə həsr etdiyi mövzu ətrafında Akademiyanın Tarix İnstitutunun dissertantıdır. 1995-ci ildən Ağa Musa və Fərəc Nağıyevlərin fəaliyyətini araşdırmaqla məşğuldur.

Hazırda Ağa Musa Nağıyevə həsr etdiyi “Mənalı ömür yolu” kitabı üzərində işləyir. Azərbaycanda yeganə hadisədir ki, Ümümdünya Sülh Federasiyasının nümayəndəsi Ağa Musa Nağıyevin fəaliyyəti ilə tanış olub və onu ölümündən sonra, eləcə də Dilarə xanımı “Sülh səfiri” Diplomları ilə təltif edib. Dilarə xanım Oskar Mədəniyyət qəzetinin “İlin adamı” Fəxri Diplomu ilə mükafatlanıb. “Simurq” Mədəniyyət Assosiasiyasının yaradıcı fəaliyyətinin inkişafında xidmətlərinə görə Assosiyasiyanın; Akademik Zərifə Əliyevanın anadan olmasına həsr edilmiş konfransın nümayəndəsi olaraq, Dövlət Mədəniyyət və İncəsənət Universitetinin; Gənc zabit kadrların hazırlanmasında göstərdiyi hərbi vətənpərvərlik xidmətlərinə görə Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin - “Fəxri Fərman” ları ilə təltif edilib. Yubileyi münasibətilə “Qafqaz Media” İB -nin “Cəsarətli Qələm”; İlin ziyalısı – xeyriyyəçi, Milli mətbuatın mənəvi dayağı və Ağa Musanın nəvəsi olaraq, “Əsrin Ziyalıları” İB-nin Fəxri Diplomlarına layiq görülüb.

İki övlad anasıdır. Üç nəvəsi var.

Kitabın içindəkilər:


Ön söz
Giriş
**Həcər hünərli, Nigar qeyrətli xanım**
**Müəllifdən**
***Nağıyevlər nəslinin aslanı Dilarə xanım***
**Təvəzökarlıqdan kənar olsa da ...**
**Bakının arxitekturasını Ağa Musa Nağıyevin 98 binası bəzəyir**
**Ziyalı qadın**
***Aprel ən çox sevdiyim aydır***
**Şam kimi əridim bu yolda, amma sönmədim**
**“musanaqiyev. az” sayı internet səhifələrində**
**Müqəddəs Həcc ziyarətində oldum**
**Unutqanlığı sevmirəm**

**Mükafatlarım**

**Dilarə xanıma**

Ö m r ü n   z i y a s ı
Dilarə xanım 50 yaşın mübarək
Rauf qardaşımın qızlarının arzuları
Gəncliyimi xırdalayıb 65-ə çatdım
Ürək sözlərim

SAMİRİMƏ HƏSR EDİRƏM

ÜÇ RƏFİQƏ, ÜÇ ANA, ÜÇ İCTİMAİ QADIN
ZƏKA VƏ ÜLVİYYƏT
Bu ərəfədə ikinci dəfə məşhəd
ziyarətində oldum
Ad günün mübarək
Solmazın gözəlliyi gündəmdədir
Varisin vəfası
Dilarə xanım bütün nəslimizin
gözündə bir aslandır
60 iliik yubileyinə təbrikimiz
Tarixdən silinəcək izlər
dövrümüzün səhifələrində
S a d i q   ö v l a d
Təbəssüm üzündən əskik olmasın
F ə r ə c   Na ğ ı y e v i n həyat yolundan kiçik epizod
FƏRƏCİN YARADICILIĞINA KİÇİK EKSKURSİYA...
Teatr atamın bu günü, sabahı, gələcəyi olub
Qaravəlli tamaşası haqqında
"QARAVƏLLİ" xalq teatrının yaranması
Ağa Musa Nağıyev adına təşkilat yarandı
"Divan"a divan tutuldu
Nurəngiz xanım "gün" ün aydın
*İ n c ə s ə n ə t d ə   k e ç ə n   ö m ü r*
Səhnə arxası həyat
D ü n y a,   m ə n i   t a n ı d ı n m ı
Sevgi dolu dünyan var sənin
Nizami Muradoğlu - yubileyin mübarək
Baba Vəziroğlu – bayramın mübarək
Y A Ş A M A Ğ A   A B İ D Ə
G ü l a r ə  M u n i s i n  g i z l i   a l ə m i
Gülçöhrə müəllimə
Ramiz Zülfüqar oğlu

**Rəfiqə xanımın "həyat hekayəsi"**
**"Vətən daşı" Rövşən Mustafayev**
**Bircə sən yoxsan, əzizim**
**Mən anamın ilkiyəm...**
**Elə bil yuxudur onun yoxluğu**
**Qısa ömrün 27 ili**
**S e y r a n s ı z g ü n l ə r i n**
**Rənanın vaxtsız ölümü bizi sarsıtdı**
**İstəkli qardaşım Çingiz**
**Azərbaycanın Tacirləri**
**Solmaz xanım hayıf ki yoxsan...**
**Məryəm xanım təsəvvürümdə belə qalıb**
**Nənə Məryəm**